www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 fevral 2018-ci il Bazar ertəsi № 45 (6934) Qiyməti 60 qəpik

**Xəbər**

## Daşkəsəndə "ZİL" sürücüsü sevgilisini öldürüb qaçdı

yazısı səh.14-də

**Gündəm**

### Tarixin qan yaddaşı: Xocalı soyqırımından 26 il ötür



Bu gün qətliam qurbanları ilə bağlı Bakıda anım yürüşü keçiriləcək; dünyada "Xocalıya ədalət!" silsilə tədbirləri davam edir...

yazısı səh.2-də

### Bayıl yavaş-yavaş sürüşür - Abid Şərifov son durumdan danışdı

yazısı səh.4-də

### İsa Qəmbər bu gün xəstəxanadan çıxa bilər

yazısı səh.3-də

### Qarabağ üçün yeni sülh formulu: "Unudulmuş köhnə", yoxsa...

yazısı səh.11-də

### Alpinistlərin itkin düşməsindən iki ay ötdü: axtarışlar hələ də davam edir

yazısı səh.3-də

### Xocalı şahidi: "Dizi qırılan xocalılı dedi ki, məni güllələ..."

yazısı səh.4-də

### Prezidentliyə 15 namizəddən yalnız biri imzaları verib

yazısı səh.9-da

### Uşaqları döymək tərbiyə üsuludurmu? - Psixoloqdan maraqlı şərh

yazısı səh.14-də

### BMT TŞ-dən ikibaşlı Suriya qərarı - hədəf Türkiyə, yoxsa...

yazısı səh.12-də

### Folklorşünas: "Novruz sırf müsəlmanların bayramı deyil"

yazısı səh.13-də

### Alimlərdən xəbərdarlıq: 40 il sonra şokolad olmayacaq

yazısı səh.14-də

## Okeanın o tayından bu tay üçün kritik gözlənti

# ERMƏNİLƏR PANİKADA - TRAMP İŞĞALÇIYA QARABAĞ SÜRPRİZİ EDƏ BİLƏR

Düşmən ölkədə ABŞ-ın silah embarqosundan dolayı təlaş artır; Ermənistan İlham Əliyevin İrəvan bəyanatı ilə Amerikanı şantaj etməyə çalışır; Qərb nəşrindən maraqlı şərh...




yazısı səh.8-də

## Ziya Bünyadovun qatili onun ailəsindən üzr istədi

**Ömürlük məhkum Nizami Nağıyev:** "Tahirə xanımın yolu ilə getsinlər, bizi bağışlasınlar..."

yazısı səh.5-də



*Fazil Mustafa:*

### "Bu il siyasi motivlə həbsdə heç kim qalmamalıdır"

yazısı səh.3-də



*Tahir Kərimli:*

### "Bu can nə olan şeydir ki, 62 yaşında onu qurban etməyim?"

yazısı səh.7-də



### İlqar Məmmədov üçün kritik həftə

yazısı səh.10-da

## Türkiyənin başına 4 milyon qoyduğu terrorçubaşı tutuldu



**Terror təşkilatı PYD/PKK-nın "qırmızı siyahı" ilə axtarılan keçmiş həmsədri Saleh Müslim yaxalanıb. Musavat.com Türkiyə qaynağına istinadən xəbər verir ki, Saleh Müslim Çexiyanın paytaxtı Praqada saxlanılıb.**

Kürd mənşəli suriyalı siyasətçi Saleh Müslim 1998-ci ildən terror örgütlərinə qoşulub. Türkiyənin Daxili İşlər Nazirliyi onu terror cinayətindən axtarılanlar siyahısına salıb. "Qırmızı siyahı"da olan Müslim üçün 4 milyon lirəyə qədər pul mükafatı qoyulub.

## Azərbaycan səfiri Moldovanın iqtisadiyyat naziri ilə görüşüb



**Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanov bu ölkənin iqtisadiyyat və infrastruktur naziri Kiril Qaburiçlə görüşüb. "Report"un Şərqi Avropa bürosu xəbər verir ki, görüşdə Azərbaycan və Moldova arasında münasibətlərin inkişafı və ikitərəfli tərəfdaşlıq istiqamətində əldə olunan uğurlar yüksək qiymətləndirilib, ticarət və investisiya imkanları barədə müzakirələr aparılıb.**

Nazir K.Qaburiç Moldovaya yeni investorların cəlb edilməsi, biznesin inkişafı üçün ölkəsinin təklif etdiyi imkanlar barədə səfir Q.Osmanova məlumat verib. "Nazirliyimiz ümumi qarşılıqlı faydalı ticari-iqtisadi əməkdaşlıq üçün hər zaman açıqdır", - deyə nazir əlavə edib.

Azərbaycan səfiri Q.Osmanov rəsmi Kişinyovun biznes mühitinin stimullaşdırılması və xarici investorların ölkəyə cəlb edilməsi istiqamətində həyata keçirdiyi islahatları yüksək qiymətləndirib. Görüşdə Moldova-Azərbaycan hökumətlərarası komissiyasının fəaliyyətinin canlandırılması, iki ölkənin iş adamları arasında biznes-forumların təşkili məsələləri də müzakirə olunub.

Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 2016-cı illə müqayisədə 30% artaraq 7 milyon ABŞ dolları olub. Hazırda Moldovada 33 mln. lei (2 mln. dollar) investisiya kapitallı 120 Azərbaycan şirkəti fəaliyyət göstərir.

## Gürcüstanda dövlət bayraqları endirildi

**Gürcüstan Parlamentinin qərarı ilə fevralın 25-i ölkədə Sovet İşğalı günü elan olunub. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bununla əlaqədar olaraq bu gün dövlət idarə və müəssisələrində dövlət bayraqları endirilib.**

Müstəqil Gürcüstan dövlətinin Sovet imperiyası tərəfindən işğalı zamanı həlak olmuş insanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Sovet İşğalı günü ilə əlaqədar paytaxtda və bölgələrdə tədbirlər keçirilir, gənclərə sovet işğalı ilə bağlı məlumatlar verilir.

## Bu gün Bakıda 10° isti olacaq

**Bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a-a verilən məlumata görə, səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq.**

Şimal-şərq küləyi gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 4-6° isti, gündüz 7-10° isti təşkil edəcək.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Tarixin qan yaddaşı: Xocalı soyqırımından 26 il ötdü

### Bu gün qətliam qurbanları ilə bağlı Bakıda anım yürüşü keçiriləcək; dünyada "Xocalıya ədalət!" silsilə tədbirləri davam edir...

**Bu gün Azərbaycanda Xocalı faciəsinin 26-cı ildönümü qeyd edilir. 1988-ci ildən başlamış Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə ən müdhiş, faciəli hadisələrdən biri Xocalıda baş vermiş soyqırım oldu.**





1992-ci ilin qanlı faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etdilər. Şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur oldular. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edildi. Bir gecənin içərisində qədim Xocalı yerlə yeksan edildi.

Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürüldü, 487 nəfər əlil oldu, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qaldılar. 150 nəfərin taleyi isə hələ də məlum deyil. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qoca olub. Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edildi, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi.

1994-cü il martın 1-dən 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" kimi hər il Azərbaycan xalqı tərəfindən yad edilir. Xocalı şəhidləri isə heç zaman unudulmur. Hər il 26 fevralda olduğu kimi, bu gün də Xocalı soyqırımının 26-cı ildönümü münasibətilə Bakıda yürüş keçiriləcək.

Azərbaycan prezidenti İlham Əliyev, hökumət və dövlət rəsmiləri, eləcə də deputatların "Xocalı abidəsi"ni ziyarət etməsi gözlənilir. Həmçinin İctimaiyyət nümayəndələri, sadə vətəndaşlar, faciənin canlı şahidləri də bu gün Xocalı qurbanlarını yad edəcəklər. Bu gün habelə müxtəlif dövlət qurumları, həmçinin mədəniyyət ocaqlarında Xocalı qurbanlarının xatirəsinə həsr olunmuş tədbirlər keçiriləcək. Bundan başqa, dünyanın müxtəlif ölkələrində "Xocalıya ədalət" şüarı altında silsilə tədbirlərin keçirilməsi gözlənilir.

❑ **NƏRGİZ**

## Etibar Məmmədov beynəlxalq təşkilatın sədr müavini seçilib



**19-22 fevral 2018-ci il tarixlərində İspaniyanın Salamanka və Madrid şəhərlərində AMİP-in tam hüquqlu üzv olduğu Beynəlxalq Demokrat İttifaqının (BDİ) növbəti Qurultayı-Partiya Liderlərinin Toplantısı keçirilib. Qurultayda AMİP-i partiyanın Beynəlxalq Əlaqələr Katibi Elşən Mustafayev və Gənclər Təşkilatının sədri Ayxan Etibaroğlu təmsil ediblər.**

Bu barədə "Yeni Müsavat"a AMİP mətbuat xidməti məlumat verib. Xəbərdə deyilir ki, dünyanın 100-dən artıq sağ-mərkəz yönlü partiyasını öz ətrafında birləşdirən BDİ-nin 3 ildən bir keçirilən Qurultayının gündəliyinə bir çox mühüm məsələlər daxil olub. Dünyada baş verən qlobal konfliktlər, dövlətlərin təhlükəsizlik məsələləri, separatçı hərəkatlara qarşı mübarizə və bir çox digər məsələlər 3 günlük toplantının əsas müzakirə mövzuları kimi müzakirəyə çıxarılıb.

Qurultayın sonuncu günü BDİ rəhbərliyinə seçkilər keçirilmiş və Kanadanın sabiq Baş naziri Stefen Harper növbəti 3 illik müddətə BDİ-nin sədri seçilib. Eyni vaxtda sədrin müavinlərinin seçkiləri də keçirilib və AMİP lideri Etibar Məmmədov növbəti dəfə BDİ-nin sədr müavini seçilib. Həmçinin Norveçin Baş naziri Erna Solberq, Şri-Lankanın Baş Naziri Ranil Vikremesinge, Avropa Xalq Partiyasının (EPP) Prezidenti Josef Doul, Avropa Mühafizəkarlar və İslahatçılar Partiyasının (ACRE) Sədri Jan Zahardil də yeni seçilmiş sədr müavinləri sırasındadır. Qurultaya ev sahibliyi edən İspaniyanın hazırda hakimiyyətdə olan Xalq Partiyasının parlament üzvləri ilə parlamentdə qarşılıqlı fikir mübadilələri aparılıb, tədbirin sonunda İspaniyanın baş naziri Mariano Roxoy Monkloa sarayanda Qurultay nümayəndələri ilə geniş görüş keçirib.

❑ **E.SEYİDAĞA, "Yeni Müsavat"**

## Tiflisdə "Xocalıya ədalət!" aksiyası keçirilib

**Gürcüstanın paytaxtı Tiflis şəhərinin mərkəzində "Xocalıya ədalət" aksiyası keçirilib. APA-nın məlumatına görə, aksiya Rustaveli metro stansiyası yaxınlığında başlayıb. "Borçalı İrəli" İctimai Birliyi, "Azərbaycanın dostları klubu" və Gürcüstanın Azərbaycanlı Hüquqşünasları Assosiasiyasının təşkilatçılığı ilə baş tutmuş aksiyada Gürcüstanın azərbaycanlı gəncləri, tələbələri və ictimaiyyət nümayəndələri iştirak edib.**

Təşkilat rəhbəri Məhəbbət İmanov bildirib ki, aksiyanın keçirilməsində məqsəd Xocalı soyqırımı barədə Gürcüstan ictimaiyyətini məlumatlandırmaqdır.

Əllərində gürcü və ingilis dilində "Xocalıya ədalət" şüarının yazıldığı plakatlar, Azərbaycan və Gürcüstanın bayraqlarını tutan gənclər Rustaveli prospekti ilə Gürcüstan parlamentinin binasına qədər yürüş edib. Yürüş boyu şəhər sakinlərinə və xarici qonaqlara Xocalı soyqırımı barədə məlumatların əks olunduğu gürcü və ingilis dillərində bukletlər paylanılıb. Aksiyaya parlament binasının qarşısında "Xocalıya ədalət!", "Qarabağa ədalət!", "Abxaziya və Cənubi Osetiyaya ədalət!" şüarları ilə yekun vurulub.



## Hökumət göstəriş verdi: hamı velosiped alsın, özü də ağ rəngdə!

**Bu il Türkmənistanın hər bir dövlət müəssisəsi kütləvi velosiped yürüşünə 3-dən 6-can nümayəndə göndərməlidir. Onlar özlərinə velosiped də almalıdırlar. Azadlıq Radiosunun Türkmənistan xidməti xəbər verir ki, ölkədə velosiped istehsal olunmadığı üçün qiyməti çox bahadır: 3000-4000 türkmən manatı (80-130 dollar).**

Buna görə də bir çox müəssisələrdə qərara gəlinib ki, velosipedləri "atışıb" alsınlar. Yəni bütün işçilər pul toplasın. Dövlət müəssisələrində çalışanların iş yerlərini itirməkdən qorxduqları üçün bu pultoplama əməliyyatında iştirak etdikləri deyilir. Adının çəkilməsini istəməyən bir Aşqabad sakini Radioya deyib ki, "işçilərə bunun beynəlxalq tədbir olduğu deyilib. Bildirilib ki, onlar belə tədbirlərdə gərək canla-başla iştirak etsinlər".

Dövlət müəssisələrinə verilən göstərişə görə, alınan velosipedlər mütləq ağ rəngdə olmalıdır. Veloyürüşü dövlət təşkil edir. Velosiped gəzintisində həmçinin ölkə rəhbərliyinin iştirak edəcəyi gözlənir - eləcə də yüksək səviyyəli məmur heyətinin. Adətən Türkmənistanda hər il keçirilən "Sağlamlıq ayı" ölkə rəhbərliyinin iştirakı ilə başlanır. Sağlamlıq ayı ilk dəfə 2015-ci ildə keçirilib. Hökumət bildirir ki, məqsəd idmanı populyarlaşdırmaqdır.

İdmanla bağlı göstərişlər birbaşa prezident Qurbanqulu Berdımuhammedovdan gəlir. O, müxtəlif idman növləri ilə məşğul olur, dövlət televiziyası onu gah at sürən yerdə, gah idman avtomobilində, gah da basketbol meydançasında göstərir.

**"Bu yaxınlarda böyük bir əfv sərəncamı olacağı gözlənilir". Qeyd edək ki, ölkə vətəndaşlarının ümidlə gözlədiyi bu açıqlamanı parlamentin son iclasında spiker Oqtay Əsədov bildirib. Spiker onu da əlavə edib ki, əfv sərəncamını imzalamaq cənab prezidentin müstəsna hüququdur: "Amma Əfv komissiyası gərgin işləyir".**

# Cümhuriyyət ilində siyasi məhbus problemi qapana bilərmi?

## Fazil Mustafa: "Bu il siyasi motivlə həbsdə heç kim qalmamalıdır"

## Əliməmməd Nuriyev: "Nə qədər ki, müəyyən dairələr var, bu məsələ bağlanmayacaq"

Xatırladaq ki, 2018-ci il Azərbaycanda "Xalq Cümhuriyyəti İli" elan olunub. Maraqlıdır, Cümhuriyyət ilində siyasi məhbus mövzusu bağlana, əfv olunanların siyahısı siyasi məhbus sayılanlara da şamil oluna bilərmi?

Mövzu ilə bağlı millət vəkili Fazil Mustafa "Yeni Müsavat"a danışdı: "Prinsip etibarı ilə əfvin Novruz Bayramında, Amnistiya aktının isə Cümhuriyyətin 100 illiyi ilə bağlı olacağı gözlənilir. Əslində belə də olmalıdır. Lakin təbii ki, burada beynəlxalq təşkilatlarda bu və ya digər adlarla tanınan, o cümlədən siyasi, vicdan və müxtəlif adlarla, haqlı-haqsız sayılan şəxslərin azadlığa çıxması lazımdır. Yəni o baxımdan ki, ölkəyə bu adlarla təzyiqlərin göstərilməsinin bir mənası yoxdur. Sanki hakimiyyətdə oturub düşünürlər ki, o adamları məqsədyönlü məşhurlaşdıraq. Elə adamlar var ki, məhbəsdən çıxdıqdan sonra varlıqları bilinmir. Onların cəmiyyətə verdiyi söz, mesajlardan əsər-əlamət qalmır. Amma həbsxanalarda həmin insanlar böyük hay-küy, çığır bağır salaraq obraz yaradırlar. Bütün bunlardan qurtulmaq lazımdır, süni şəkildə onları şişirtməyin nə mənası var? Qoy buraxılsınlar, azadlıqda öz fikirlərini bildirsinlər. Bu baxımdan düşünürəm ki, bu addım atılmalı, qəti şəkildə bu motivlə həbsdə heç kim qalmamalıdır. Bununla da məsələnin normal hüquqi məcrada çözülməsi, problemlərin həll olunması cəmiyyətdə həm də vətəndaş uzlaşmasına, həmrəyliyinə fayda verə bilər".





Fazil Mustafa məsələnin çözülmə ehtimalının böyük olduğunu dedi: "Artıq prezident seçkiləri də başlayıb. Düşünürəm ki, həm reytinq, həm də cəmiyyətin də məsəldə anlayışı baxımından yerində olan addım olardı".

Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyevin sözlərinə görə isə, siyasi məhbus anlayışının bağlanmasından söhbət belə gedə bilməz: "Nə qədər ki, müəyyən dairələr, yəni istər Qərbdə, istərsə də Azərbaycanda onların yandaşları var, siyasi məhbus anlayışının bağlanmasından söhbət belə getməyəcək. Hər dəfə onlar yeni bəhanələrlə yeni-yeni şəxsləri bu adla adlandırmağa cəhd edəcəklər. Müəyyən dairələr, şəxslər bunsuz yaşaya bilməz. Çünki bu, onların maddi gəlir mənbəyi, eyni zamanda siyasi təzyiq alətidir".

Mövzu ilə bağlı artıq 5 ildir həbsdə olan, REAL Hərəkatının lideri İlqar Məmmədovun xanımı Vəfa Məmmədovanın də rəyini öyrəndik. V.Məmmədova böyük əfvə ümid etmədiyini dedi: "Deyilənə görə, mart ayında genişmiqyaslı əfv olacaq. Lakin İlqar Məmmədovun bu əfvə düşəcəyi ilə bağlı ümidimiz yoxdur. Əgər o, əfv olunsaydı 5 il ərzində bu baş verərdi. Lakin biz bunu görmədik və bundan sonra da baş verəcəyinə ümid etmirik. Prezident seçkilərindən sonra amnistiya olacağı da deyilib. Bəlkə də İlqar amnistiyaya düşə bilər. Bildiyiniz kimi, o, əfvlə bağlı ərizə yazmır. Ola bilər ki, bəlkə də amnistiyada əfv olunar. Lakin qeyd etdiyimiz kimi, elə böyük ümidimiz yoxdur".

❑ **Xalidə GƏRAY, Musavat.com**



# İsa Qəmbər bu gün xəstəxanadan çıxa bilər

## Aidə Qəmbər: "Növbəti müayinə olacaq"

Fevralın 23-də yenidən Mərkəzi Klinik Xəstəxanasına yerləşdirilən Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri, Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbərin hazırda müayinəsi davam edir. İsa bəy özünü normal hiss edir və bu gün evə buraxıla bilər.

Bu barədə onun həyat yoldaşı Aidə Qəmbər "Yeni Müsavat"a məlumat verdi: "Birinci gün növbəti müayinə olacaq. Ondan sonra qərar qəbul ediləcək. Yəqin ki, evə gedərik. Müayinələr kifayət edən kimi evə gedəcəyik. Özünü tam yaxşı hiss edir, hazırda da hər şey qaydasındadır".

Qeyd edək ki, bundan öncə ötən ay yanvarın 13-də İsa Qəmbərin səhhətində problem yaranıb və Mərkəzi Klinikaya yerləşdirilib. Müayinələr nəticəsində İ.Qəmbərin infarkt keçirdiyi məlum olub və onun ürəyinə stentlər qoyulub.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Alpinistlərin itkin düşməsindən iki ay ötdü: axtarış isə davam edir

## Alpinist: "FHN əməkdaşları indi də yüksək səviyyədə axtarışlar aparırlar"

**Ötən ilin dekabrın 23-də "Gilavar" idman klubunun Quba rayonunda dağlıq ərazidə itkin düşmüş gənc üzvləri Namin Bunyatzadə, Babur Hüseynov və Fəridə Cəbrayılzadədən artıq 2 aydan çoxdur ki, xəbər yoxdur.**



Alpinistlərlə iki ay öncə, onlar Tufandağ zirvəsi istiqamətində hərəkət edərkən əlaqə kəsilib. Onlardan xəbər gəlməyincə müvafiq qurumlar tərəfindən axtarış başlanılıb. Fövqəladə Hallar Nazirliyinin aviasiya dəstəsinin "Mi-17" markalı helikopteri, Şimal Regional Mərkəzinin axtarış-xilasetmə qrupu, Xüsusi Riskli Xilasetmə Xidmətinin dağ-xilasetmə dəstəsi və peşəkar alpinistlərdən ibarət könüllü dəstə, eləcə də xaricdən dəvət olunan alpinistlər bu axtarışlara cəlb olunublar. Lakin bütün bu cəhdlərə baxmayaraq iki ayadır ki, nəticə yoxdur.

Məlumatlara görə, alpinistlərin axtarışı hələ də davam etdirilir. Axtarışlara xarici mütəxəssislər cəlb olunub. Dağlıq ərazinin və əlverişsiz hava şəraitinin çətinliklər yaratmasına baxmayaraq, alpinistlər tapılana qədər Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Dövlət Sərhəd Xidməti tərəfindən intensiv axtarış tədbirləri davam etdiriləcək.

Bundan əlavə, alpinistlərdən xəbər gəlməyincə onların itkin düşməsi ilə bağlı cinayət işi də açılıb. Hadisə ilə əlaqədar xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərindən istifadə sahəsində qanunvericiliyin tələblərinə əməl edilməməsinə, habelə adları qeyd olunan alpinistlərin ixtisası, təcrübəsi, hazırlıqlarının yürüşə imkan verib-verməməsi, meteoşəraitin dağın zirvəsinə qalxmağa əlverişli olub-olmaması, marşrutun seçilməsi və təhlükəsizlik tədbirləri ilə bağlı digər məsələlərə nəzarət edilməsi sahəsində məsul şəxslərin öz xidməti vəzifələrini lazımi qaydada yerinə yetirməməsinə dair şübhələr üçün kifayət qədər əsaslar yarandığından Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

"Yeni Müsavat"a danışan dağçı-fotoqraf Elçin Quliyev bildirdi ki, hazırda ərazidə çox yüksək səviyyədə axtarışlar davam etdirilir: "Fevralın əvvəli dostumuz İsrafil Aşurlu xüsusi aparat gətirmişdi ki, onunla da axtarışlar aparılsın. Lakin qar çox olduğu üçün aparatla da axtarışlar nəticə vermədi. Həmçinin əraziyə gedən könüllü alpinistlər də Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə ciddi axtarışlar apardılar, nəticə isə olmadı. Hal-hazırda ərazidə FHN-nin əməkdaşları axtarışları davam etdirirlər. Çoxları düşünür ki, yay gəlir, onların tapılma şansı artır. Lakin mən belə düşünmürəm. Çünki orada qar ərimir, aşağı qat donur və buzlağa çevrilir. Uçqun olan ərazinin qarları heç zaman ərimir. Orada illərin buzu var. O variant da ola bilər ki, alpinistlərin üzdə olsunlar və üstdəki qar ərisin, onların cəsədlərini yuyub, aşağı gətirsin. Bunu da konkret söyləyə bilmərik. Çünki biz dərinliyi bilmirik. Əgər çox dərindədirlərsə, o zaman onların üzə çıxması çətin məsələdir. Çatların dərinliyində böyük buzlar var. 20-30 metr dərinliyin əriməsi isə gözlənilmir. FHN əməkdaşları da düşünürlər ki, qar əriyən kimi sürətli qazmaya başlasınlar. Bundan sonra da nəticə olmasa, ərazidə axtarışın mənası yoxdur".

E. Quliyev bildirib ki, nə qədər inkişaf etmiş olsa da başqa ölkələrin hamısında alpinistlərin axtarışı maksimum 5 gün aparılır: "Azərbaycan yeganə ölkədir ki, indiyə qədər orada iş aparılır. Bizə adi gələ bilər. Ancaq FHN əməkdaşları həqiqətən də çox çətin şəraitdə işləyirlər. Özü də hər gün axtarışları davam etdirirlər. Bundan əlavə də onu da qeyd edim ki, FHN əməkdaşlarına axtarışla bağlı nə təklif edilsə, onlar dərhal qəbul edib, həmin istiqamətdə, təklif olunan formada işlər aparıb, bu variantı da yoxlayırlar. Bizim uşaqlardan demişdilər ki, əraziyə buldozer gətirilməlidir. Bu saat onun üzərində araşdırma aparırlar ki, buldozeri necə gətirmək olar. Qazaxıstanla da danışıqlar aparılır. Onların qarın üzərində gedən yüngül buldozerləri var. Ola bilər ki, həmin texnikaları gətirsinlər. Ümumiyyətlə, ərazi elədir ki, ora buldozerləri aparmaq çox çətin məsələdir. Xınalıq yolları hər kəsə məlumdur. Ancaq bütün bunlara baxmayaraq FHN əməkdaşları işləyib, yolları axtarırlar. Başqa da hansı mütəxəssis nə təklif edirsə, onu dəyərləndirirlər. Alpinist könüllülər ora gedən zaman görüblər ki, ərazidə briqada komandirləri belə işləyirlər. Postlar qurulub, növbəli şəkildə işlər görülür. Ümid edək ki, bu qədər təhlükəli şəraitdə çəkilən əziyyətlərin nəticəsi olacaq və alpinistlər tapılacaq".

❑ **Əli RAİS "Yeni Müsavat"**

**Hər il olduğu kimi, bu il də "Yeni Müsavat" Xocalı şahidlərinin dili ilə o günləri yad edir. Bu dəfə də Xocalıda baş verən dəhşətli cinayətləri öz gözü ilə görmüş birinin - Xocalı batalyonunun kəşfiyyatçısı olmuş Ramiz Nəsirovun ağrılı-acılı xatirələrini təqdim edirik.**

# "Dizi qırılan xocalılı dedi ki, məni güllələ..."

## 26 il öncə baş verən dəhşətli faciə: "Ən qəddar cəza, ən ağır işgəncələr Xocalıda törədildi"

Qeyd edək ki, bu xatirələr "Xocalı şahidləri danışır" kitabındandır. Kitab 2015-2017-ci illərdə "Azərbaycan" qəzetində dərc olunan materialların toplusudur.

*****

"Meşədə üç nəfərlə rastlaşdım. Biri ayaqyalın idi, ikisi isə halsız. Onları da götürüb birtəhər Xocalıdan çıxa bildim. Qalanları da bizlə gəlsəydi, çıxara bilərdik. Heydən düşmüşdülər. Həm də camaat şokda idi. Hara baxırdın meyit görürdün. Çox dəhşətli bir mənzərə idi. İnsanların çoxu aclıqdan, susuzluqdan, yaxud soyuqdan donaraq ölmüşdü. Uçurumdan düşənlər də vardı. Erməni isə qırdığını qırmışdı. Onlar əsasən Xocalıdan qonşu rayonlara tərəf çıxışları tutmuşdular. Ona görə Xocalıda kütləvi qırğın çox oldu". Bunları danışan Xocalı batalyonunun kəşfiyyatçısı 60 yaşlı Ramiz Nəsirovdur. O, hazırda Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində məskunlaşıb.


Ramiz Nəsirov

### "Silah ancaq məndə idi"

Ramiz dayı deyir ki, o ərəfədə ermənilər hər axşam atırdılar, artıq güllə səslərinə vərdiş etmişdik: "Fevralın 25-i hay-haray qopdu, camaat pərən-pərən düşdü, ermənilər artıq şəhərə doluşmuşdular. Yoldaşımı da götürüb evdən çıxdım. Amma həmin vaxt uşaqlar Şuşada idi, anamgilin yanında. Qayınatam isə insult idi, tərpənə bilmirdi, onu heç cür çıxara bilmədik. Qonşuları çağırdım, bir yerdə çıxdıq. Kəndin içi ilə irəliləyirdik. Silah da ancaq məndə idi. Cəmi 10-15 nəfər olardıq. Çayı keçəndən sonra uşaqlara dedim ki, mən sizi irəli aparacam, atışma olsa, tərpənməyin, onları geri çəkdirəcəm, bircə yoldaşımdan muğayat olun. Bir xeyli irəliləmişdik. Dedim, dayanın camaat dincəlsin. Baxanda gördüm ki, yoldaşım aralarında yoxdur. Soruşdum, hanı, heç kim bilmədi. Yenidən kəndə qayıtdım. Kəndə girəndə işıqlar söndü. Səhərə yaxın idi. Elə evə yaxınlaşmışdım ki, yuxarıdan məni pulemyot atəşinə tutdular. Bu vaxt qaçmağa yer olmadığından özümü suya atdım. Suyun içi ilə meşəyə doğru irəliləməyə başladım. Uzaqlaşdıqdan sonra camaatı axtardım.

### "Nə bacarırsınız qaçın, atsalar da, dayanmayın"

Bu zaman iki qrupla rastlaşdım. Ermənilər onları mühasirəyə almaq istəyirdilər, "sən ordan gəl, mən burdan" - deyə çığıraraq erməniləri panikaya saldım. Bu yolla insanları mühasirədən çıxardım. Amma getdikcə hava qaralırdı, artıq camaat heydən düşmüşdü, hərəkət edə bilmirdilər. Mən kəşfiyyatçı olduğumdan sağ qalmağın yollarını bilirdim. Bir nəfərlə gəldim düz erməni kəndinin girəcəyinə. İkimizin bir şineli vardı. Hərəmiz bir qoluna girərək qucaqlaşıb yatdıq. Oyananda ayağa qalxa bilmirdim. Ayaqlarım donmuşdu. Gücümü toplayıb yola düzələndən sonra təxminən bir kilometr boyu ayaqlarımı hiss etmədim. Artıq iki gün idi ki, meşədə qalırdıq.

Yolda üç nəfər tapdıq. Biri ayaqyalın idi. İkisi də halsız. Onları da götürdük. Hava işıqlaşırdı. Baxdım ki, üç postun arasından keçməliyik. Elə oldu ki, ermənilər isinmək üçün təpədən aşağı endilər. Qazın turbasını deşmişdilər, oradan alov çıxırdı. Dedim ki, nə bacarırsınız qaçın, atsalar da dayanmayın. Bilmirəm, bizi gördülər, ya yox, bu yolla qaçıb oradan çıxa bildik. Özümlə dörd nəfəri Ağdama gətirib çıxardım. Birinin isə meşədə dizi qırılmışdı. Dedi öldür məni gedə bilmərəm. Yalvar-yapış etdim, xeyri olmadı. Qaldı orada. Digərləri də bizlə gəlsəydi, Xocalıdan sağ çıxa bilərdilər. Amma heydən düşmüşdülər. Aclığa, susuzluğa dözmürdülər. Həm də şokda idilər, hara baxırdılar meyit görürdülər... Yoldaşımdan da bir xəbər çıxmadı..."

### "Qohumlarımdan çoxu Xocalıda şəhid oldu..."

Meşədə qaldıqları iki gün ərzində Ramiz kişi və onunla birgə olanlar itburnunun yarpağı ilə qidalanıblar. Dediyinə görə, aclıq və soyuq hava dəhşətli faciəni daha da şiddətli edirdi. Ramiz dayı bütün Xocalı sakinlərini doğmaları kimi qəbul edir. Faciədə öz qohumlarını da itirib: "Xocalı sakinlərinin hər biri mənə doğmadır. Orada öldürülən, işgəncələrə məruz qalan, aclıqdan və soyuqdan donaraq ölənlərin hər biri mənim qardaşım, bacım, atam, anamdır. Bununla belə, dayım oğlu, xalam oğlu, onların övladları Xocalıdan sağ çıxmadı. Qohumlardan çoxu orada şəhid oldu. Hansını deyim...

Xocalı faciəsi ərəfəsində Ramiz Nəsirovun 35 yaşı vardı. Batalyonda "Qoca" ləqəbi ilə tanınırdı. Dediyinə görə, Xocalı faciəsindən əvvəl çox əməliyyatlarda olub, hətta ermənilər "Qoca"nın başına pul da qoyubmuşlar. Amma o, Qarabağda böyüdüyü üçün oranın bütün yollarına, cığırlarına bələd olub. Ona görə də, ermənilər Ramiz kişini heç bir vasitə ilə ələ keçirə bilməyiblər. Sonralar kəşfiyyat xidmətlərinə görə Ramiz Nəsirova 1996-cı ildə Heydər Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı da təqdim edilib. O vaxt ağlına da gəlmirdi ki, nə vaxtsa xidmətlərinə görə ona medal verərlər, heç bunun üçün çalışmayıb da.

### Tənha qalmışdıq

Ramiz Nəsirov Xankəndidə doğulub boya-başa çatıb. Əvvəllər bir müddət Rusiyada yaşayıb, sonra Şuşaya qayıdıb. Xocalıda vəziyyət pisləşəndə isə oraya gəlib. O, Xocalının üstünü qara buludlar alanda ona heç bir köməyin göndərilmədiyini də təəccüblə qarşılayıb: "Nə məsələ idisə, o zaman Xocalıya heç bir kömək göstərilmədi. Şuşa tərəfdən bir top mərmisi belə atılmadı. Kimin tapşırığıydı, kimin əmriydi, bilinmədi. Mərkəzdən də deyirdilər ki, şayiə yaymayın. Bizə dəstək verilsəydi, erməniyə qalib gələrdik. Hesab edin ki, əlisilahlı zabitlər əliyalın piyadalara qarşı idi.

Mənə görə, bu dəhşəti görüb ayaqda qalanların hər biri qəhrəmandır. Xocalılılar həm postda durublar, həm qırılıblar, həm də olmazın əzablarını çəkiblər. Heç kinolarda da bu cür dəhşətlər, cəzalar görmək mümkün deyil. Mən özüm ağla gəlməyən cəza növlərini, işgəncələri məhz Xocalıda görmüşəm..."

❑ Hazırladı: Nərgiz LİFTİYEVA,
"Yeni Müsavat"

# Bayıl yavaş-yavaş sürüşür - Abid Şərifov son durumdan danışdı

## Sakinlər kirayə pulunun məbləğindən narazıdırlar: "9 nəfərlik ailəyə 250 manat kirayə pulu veriblər ki, get, ev tap yaşa..."

**Bayıl yamacında sürüşmə zonasında vəziyyət sabitləşsə də, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin ərazidə iş aparan əməkdaşları bildiriblər ki, ərazinin hazırkı vəziyyəti orada tədqiqatların aparılması üçün mayakların quraşdırılmasına imkan vermir. Səthdə böyük çatlar səbəbindən onların üzərində mayaklar qoymaq olmaz. Buna görə də reperlərdən istifadə ediləcək.**

Baş nazirin müavini Abid Şərifov bildirib ki, sürüşmə zonasından 97 ailə köçürülüb, 4 ev uçub, 2 ev də uçmaq ərəfəsindədir.

Nazirlər Kabinetinin Bayıl yamacındakı sürüşmə zonasındakı evlərlə bağlı yekun qərarına gəlincə, A. Şərifov qeyd edib ki, hələlik layihə işləri gedir: "Görək sürüşmə prosesi dayanacaqmı, sürüşmə prosesinin qarşısı necə alına bilər? Hələlik bir dəyişiklik yoxdur. Amma sürüşmə də yavaş-yavaş davam edir. Hələlik, başqa heç nə demək mümkün deyil. Sürüşmə zonasındakı evlər də mühafizə olunur. İndidən 97 evin hamısının sökülüb-sökülməyəcəyi, sakinlərin hamısının köçürülüb-köçürülməyəcəyi ilə bağlı heç nə demək olmaz. Həm də 97 evi köçürmək xırda bir məsələ deyil axı..."

Sakinlər isə yenə də narazıdırlar. Evi qəzalı vəziyyətə düşən sakinlərdən Zahid Aslanov "Yeni Müsavat"a bildirib ki, onlar 3 gün öncə kirayə pulunu alıb, evlərini tərk ediblər: "Bizə 250 manat kirayə pulu verdilər. Qonşularımla birlikdə mən də məhəlləni tərk etmişəm. Abid Şərifovun dediyi uçması gözlənilən iki ev bizim evdən bir az aralıda, sürüşmə sahəsinə yaxın yerləşir. Hazırda həmin evlərin içərisinə torpaq dolub. Mənim evim də qəzalı hala düşüb, arxası tamamilə çöküb. Divarlar da çatlayıb və hər an uça bilər".



Sakin Elməddin Muradlı isə bildirir ki, verilən kompensasiyadan narazı qalıb və bununla əlaqədar Səbayel Rayon İcra Hakimiyyətinə müraciət edib: "Ərazidən ailələrin hamısı köçürülməyib. Çünki verilən kirayə pulundan narazı qalanlar var. Məsələn, bizim ailə üzvlərinin sayı 9 nəfərdir, gətirib 250 manat kirayə pulu verdilər. Halbuki açıqlama yaymışdılar ki, ailə üzvlərinin sayı 8-dən çox olanlara 300 manat kirayə pulu veriləcək. Biz verilən məbləğdən narazıyıq. Çünki ailəmiz indiyə qədər 5 otaqlı evdə yaşayıb. Bu evdə qardaşımın, atamın ailəsi ümumilikdə 3 ailə yaşayırdı. İndi bunlar necə 2 otaqlı evə yığışsınlar? İcra hakimiyyətinə etirazımı bildirdim, dedilər ki, yanlışlıq olub, ərizə ilə müraciət edin. Əslində 300 manat da azıdır. Çünki bu qiymətə Bayıl ərazisində böyük ev tapmaq mümkün deyil. Ancaq məcburiyyət qarşısında qalıb qəbullanırıq. Abid Şərifov başda olmaqla digərləri də dedilər ki, gücümüz çatan budur. İmkanları yoxdursa, aşağı məhəlləni qaytarsınlar evlərinə. Çünki hazırda ərazidə sürüşmə prosesi getmir, aktivlik müşahidə olunmur. Xüsusilə də aşağı məhəllədə heç bir problem yoxdur. Boş yerə qazı, işığı, suyu kəsib, camaatı tökürlər çölə. Elə ailələr var ki, verilən kirayə pulundan razı deyil və evindən çıxmayıb. Prokurorluğun da əməkdaşları gəlib, 46 nömrəli MİS-də oturub, sakinlərdən bir-bir izahat alırlar ki, evi nə vaxt tikmisiz, torpağı kimdən almısız, hadisə necə baş verdi və sairə. Vəziyyət elədir ki, kirayə çıxsan belə, evini tərk edə bilmirsən. Anam, qardaşlarım odun sobası qurub, gündüzlər elə öz evimizdə otururlar. Böyük ailələr 400-450 manata kirayə evlər tutmuşdular. Çünki bir ay öncə deyilirdi ki, kirayə pulları ödəniləcək, problem həll olunacaq. İndi isə 250 manat verildi, insanlar da məcbur qalıb kirayə tutduqları evdən çıxırlar".

Sakin bildirib ki, insanlar evlərini tərk edən zaman onlara xeyli maddi ziyan dəyib: "Elə ailə yoxdur ki, evindən mebelini sağ-salamat çıxara bilsin. Şəxsən bizim mebellərin hamısı darmadağın olub. Bu da bizə vurulan bir maddi ziyandır. Məmurlar gecəqondu adlandırsalar da bizim üçün evimiz saraydır. Biz bura öyrəşmişik. Söz də deyəndə cavab verirlər ki, sizin məhəllədə kirayə qalanlardan soruşmuşuq, onlar burada 120 manata qalıblar. Deyirəm ki, ola bilər. Ancaq indi bizim məhəllə yoxdur axı, sökürsən buranı. Kənardakı ev bu qiymətə deyil axı. 250 manata 2 otaqlı ev tapırsan, kommunal da 70-80 manata çıxır. Bilinmir ki, bunlar təyin etdikləri kirayə pulunu Bakı şəhəri üçün nəzərdə tutublar, yoxsa Bərdə, Ağcabədi üçün. 9 nəfərlik ailə 250 manata harada ev tapa bilər? 4 nəfərlik ailəyə də 250 manat verirlər, 8-9 nəfərlik ailəyə də. Heç olmasa yaşayan adamların təvəllüdünə baxıblarmı ki, burada yaşayan şəxslərin hamısı böyük adamlardır. Heç nəyi nəzərə almayıb, "hesablayırıq, problem həll olacaq",- deyib axırda da bu cür qərar çıxardılar. Danışanda deyirlər ki, sizin həyatınızı xilas etmişik. Çox sağ olun. Ancaq burada nə vardı ki? Cəmisi 4 ev uçub, bu boyda məhəlləni qaralayıb, camaatı töküblər küçələrə. 2000-ci ildə Şəhidlər abidəsi tərəfdə dağ aralandı, 6 ev uçdu. Həmin vaxtı deyirdilər ki, 1 aya bu məhəllə köçürülməlidir. Ancaq indi orada villalar tikilir. İndi də uçqun yerindən 1 kilometr aralıda ev var, onu da siyahıya salıb, kommunal xətlərini kəsiblər ki, təhlükə var, köçməlisiniz. Heç evlərin çoxunu ölçməyiblər. Şəxsən bizim evdə ölçülməyənlər sırasındadır".

❑ Əli RAİS,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 45 (6934) 26 fevral 2018

**1997-ci il fevralın 21-də böyük alim akademik Ziya Bünyadov qətlə yetirilib. “Yeni Müsavat”ın müxbiri akademikin qətlində günahlandırılaraq ömürlük həbs cəzasına məhkum olunmuş Nizami Nağıyevlə saxlanıldığı Qobustan Qapalı Həbsxanasında görüşüb müsahibə alıb.**




# Ziya Bünyadovun qatili onun ailəsindən üzr istədi

## Ömürlük məhkum Nizami Nağıyev: “Tahirə xanımın yolu ilə getsinlər, bizi bağışlasınlar...”

Həyatının 54-cü ilini yaşayan Nizami Nağıyev 18-ci ildir ki, həbsxanadadır. O, 2000-ci ildən ömürlük məhbuslar üçün nəzərdə tutulan kamerada qətlin digər iştirakçısı Mahir Zeynalovla birgə saxlanılır.

İqtisad Universitetini qırmızı diplomla bitirən Mahir Zeynalov da, Dövlət Gömrük Komitəsinin inspektoru olmuş Nizami Nağıyev də bu gün Qobustan Həbsxanasının divarları arasında 21 il əvvəl törətdikləri dəhşətli qətlin cəzasını çəkməkdədirlər.

***

Burada hər bir addım nəzarət altındadır. Yatmaq da, yuxudan oyanmaq da, yemək də, içmək də, televizora baxmaq da, hamamda yuyunmaq da və s., hər şey rejimlədir. Sərbəst hərəkət azadlığı yoxdur. Üstəlik sayıqlığı 1 saniyə belə əldən vermək olmaz...

Həbsxana həyətində sanki bir başqa həyatdır. Əhənglə ağardılmış çoxsaylı barakların ətrafında qara paltarlı dustaqlar gözə dəyir. Köhnəlmiş binalardan birinin qabağında iki əsgərin ortasında əli qandallı dustaq dayanıb. Orta yaşlı, dolu bədənli dustağın əynindəki nimdaş gödəkçənin qolları arasından qandal parıldayır...

Bu, odur - ömürlük məhbus Nizami Adil oğlu Nağıyev. Yaşadığı binanın blokunda akademik Ziya Bünyadova bıçaqla xəsarət yetirən Bakı sakini, Azərbaycan vətəndaşı. Onunla həbsxanada görüşən “Yeni Müsavat”ın müxbirinə hər şeyi anladır...

(Sonuncu bölüm. Əvvəli ötən saylarımızda)

**“Onu vurub öldürdük, ailəsini başsız qoyduq”**

- Atam məhkəməyə gələndə baxdım ki, özündə deyil. Düşündüm ki, hər şeyi olduğu kimi danışsam, infarkt keçirəcək, ya da insult olacaq. Onsuz da bir insanın ailəsini bədbəxt eləmişik, bu da belə olsun istəmədim.

***- Kimi bədbəxt etdiyinizi nəzərdə tutursuz?***

- Ziya Bünyadovun ailəsini. Onu vurub öldürdük, ailəsini başsız qoyduq. Atam mənə yaxınlaşanda, dedi ki, bu işi eləmisənsə, düzünü de. Üzünə baxdım, özündə deyildi, düzünü deməsim. Dedim xəbərim yoxdur, kriminalist Rövşən Əliyev bu işi boynuma qoyub, bu iş mənlik deyil. Bir az da ailəm üçün qorxdum. Düşündüm ki, o tərəf ailəmə xətər yetirə bilər.

***- Kimi nəzərdə tutursuz?***

- Kimlərlə birgə idim onları.

**“Atam da günahsız olduğumu düşünüb qəzetlərə şikayətə gedirdi”**

***-Onlar sizə nə edə bilərdilər ki?***

- Gəldilər, Bakının ortasında belə bir iş gördülər, sakitcə çıxıb getdilər. Bundan da real güc olar? Mən nə bilim ki, onlarla kimlər var? Bunu bilə bilməzdim axı.

***- Yəni sizə bir işarə verən olurdu ki, sizin dəstədən də başqa adamlar var?***

- Bunu ancaq Tariyel bilə bilərdi. O da bizə bir söz demirdi. Biz “pexota” idik, deyirdilər get qabağa, biz də gedirdik.

***- Həbs ediləndən sonra istifadə etdiyiniz bıçağı, silahı götürdülər?***

-Yox, Cavanşirgil paltarları yandırmışdılar, bıçağı, silahı yoxa çıxarmışdılar. Maşınların təkərlərini də söküb yandırmışdılar ki, izinə düşüb maşınları tapan olmasın.

***- Məhkəmədə də olanları danırdız, etiraf etmirdiz?***

- Hə, atam məhkəmədə də üstümə düşdü, ona həqiqəti deyə bilməzdim. Necə deyim ki, sənin oğlun belə bir işin altına girib? Atam icra başçısı idi. Mənə görə onu, qardaşlarımı işdən çıxarmışdılar. Bu gün də işsizdirlər. Atam da günahsız olduğumu düşünüb qəzetlərə şikayətlərə gedirdi.

***- Necə oldu ki, həqiqəti atanıza dediz?***

- Gördüm ki, ora-bura şikayətə çox gedir. O vaxtlar yanıma gəlmirdi. Çağırdım, nə var hamısını ona dedim. 2009-cu ilin sonu idi. Dedim ki, onu-bunu günahlandırmayın, haqq-hesab belə olub. Hamı bunu hökumətin üstünə atırdı. Qəzetlərə də bu məlumatlar çıxırdı.

**“Nəsrullah, İran gəlib deyər ki, bunu biz etmişik?**

***- Ötən 18 ildə düşünüb-daşınmağa kifayət qədər vaxtınız olub. Sizcə, Ziya Bünyadovun qətli ilə Moisey Kalankatuklunun “Albaniya tarixi” kitabını dilimizə tərcümə etməsi arasında bir əlaqə olub?***

- Mən bunu bilə bilməzdim. Biz icraçılar idik. Aldadılmış icraçılar. İnanmıram ki, dəstədə kimsə də bunu bilirdi.

**“Əclaflar bizi oyuna salıb bizim də, Ziya Bünyadovun da həyatını məhv etdilər”**

***-Yeni tutulanda üzvü olduğunuz təşkilatın sizi həbsdən qurtara biləcəyinə ümidiniz vardı?***

- Tariyelə inanırdım. Amma kim gəlib deyərdi ki, bunu biz etmişik? Nəsrullah, İran gəlib deyər ki, bunu biz etmişik? Tutuldun, deməli məhv olub getdin.

***- Namaz qılırsız?***

- Namaz qılıram, oruc tuturam.

***- Uşaqlarınız necə, ibadət əhlidirlər?***

- Uşaqlarım namaz qılırlar. Amma onlara məscidə getməyi qadağan etmişəm.

***- Niyə?***

- Mənim başıma bu müsibətlər məsciddən gəldi də. Mən ora gedib girməsəydim, bu işlərə də qoşulmazdım. Böyük oğlum namaz qılır, kiçiyi idmançıdır.

**“Özümə sual verirəm - kimə görə, nəyə görə sən burdasan?”**

***- Təsərrüfatınız qalır?***

- Atam bir inək alıb-verib. Ötən 18 ildə yanıma gəlib getmək üçün parnikimin bütün turbalarını söküb satıblar. Həyət-bacada toyuq-cücə var, birtəhər dolanırlar. Mən də burda. Bir əlimdir, bir də başım. Gözümü açıram, pəncərədən çölə baxıram. Özümə sual verirəm - kimə görə, nəyə görə sən burdasan? İçim yanır. Özümü, Tariyeli, Nəsrullahı söyməkdən başqa əlimdən heç nə gəlmir. Nə qədər özümü söyüm, nə edim. Nə edim? Baxırsan ki, generallar da səhv edir. Burada kimlər olmayıb ki? 1992-ci ildə kor-koranə gedib bunların əlinə düşdük. Hərdən baxıram, cavan-cavan uşaqlar gedib İŞİD-ə qoşulur. Bədbəxtdirlər. Dünyanın ən bədbəxt adamlarıdırlar. Ailələrini də yığıb özləri ilə aparırlar. O vaxt bizlərin interneti yox idi. Sosial şəbəkələr yox idi. Dünyadan bixəbər idik. İndi isə belə deyil axı. Bağdadi ilə bağlı məlumatları eşidirik. Bu adam Amerika həbsxanasında olub. Necə olub azad edilib? Necə olub gedib Afrikaya çıxıb? Bu haradan mömin oldu? Hamısı xüsusi xidmət orqanlarının işidir. Bağdadi bir gün onlara lazım olmayacaq və aradan götürəcəklər.

**“Əclaflar bizi oyuna salıb bizim də, Ziya Bünyadovun da həyatını məhv etdilər”**

***- Yəni indi gedişatı saf-çürük eləmək üçün imkanlar var?***

-Əlbəttə var. Hər şey göz qabağındadır. O dövr belə deyildi. Mən haradan hara gəlib çıxdım? Ailəmi, atamı, qardaşlarımı haradan hara gətirib çıxardım? Qoşulmasaydım, ailəm harada idi, indi haradadır? İmkansızlıqdan bu gün görüşlərin çoxuna çıxa bilmirəm. Uşaqlara da deyirəm ki, məni düşünməyin, mənim də qismətim belə oldu. Mən nəyi qaytara bilərəm ki? Nəyi dəyişə bilərəm? Gərək elə iş görəsən ki, sonra kaş ki, belə etməzdim deməyəsən. Mahir də 2 uşaqla elə bədbəxt oldu. Narxozu qırmızı diplomla qurtarmışdı. Yaşlı anası var. Əclaflar bizi oyuna salıb bizim də, Ziya Bünyadovun da həyatını məhv etdilər.

***- Tariyellə Cavanşiri nəzərdə tutursuz?***

-Bəs kimi deyirəm? 18 ildir ki, yoxdurlar. Ailələrini də götürüb gediblər o tərəfə. Atam da deyir ki, onları da tutun. Deyirlər ki, İran tərəfi deyir ki, bizim ərazidə yoxdurlar.

***-İrana keçmələri təsdiqlənib?***

- O vaxt qəzetlər yazmışdılar ki, qeyri-qanuni İrana keçiblər.

**“Ziya Bünyadovun ailəsindən, yaxınlarından üzr istəyirəm”**

***- İmkanınız olsaydı, nələri dəyişərdiz?***

- Ziya Bünyadovun ailəsindən, yaxınlarından üzr istəyirəm. Allah içi mən qarışıq baiskarın evini yıxın. Allah Tahirə xanıma rəhmət eləsin. O, ölümündə əvvəl mənim günahlarımı bağışlamışdı, prezidentə də məktub yazmışdı. Ziya Bünyadovun yaxınlarından xahiş edirəm, imkanları varsa, Tahirə xanımın yolu ilə getsinlər, bizi bağışlasınlar. Bilirəm ki, böyük bir günah etmişəm. Bizi aldatdılar. Onu Aydın kimi təqdim etdilər, barəsində bizə çox yalanlar dedilər. Biz cavan, təcrübəsiz olduq. Siyasi, dini, hüququ savadımız da olmadı ki, vəziyyətdən çıxa bilək. Sovet hökuməti yeni dağılmışdı. Çox adam vəziyyətdən baş çıxara bilmirdi. Heydər Əliyev Azərbaycana qayıdanda bir çox ziyalılar belə ona yuxarıdan aşağı baxırdılar, anlamırdılar ki, nə baş verir. 1990-cı ildə o rəhbər olsaydı, Azərbaycanın vəziyyəti bir başqa olardı. OMON-çular, əlikramçılar, sadvalçılar, avarlar, Hizbullahçılar, Ceyşullahçılar, İŞİD-çilər, bozqurdlar... Daha kimlər yoxdur burada? Kim ala biləcəkdi bunların qabağını? Ətrafımızda salamat müsəlman ölkəsi var? Yoxdur. Hamısı darmadağındır. Hamısında aləm bir-birinə qarışıb. Azərbaycanda isə sabitlikdir.

**“Uşaqdır, bilmir, ağlı kəsmir ki, dustağam”**

***-Azadlıq haqda fikirləşirsiz?***

- Ümid edirəm, fikirləşmirəm. 3 nəvəm var. 25 illik hədd qoyublar. Ümid edirəm. Ürəyim xəstədir, bəlkə sağ qaldım. Bəlkə ömürlük üstümdən götürülər. Bir istəyim var - azadlıq. Balalarımın əllərindən öpmək istəyirəm azadlıqda. 3 nəvəm var. Böyük nəvəmin adı Əlidir, kiçiyinin adı Cəfərdir. Birinin də adı Məryəmdir. Böyük nəvəm gəlir, deyir ki, baba, əsgərlərlə işləyirsən burda? Uşaqdır, bilmir, ağlı kəsmir ki, dustağam. Bilmir.

***-Uşaqlarınıza nəyə görə həbs edildiyinizi deyiblər?***

-Bilirlər. Böyüyünün 31 yaşı var artıq. Mən tutulanda 12 yaşı vardı. Balaca 6 yaşında idi. İndi 24 yaşı var. Deyirəm evlən, deyir ki, sən çıxmasan evlənən deyiləm. Nə cür evlənim deyir.

***- Azad edilsəz, nə işlə məşğul olacaqsız?***

**“Böyüyünün 31 yaşı var artıq. Mən tutulanda 12 yaşı vardı. Balaca 6 yaşında idi. İndi 24 yaşı var. Deyirəm evlən, deyir ki, sən çıxmasan evlənən deyiləm”**

- 54 yaşım var, ürək xəstəsiyəm. Nə işlə məşğul ola bilərəm? Yəqin gedib yenə də torpaqda işləyib, mal-qara saxlayacağam. Başqa nə edə bilərəm?

***-Cəzanızın müddətli cəza ilə əvəzlənməsi üçün müraciət edirsiz?***

-Mən də yazıram, atam da yazır. 3 dəfə ərizə yazmışam. Alıb apardılar. Ümid edirəm. Vəssalam.

**“Mahir də mənim kimi gəlib məscidə namaz qılmağa, düşüb böyük bir zibilin içinə, ömrü çürüyür gedir”**

***-Mahirlə münasibətiniz var?***

-Bir kamerada qalırıq.

***-O nə fikirləşir, nə deyir?***

- Ağlayır. O tutulanda uşağının 3 yaşı vardı. Anası qocalıb. Qabağında ata yox, qardaşı xəstə. Bir qaynatası var, o gəlib-gedir dalınca. “Narxoz”u qırmızı diplomla qurtarıb, gəlib oturub burada. Onun atası “Narxoz”un müəllimi olub, 90-cı ildə rəhmətə gedib. Mahir də mənim kimi gəlib məscidə namaz qılmağa, düşüb böyük bir zibilin içinə, ömrü çürüyür gedir. 22 yaşında düşüb bu oyunun içinə. 18 ildir ki, o söyür, mən söyürəm. O başına vurur, mən vururam, başqa nə edək?

**“Özümə bəraət qazandırmıram. İstəyirəm 90-cı illər nəzərə alınsın”**

***- Mahir tutulanda nə işlə məşğul olurdu?***

-Taksi sürürdü. Tariyel hamilə yoldaşını bunların ümidinə qoyub aradan çıxıb. O da baxırmış. Mahiri də evində tutmuşdular. Mahir biz birinci dəfə ora gedəndə yox idi. İkinci dəfə gedəndə elə bil ki, əcəl onu dartıb gətirmişdi. Yəni onu özümüzlə aparmaq planı yox idi. Özü durub gəlmişdi. Soruşduq, dedi ki, gəldim görüm nə edirsiz. Tariyel də dedi ki, gəlmisən, get sən də, maşında oturarsan, motoru söndürməzsən. Hava soyuq idi, dedilər ki, motoru söndürərsiz, birdən sonra işə düşməz. Həmin gün qar yağmışdı. Onun da ailəsi belə bədbəxt oldu. 2 uşağı var, hər ikisi universitetdə oxuyurlar. Çətindir. 18 il yollarda qalmaq asan deyil. Ailələrimiz gəlib-gedə bilmirlər. Yoldaşım ürəyindən əməliyyat olunub. Ona görə gələ bilmir. Oğlanlarım gəlir. 54 yaşında belə bir durumdayam. Tək ümidim göydə Allaha, yerdə prezidentimizədir. Onun ədalətinə sığınıram. Bilirəm ki, bu işi etməməli idik. Özümə bəraət qazandırmıram. İstəyirəm 90-cı illər nəzərə alınsın. O boyda ziyalılar səhv edirdilər. Milli təhlükəsizlik naziri Nəriman İmranov mənimlə qonşu kamerada yatıb. Surət Hüseynov burada idi. Müzamil Abdullayev, Natiq Əfəndiyev, Zakir Nəsirov, Kamil Sədrəddinov, KQB-nin bir zabiti var, bir müstəntiq var... Buradan xeyli adam keçib. Biz bədbəxtlər birdən-birə düşdük din adından alver edənlərin təsiri altına, başımızı yedilər. Bir daha təkrar edirəm, tək ümidim göydə Allaha, yerdə prezidentimizədir. Onun ədalətinə inanıram.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**musavat.com**

**Cəmiyyətə demokratiya vəd edən liderlərin ətrafındakı "demokratlar" bu günlərdə böyük yazıçımız, AYB sədri Anarın kitablarını yandırmağı təklif etdilər. Səbəb o idi ki, AYB rəhbərliyi niyə prezident İlham Əliyevi dəstəkləyir...**

Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru



# Müxalifət liderlərinin kitablarının hamısı yandırılıb

## "Borcumuz" olanlar, Anarın təşəkkürü və ibrət...

Ötən həftə Anara qarşı kampaniya aparılanda haqlı olaraq müdafiə edən köşə yazdım ki, o, bir müdrik, dünya görmüş adam kimi, kitab yandırmağı təklif edənləri necə, niyə dəstəkləsin?.. (Oxumayanlar buradan tanış ola bilər - http://musavat.com/author-news/anar-kitab-yandirmaq-isteyenleri-desteklesinmi_506030.html ttp://musavat.com/author-news/anar-kitab-yandirmaq-isteyenleri-desteklesinmi_506030.html )

Əlbəttə, heç zaman hansısa yazımı yazıb, oturub təşəkkür gözləməmişəm. Təbii, gözləmirdim də ki, yazıçı Anar zəng edib, mənə təşəkkür etsin. İki gün öncə isə nə baş verdi: Anar zəng edib, hətta utanacağım şəkildə təşəkkür etdi. O boyda qələm sahibindən bir yazına görə o cür təşəkkür alasan... Bu, onun sözə, qələmə nə boyda diqqətinin, həssasiyyətinin göstəricisidir. Üstəlik də qeyd edir ki, bağışla, bir neçə gün sonra zəng etdim, çünki xaricdə idim, bu gün gəlmişəm və oxuyub dərhal zəng etmişəm. Ardınca deyir ki, adaşın Elşad Paşasoyun da nömrəsini ver, ona da təşəkkürüm var...

Bəlkə, çoxları üçün adi məsələdir. Amma ortada iki həqiqət var: Qələm, söz adamları çox həssasdır, çox diqqətlidir. İkinci həqiqət: çevrəsini böyük tutmaq istəyənlər, böyümək istəyənlər ən birinci təşəkkür, diqqət göstərmək, borclu saymamaq mədəniyyətinə sahiblənməlidirlər...

Mənim duyğulanmağım təsadüfi deyil və qeyd etdiyim "ikinci həqiqət" kontekstində daha önəmlidir. Çünki...

Jurnalistikada olduğum 17 il ərzində "demokratik düşərgə" hesab olunan kəsimi təmsil edən liderləri, funksionerləri, siyasi iddialı şəxsləri də müdafiə edən çoxsaylı yazılar yazmışam, 2-3 il öncəyə qədər. (Əlbəttə, millət, dövlət naminə gərəkərsə, onlar haqda da yenə müsbət yazmaq, müdafiə etmək olar təbii ki. Lakin artıq elə bir görkəmdə deyillər və daha olacaqları da inandırıcı deyil.) Maraqlısı odur ki, ötən uzun illər ərzində barəsində ən xoş sözlər yazdıqlarımız, müəyyən zamanlarda siyasi, mənəvi, ictimai müdafiəsində dayandığımız bu böyük iddialı adamların heç biri buna görə şəxsən mənə, bildiyim qədər digər qələm dostlarımıza bircə dəfə də olsun telefon açıb, təşəkkür bildirmədilər. Əksinə, belə fon, rəy yaratmağa çalışdılar ki, bu, sanki bizim borcumuz imiş...

Biz isə sadəcə, bir zamanlar düşünmüşük ki, bunlar bəlkə gerçəkdən, özlərinin iddia etdikləri kimi, cəmiyyət, millət, demokratiya davası aparırlar, kömək etmək düzgün olar. Zamana, dəngələrə uyğun olaraq bunu doğru bildiyimizi hesab etmişik. Proseslər durulduqca, yavaş-yavaş sirr pərdələri aradan qalxdıqca bu qənaətə gəldik ki, daha bəsdir, olmayan borcu nə qədər ödəmək olar axı.

Onlara görə isə "borcumuz" sanki dollarla imiş, devalvasiyalardan sonra ödədikcə bitməməli imiş. Və əllərində bir "borcu" ödəməyənə kartofdan hazırladıqları "xəyanətkar" möhürü də var...

***

İndi qayıdaq yazıçıların İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləməsi məsələsinə.

Anar "Yeni Müsavat"a bu məsələyə dair açıqlamasında demişdi ki, əvvəl Heydər Əliyev, sonra İlham Əliyev onlara xüsusi diqqət göstərib, müxalifət isə daim söyüb. Yəni demək istəyib ki, kimi dəstəkləməli olduqları göz önündədir və dəstək verdikləri namizəd buna haqq edib.

"Bizimkilər" bu baxımdan Anara çəkdirdiklərinin 100 qatını bizə çəkdiriblər əslində! Hətta adi bir təşəkkür əvəzinə "xəyanətkar arayışı" veriblər bizlərə. Və bütün medianın dəstəyini, hətta salam-kəlamını itiriblər.

Ömrünün, yaradıcılığının önəmli hissəsini müxalif liderlərə, funksionerlərə həsr etmiş qələm adamlarını özlərindən tam və dönməz şəkildə nə vaxt uzaqlaşdırdılar, bilirsinizmi? Prezidentin ev bağışladığı həmin jurnalistlərə "axx, satqın" deyəndə. Daha tədbirlərinə də kimsə getmir. Yəni anlayacağınız budur ki, lovğa və fərsiz müxalifət liderləri əslində Anarın yox, özlərinin kitablarını yandırıblar...

***

Və sonda. Dünyanın normal hər yerində siyasilər, iddialı adamlar, ictimai xadimlər qələm adamları ilə, jurnalistlərlə xüsusi sayğı ilə davranır və onları özünə borclu bilmirlər. Əksinə, ağıllı iddialı, iddiasız xadimlər bilir və təcrübə də göstərir ki, qələm, söz sahibləri ilə mütləq məhz onlara uyğun dildə danışmaq, davranmaq, dost olmaq lazımdır.

Baxın, Tramp prezident olan kimi, biznesmenlik dövründən qalan biznes qisasını almaq istədi bəzi ABŞ media-holdinqlərindən. Nəticə nədir? Adamın gününü qara ediblər, gündə bir zibilini açırlar. Prezident Trampı "mister Təkzib"ə çeviriblər..

---

**İstəyirəm bu bilmədiklərim arasında öz payıma düşən qədər cavablayım suallarımı. Ya da yazım, hərə özünə lazım olan cavabı elə özü qədər götürsün. Öncəliklə deyim ki, bir yazıya sığmayacaq adamları xatırlayacağam, xatırlayacağıq. Çünki çoxumuzun həyatında onlar olmasaydı, onları görə bilməsəydik, ən böyük, sonsuz və möhtəşəm arzumuza, jurnalist olmaq istəyimizə gedən yolu tapa bilməzdik. O yolu şərəflə getmək üçün onları görmək mütləq idi.**

Jalə Mütəllimova



# Səfil Orduxana...

## Mənə görə, bu gün ermənilər kimdirsə, Orduxan da odur

**Ordan başlayım ki, bu başlıqda təhqir yoxdur. Səfil o adamdır ki, evi var, evinə yığışmır. Vətəni var, vətənsizdir. Ailəsi var, ondan imtina edib. Sanballı, maddi yox, mənəvi sanballı, şəxsiyyətli çevrəsi olduğunu düşünür, amma elə deyil. Bir sözlə adam səfildi, səfil. Orduxanı deyirəm, bizim Orduxanı. Heç əsəbiləşib eləməyin, o təkcə bizim deyil, həm də sizindir, bütün azərbaycanlıların. Di gəl bircə məqam var, sapı özümüzdən olan baltadır. İndiyə qədər çox təhqirlər deyib, ağzını Allahdan başqa hər yerin yoluna qoyub. Düzü əhəmiyyət verməmişəm. Nə müəllif, nə insan, nə də vətəndaş olaraq. Onun dedikləri mənə hasarın o tayından iki əli ilə aleeyyyy deyib qonşusuna külbaşlıq yollayan, acıq verən Fatma xalanı xatırladıb həmişə. Amma indi elə məqama toxunub ki, məzarda yatan ölü də hökmündə olsa dik ayağa qalxar...**

"Qarabağda ermənilər bütün məzarları dağıtmayıblar. Düzdü bizim məzarlarmız erməni keçilərinin, erməni donuzlarının ayaqları altındadır, amma onlar bilərəkdən, vandalizm formasında o məzarları dağıtmayıblar".



Orduxan Teymurxan

Bu adam özünə "siyasi mühacir", "vətənpərvər", "millətçi", blogger deyir. Avropada oturub. Yəni möhürlü, kilidli sərhədlərin o tayındadır. Və bu sözdən sonra mən onun adının önündəki bizim sözünü israrla geri çəkirəm. Çünki bu mənəviyyatda, bu əxlaqda, bu simada BİZ olmaz. Olsa- olsa biz olar. Yəni tərpəndikcə, özümüz olmağa çalışdıqca bir yerimizə batırmağa, didib qənatmağa çalışarlar BİZi o bizlə. Biz də o qədər qan görmüş adamlarıq ki, bir Orduxan bizinin çıxara biləcəyi qan gözümüzü qorxutmaz. Olsa-olsa ürəyimizi bulandırar. Necə ki, bulandırdı. Əslində ürək bulandıran onun təhqir dolu çıxışları deyil. Ələ işləyən adam olmasıdır. O, gerçəkdən əl adamı olmasaydı bəlkə sözünü də normal şəkildə deyə bilərdi. Daha Xocalıda altı yüzdən çox insanı vəhşicəsinə qətlə yetirən erməni dığalarının donuzunu, keçisini öz ölüsündən üstün tutmazdı. Mənə görə bu gün ermənilər kimdirsə, Orduxan da odur.

Qaldı ki, Orduxanı tənqidlərinə görə təqibə alıblar məsələsinə, inandırıcı gəlmir. Tənqid etmək olar. Amma bunu o qədər ağılı etmək lazım ki, ancaq oxunandan sonra başa düşülsün. Daha ilk sözdən ikrah doğurmasın. Bir də gərək o tənqidin içindəki hər şey sənin ağlının məhsulu ola. Baxan kimi hiss oluna ki, məsələn bu paraleli və ya analizi, indiki halda Orduxandan danışırıqsa, ancaq o edib. Bu dedikləri də yüz faiz Orduxan intellektinin məhsuludur. Vay o məqama və günə ki, ən primitiv düşüncə sahibi belə anlayır reallığı, bəli, bu məlumatlar Orduxana intellektinin məhsulu deyil, ola bilməz. Bu hansısa ölkənin kəşfiyyat məlumatıdır. Özlərinə sərf edən formada ictimailəşdiriblər. Təbii ki, azərbaycanlı Orduxan vasitəsi ilə. Və ya kimlərinsə lap elə Azərbaycanda alt məqsədlərlə ictimailəşməsini lazım bildiyi məsələlərdir onun dedikləri. Yoxsa nə Orduxanı?!.. Harda idi Orduxanda o bacarıq. Adam sadəcə ac hərifdir. Zamanında çevrəyə girə bilib.

Bir də fikir vermisinizsə məlum dairələr alt məqsədlərlə istifadə etmək üçün son dərəcə dayaz adamları seçir, Orduxan kimi. Niyə? Çünki onların heç zaman etirazı olmayacaq! Onlar heç vaxt "edə bilmərəm" deməyəcəklər. Söyləməyəcəklər ki, bu iş dövlət əleyhinədir axı. Deməyəcək ki, biz fərdlərə nifrətimizi vətənə yönəltməyək. Yenə də niyə soruşan olsa, dedim axı dayaz adamdırlar. Onları ancaq şəxsi mənfəətləri maraqlandırar, Orduxan kimi. Onlara tapşırarlar ki, çıx ermənin donuzundan, keçisindən danış. Amma qəti şəkildə ərazi bütövlüyünüzün durumundan söz açma. O da baş üstə deyib danışar. Bircə bunu unudar ki, bəsit adamları bir gün cırıq pul kimi zibil qabına tullayırlar. Yəni necə istifadə edirlərsə o cür də oyundan kənarlaşdırırlar. Bəlkə blogger Orduxan üçün də o gün uzaqda deyil.

Bu olayda qıcıq yaradan Orduxana tutarlı cavabın olmamasıdır. Bəylər, söyüşlə, iş olmur, həbslə məsələ bitmir. "Müharibə" informasiya və piar müharibəsi olmalıdır. Amma düzünü deyək ki, hələlik Azərbaycan bu cəbhədə uduzur. Məsələn, Eldar Mahmudov cinayətlərində adı hallanan bir qızıl alverçisinin Orduxana siyasi cavabını mən başqa cür dəyərləndirə bilmədim. Niyə o? Niyə axı? Özü də sosial şəbəkədə?!..Niyə susuruq, arada da qalxıb, söyüb, otururuq, vəssalam!.. Əminəm bu yazıya görə də söyüşlər, hədyanlar mütləq olacaq. Necə ki, blogger Mehmanla bağlı yazıda olmuşdu. Amma hər şeyin, bütün deyilənlərin üstündə mənim ağlımda yenə səfil Orduxanın səsi dolaşır: "Qarabağda ermənilər bütün məzarları dağıtmayıblar"... Ardınca başqa səslər gəlir, üzü xilasa doğru qaçan azərbaycanlı qocalar, uşaqlar, qadınların ah-vay səsi. Hamısı da bir ağızdan deyir ki, yalansa ay Orduxan...

Əslində indi cəmiyyət Orduxan məsələsində təkcə qatmaqarışıq deyil, həm də döyüşdə kontuziya almış əsgər kimidir. Beyni dumanlı, əsəbi, səs-küylə dolu və ağrılı. Deyəsən silkələnib ayılmaq zamanıdır cənablar...

Yadıma düşmüşkən, Orduxan və arxasındakılar bir də onu unutmasınlar, Azərbaycanın işğal altında olan ərazilərində qalan qəbirlərin, məscidlərin və başqa arxitektura abidələrinin ermənilər tərəfindən dağıdılmasını dünya qəbullanıb. Bunu Orduxan görmürsə, yazıq özünə və görməyən gözünə. Bir də son deyəcəyim var. Ermənidən artıq erməni, rusdan artıq rus, ingilisdən artıq ingilis, amerikandan artıq amerikan, fransızdan çox fransız və nəhayət almandan çox alman olmaq olmaz. Ya da olar! Onda da azərbaycanlı olmaq olmaz. Sən başın, ay Orduxan, bacarsan bundan elə azərbaycanlı olma... Bizə də, sənə də sərfəlisi budur...

# “Bu can nə olan şeydir ki, 62 yaşında onu qurban etməyim?”

## Tahir Kərimli: “Hesab etdik ki, Azərbaycanda sabitliyin qarantı İlham Əliyevdir”



**“Baxış bucağı”**

Budəfəki həmsöhbətimiz Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimlidir. Günün ikinci yarısına qədər bir neçə dəfə zəng etsəm də, telefonu sürücüsü açıb, “Tahir bəy görüşdədir” dedi. Nəhayət, saatlar sonra danışa bildik. Məlum oldu ki, Dünya Axıska Türklərinin rəhbərliyi ilə birgə Saatlıda yaşayan axıska türkləri ilə görüşdəymiş. Əvvəlcə bu görüş barədə məlumat verdi:

- Dünya Axıska Türklərinin rəhbəri Ziyəddin Qasanovun başçılıq etdiyi nümayəndə heyəti şənbə günündən ölkəmizdədir. Xocalı ilə bağlı tədbirlərə qatılacaq. Həmin təşkilatın birinci konfransını Azərbaycana salıblar, bunun özü də ölkəmizə hörmətdir. ABŞ-dan, digər ölkələrdəki təşkilatların sədrləri də gəlib. “Xocalı harayı”nı, Şəhidlər Xiyabanını ziyarət ediblər. Həmçinin prezident seçkilərinə öz dəstəklərini ifadə eləyiblər. Saatlıda da böyük bir toplantı oldu. Axıska türklərinin “Vətən” Cəmiyyəti ilə gözəl bir tədbir keçirildi, ətraf rayonlardan da qatılanlar var idi. Bu təşkilat çox böyük işlər aparır. İndiyə qədər parçalanmış, pərən-pərən düşmüş 600 minə yaxın Axıska türkləri artıq bütün dünyada toparlanır, birləşir, təşkilatlanır. Digər tərəfdən də Ziyəddin bəyin rəhbərlik etdiyi təşkilat bu insanların rifahı, təhsili üçün hər cəhətdən yardımlar edir. Həmçinin, Gürcüstandakı qədim Axıska yurdunda insanların məskunlaşması üçün dəstək veriblər. Əlbəttə ki, ən böyük məsələ Vətənə qayıdışı stimullaşdırmaqdır. Orada türk birliyini qoparıblar. Burada coğrafiya bir olub: Anadolu, Axıska, Borçalı, Azərbaycan, Xəzər vasitəsilə Orta Asiya. Sonrakı dönəmlərdə parça-parça ediblər. İndi Ziyəddin müəllimin başçılığı ilə bu coğrafiya təzədən birləşir. Özümçün qazanc hesab edirəm ki, iki gündür qardaşlarımızla belə tədbirlərdə iştirak edirəm. Bundan əlavə, mənim əziz dostum, uzun illər Türkiyədə professor kimi çalışan, dünya ölkələrində 59 elmi məqaləsi çap olunan Arif Səlimovla bir yerdəyik.

***- Tahir bəy, Xocalı soyqırımının 26-cı ildönümünü qeyd edirik. Deputat, siyasət adamı, həm də hüquqşünas olaraq nə təklif edirsiniz, soyqırımın dünyada tanıdılması və canilərin cəzalandırılması üçün nələr etməliyik?***

- Hər şeydən əvvəl Xocalı müasir dünyada hamının gözünün qarşısında baş verən çox ciddi soyqırım aktıdır. Yüz illərlə başımıza gətirilən fəlakətləri, öz torpağımızda soyqırıma uğramağımızı bəzən inkar edirlərsə də, bu, inkarolunmaz faktdır. Ona görə də tək Azərbaycan deyil, bütün Türk və İslam dünyası bu faktdan yapışmalı, dünyanın müdafiə etdiyi Ermənistana öz yeri göstərilməlidir. Xatırlayıram ki, o zaman Xocalı hadisəsi baş verəndə gedib qərargahda oldum, daha sonra Daxili İşlər Nazirliyi ilə danışdım, sonra parlamentdə çıxış etdim. Doğrudan da bu, çox dəhşətli hadisə idi. Əvvəlki illərdə düşünürdüm ki, bu, bir az kampaniya xarakteri alıb. Amma mən görürəm ki, son illər Xocalı ilə bağlı bütün dünyada çox ciddi şəkildə işlər gedir. Elə bu gün (dünən -red.) Dünya Axısta Türkləri adından bu məsələnin gündəmə gətirilməsi buna nümunədir. Amma bu işlərlə kifayətlənmək olmaz. Artıq Milli Məclisdə bəşəriyyət əleyhinə cinayətlər haqqında qanunvericiliyi müzakirə etmişik. Çox təəssüf edirəm ki, Beynəlxalq Məhkəmə 2002-ci ildən sonrakı bəşəri cinayətlərə baxır, əvvəlki dövrlərə baxmır. Amma biz buna nail olmalıyıq. Necə ki, Ruandada, Yuqoslaviyada xüsusi məhkəmələr yaradılmışdı, biz də xüsusi məhkəmənin yaradılmasına nail olmalıyıq. İmkanımız çatan qədər çalışmalıyıq ki, əvvəlki cinayətlərə də baxılsın. İkinci tərəfdən, BMT məhkəməsi də baxmır, çünki o halda qarşı tərəfin, dövlətin də razılığı lazımdır. Deməli, yol qalır xüsusi bir məhkəmənin yaradılmasına. Hesab edirəm presedent hüququ buna imkan verir. Nürnberq Məhkəməsi, Ruanda Məhkəməsi, Yuqoslaviyadakı məhkəmələr imkan verir ki, Xocalı ilə bağlı analoji beynəlxalq məhkəmələr yaradılsın və təqsirkarlar məsuliyyətə cəlb olunsunlar.

***- Tahir bəy, köhnə hərəkatçı kimi o hadisələrə siz də şahidlik etmisiniz. Azərbaycan daxilində Xocalı ilə bağlı ya eks-prezident Ayaz Mütəllibov, ya da cəbhəçilər ittiham olunur. Necə bilirsiniz, bütün bunlar diqqəti əsas düşmənimizdən yayındırmağa xidmət etmirmi?***

- Biz o vaxt SSRİ-nin tərkibindən çıxmış yeni bir dövlət idik, dövlət strukturları hələ tam formalaşmamışdı. Şübhəsiz ki, o təşkilatlarda Moskvaya bağlılıq qalırdı. Amma dediyiniz kimi, daxili ittihamlar bizi əsas hədəfdən, ümumi düşməndən yayındırır. Axı, Azərbaycan rəhbərliyində, yaxud AXC rəhbərliyində olanların heç vaxt belə bir niyyətdə ola bilməzdi ki, bu hadisələr baş versin. Ola bilər ki, təcrübəsizlik olub, kimlərsə aldadılıb. Ünvan aydındır: erməni və onların havadarları, 366-cı alayın sahibi Rusiya, Xocalı soyqırımını törədən, cinayətkarlar bunlardır. Bugünkü Ermənistan rəhbərliyi də o hadisələrdə iştirak edib, qatildirlər. Ona görə də diqqəti ümummilli birliyi pozmağa deyil, ümumi düşmənimizin ifşasına yönəltmək lazımdır. Lap deyək ki, Azərbaycan cəmiyyətində kimlərsə təqsirkardır, amma bu polemika getsə, bizi daxildən daha çox parçalayacaq. Zatən, uzun illərdir ki, heç bir şey edə bilmirik.

***- Serj Sərkisyan da açıq etiraf etmişdi ki, Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, biz onlarla zarafat edirik...***

- Bəli. Yaxud yazıçı Zori Balayan şəxsən iştirak edirdi soyqırımda, qətllər törədirdi. Dediyiniz kimi, erməni prezident deyirdi azərbaycanlılar elə bilirdi mülki əhaliyə toxunmayacağıq. Avropa Şurasındakı son çıxışında sarsaqladı, istədi ki, dediklərini bir az yumşaltsın. Amma bu, faktdır, azərbaycanlılarla ermənilərin birgə yaşayışının qeyri-mümkünlüyünü sübut etməkdən ötrü bu etirafı edib. Həmçinin o, türkə olan nifrətini ifadə edib. Ona görə də bunun altından heç yerə qaça bilməz.

## “Yaxşı olardı ki, Xocalı abidəsi protokola salınsın”

***- Xocalını anım gününü necə keçirməyi təklif edirsiniz? Yaxud hesab etmirsinizmi Xocalı abidəsinin dövlət protokoluna salınması məsələsində gecikirik?***

- Anım yürüşlər keçirilir, sabah da (bu gün - red.) ziyarət olunacaq. Amma mən hesab edirəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini keçirdiyimiz bir ildə elə 1918-ci il mart soyqırımının da 100 illiyinin keçirilməsi elan olunub. Bundan əvvəl də zaman-zaman, Rusiya imperiyasının tərkibinə daxil olduqdan sonra erməni və havadarları bizə qarşı soyqırım cinayətləri törədib. Ona görə də vaxtdır ki, böyük bir kompleks yaradılsın və əlbəttə ki, bu kompleks əsasən Xocalıya aid olsun. Amma burada bizim memorial, muzey, mavzoley olsun. Məsələn, Sank-Peterburqda Skaryov qəbiristanlığı var, vaxtilə orda olmuşam, orda daim kədərli musiqi səsləndirilir, protokol qaydasında əklil qoyulur, ziyarət olunur. Yaxud Volqoqradda eyni qaydada Mamayev-Kurqan var. Çox möhtəşəm komplekslərdir. Mən görürdüm ki, oranı ziyarət edənlər nə dərəcədə təsirlənirlər, istər Rusiya vətəndaşları, istər digərləri olsun. Xocalı ilə bağlı belə bir güclü bir kompleks yaradıb onu protokola salmaq olar ki, xaricdən gələnlər də, məktəblilərimiz də ziyarət etsin, dostu-düşməni yaxşı tanısınlar. Yaxşı olar ki, Xocalı abidəsi protokola salınsın. Ola bilər kimlərsə bu protokola əməl etməkdən imtina etsin. Amma istənilən halda, bu istiqamətdə addım atmalıyıq. Həmçinin mütləq böyük bir kompleks yaratmalıyıq. Ermənistanda saxta “soyqırım”la bağlı böyük abidə qoyublar, protokola salıblar, hətta dünya ölkələrinin prezidentləri İrəvana gələndə onu ziyarət edir. Belə olan təqdirdə nə üçün öz torpağımıza başımıza müsibət gətirildiyi halda, genosidə biz uğradığımız halda, bizim bir qüdrətli abidəmiz olmasın? Yaxşı, indi olanımız budur, heç olmasa onu protokola salmağımız yaxşı olardı.

## “Mən həmin Tahir Kərimliyəm ki, Azərbaycanın hər yerindən 17 doludağıdan topu Cəbrayıl rayonuna aparıb, orada payladım”

***- Tahir bəy, sizin Afrin əməliyyatı ilə bağlı dedikləriniz, “oğlumu da götürüb Afrində döyüşməyə hazıram” sözləriniz birmənalı qarşılanmadı, yəqin izlədiniz. Hətta bəziləri iddia etdilər ki, Tahir Kərimli Qarabağ müharibəsində hardaydı və sair...***

- Təşəkkür edirəm bu məsələyə toxunduğunuza görə. Mən çox təəssüf edirəm ki, bizim bəzi siyasətçilərimiz məhz bu gün Qarabağın ön cəbhəsinin Afrində olduğunu qəbul edə bilmir. 1918-ci ildə Qafqaz İslam Ordusu olmasaydı, Azərbaycanda bəlkə də indi bir türk yaşamırdı. Bizim tale birliyimiz var, biz Türkiyə ilə təbii müttəfiqik. Türkiyə yeri gəlsə, Azərbaycanın, bütün Türk dünyasının qarantıdır. 81 milyonluq böyük bir dövlətdir. Biz bilirik ki, Afrin hadisələri nə deməkdir. Orda Bərzani hakimiyyəti ilə birləşib, okeana çıxış əldə etmək, kürd dövləti yaradıb, Türkiyəni sarsıtmaq, Türk dünyasını kiçiltmək istəyirdilər. Necə ki, zaman-zaman bu faciələri başımıza gətiriblər. Bunu başa düşməmələri mənə çox təsir edir. İkincisi, mənim oğlum Qarabağ bölgəsində, təmas xəttində xidmət edib. Siz bilirsiniz, bacım oğlu - o vaxt mənim uşaqlarım kiçik idi - könüllü gedib, Qarabağ uğrunda şəhid olub. Mənim babamın qardaşı Əliqulu kişi gedib vaxtilə Qarabağda şəhid olub.

Çox təəssüf edirəm ki, müxalifət liderləri də feysbukda bizim müqəddəs duyğularımızı təhqir edir, onlarla insanı əleyhimizə təbliğat aparmağa vadar edirlər. Doğrudan bunlar başa düşmür? Məgər biz Qarabağda vuruşmaqdan imtina etdik? Yaxud “oğlumla Afrində döyüşməyə hazıram” demək o deməkdir ki, biz Qarabağı istəmirik? Bugünkü Qarabağımız Afrindir, başa düşsək. Qarabağ uğrunda da eyni şeyləri edərik. Necə ki, etmişik. Min dəfə üzr istəyirəm, populistlik alınar. Bəlkə heç yazmayasınız, mən həmin Tahir Kərimliyəm ki, Azərbaycanın hər yerindən 17 doludağıdan topu şəxsən özüm K-700 ağır traktorları vasitəsilə Cəbrayıl rayonuna aparıb, orada payladım. Gücüm çatandan silah-sursat apardım cəbhəyə. Mənim gecə-gündüzüm vaxtilə Ağdamda, Cəbrayılda keçib. Mən həmin adamam ki, Qəbələ RLS-i hədələdim, dedim vurub-dağıdacağıq oranı, rusun iki generalı Tiflisdən gəldi, dedilər gəl, oturaq, danışaq. Mən məcbur olub xatırladıram e. Bəlkə mən bütün qazancımla özümə evlər, saraylar tikmişəm, nəyim varsa, hamısını Qarabağa qoymuşam. Bəlkə qardaşlarım, balalarım elə etməyib? Mən insanların bu cür ittihamlarına görə çox təəssüf edirəm. Şübhəsiz ki, Qarabağ torpağımızdır, əzizimizdir, hamımız da hazırıq. Əgər Qarabağda döyüşlər başlayarsa, orda olacağıq. Əgər Afrində ehtiyac yaranarsa, mən yenə də sözümdən qaçmıram. Afrin bizim Qarabağımızdır, bizimçün Afrinlə Qarabağın fərqi yoxdur. Mən elə tədbirdə nümayiş etdirilən kadrlara baxıb, çox kövrəldim. Azərbaycan əsgəri deyib ki, məni göndərsələr, dərhal Afrinə gedərəm, canımı da qurban verərəm! Dediyim budur ki, bizim türk qardaşlarımıza can borcumuz var. Bu can nə olan şeydir ki, mən 62 yaşında onu qurban etməyim?

***- Tahir bəy, partiya sədri olaraq prezident seçkilərinə namizəd olaraq iddianız olmadı və hakim partiyanın namizədini müdafiə etdiniz. Bu qərarınızı nə ilə əsaslandırardınız?***

- Bəli. Şənbə günü Baş Məclisimizin iclasını keçirtdik və hesab etdik ki, Azərbaycanda sabitliyin qarantı İlham Əliyevdir. Partiyamızın da xətti var, onu müdafiə haqqında qərarımızı verdik. Mən hesab edirəm ki, bu, düzgün qərardır. Suriyada 5 milyon insan öz haqları, demokratiya uğrunda ayağa qalxmışdı. Nail oldularmı? Niyə həmin adamlar indi demokratiyadan, insan haqlarından danışmırlar? Bu adlar altında bir ölkəni cəhənnəmə döndərdilər. Bizə sabitlik lazımdır. Azərbaycanı da, Türkiyəni də parçalamaq istəyən, Suriya, Liviya vəziyyətinə salmaq istəyənlər var. Cənab prezident indi bu sabitliyi yarada, qoruyub-saxlaya bilir. Mən başqa birini, onun alternativini görmürəm, kimsə görürsə, desin. Ona görə hesab edirəm ki, biz düzgün qərar qəbul etmişik.

**❑ Elşad PAŞASOY, “Yeni Müsavat”**



# Ziyalıların yanması haqda

Zamin HACI
zaminhaci@gmail.com

"Ey bülbülı-qüdsi, nə giriftari qəfəssən,
Sındır qəfəsi, tazə gülüstan tələb eylə".
(Nəsimi)

**Hər bir şey harmoniyadadır, bir-biriylə sıxı surətdə əlaqədardır. Sən Bayılda asqırırsansa dalğalanan hava böyüyüb Yaponiyada sunamiyə səbəb olur. Mən Xaləddin müəllimin xarab saatından yazmışdım, həmin günü saatı düzəltdilər. Xalq artistlərinin maaşında artım olmuşdur, deməli payızda armud ucuz olacaqdır. Eyni zamanda, əgər Aqil müəllim intervü verirsə həmin il Ağcabədi soğanının qiyməti qalxır. Bunlar hamısı sınaqdan çıxarılıbdır.**

Bu yaxında bir topa gənc yazıçı AYB sədri Anarın və onun müavini Çingiz müəllimin kitab-dəftərini yandırmaq haqda tədbir elan etdilər. Dərhal cəmiyyətdə etirazlar baş qaldırdı, özü də ən çox etiraz edənlər ən çox kitab oxuyan adamlar idilər. Misal üçün, müğənni Faiq müəllim Axundov kitabxanasının yarısını oxuyubdur. O səbəbdən Çingiz müəllimin kitablarının yandırılması təhlükəsinə dözmədi.

Ancaq məqsədimiz kitabxanaşünaslıq deyildir. Hamı o qalmaqallı günlərdə baş vermiş bir hadisənin mənasına diqqət eləmədi. Məmləkətin bir yanında ziyalıların kitablarını yandırmaq istəyirdilərsə, o biri ucunda keçmiş nəqliyyat naziri Ziya müəllimin evi yanmışdı. Buyurun. Əsl terrordur. Hədəfində isə ziyalılardır. Hələ onu yazmıram ki, eyni vaxtda qəzetçi həmkarımız Elşən müəllim Qobustan həbsxanasına gedib Ziya Bünyadovun qatilindən intervü almışdır. Görün hamısı bir-biriylə necə əlaqədardır. Dəhşətdir. Sanki kimlərsə bizim xalqımızın qəsdinə durmuşdur.

Elementar bir misal çəkim. Fevralın 14-də - Ümumdünya Sevgililər Günündə bizdə fərman verildi: "Şəhər elektrik nəqliyyatının sürücülərinə pensiyaya vaxtından tez çıxmaq hüququ verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 11 noyabr tarixli 448 nömrəli Fərmanı (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991, № 21-22, maddə 398) ləğv edilsin". Bu nə deməkdir? Bu o deməkdir ki, 2001-ci ildə Hacıbala müəllim əlinə qılıncı alıb Bakı şəhərinin elektrik nəqliyyatı təsərrüfatını - tramvay və trolleybusları doğrayandan bəri 17 il keçsə də, şəhər elektrik nəqliyyatı sürücüləri pensiyaya vaxtından qabaq çıxmaq hüququnu əldə saxlayırmış. Görün bu 17 ildə nə qədər sürücü pensiyaya çıxıb hazırda dövlət büdcəsi vəsaitlərini xımır-xımır yeməklə məşğuldur. Bəs ziyalılarımız hara baxır? Olmaz belə. Məndə şübhələr var ki, bizdə at arabalarının, konkaların, dirijablların, yelkənli gəmilərin, paroxodların sürücüləri də pensiyaya vaxtından qabaq çıxırlar. Bunları araşdırıb üzə çıxarmaq yerinə mənasız işlərlə məşğuluq.

Yaxud, Ziya Bünyadovun qatilinin intervüsündə bir məqam var idi, deyir o vaxt müxalifət liderlərindən kimisə öldürmək də planda olubdur. Guya fikirləşiblər bunun mənası yoxdur, xalq etiraza qalxmayacaq, sonra qərar verilib Bünyadov vurulsun. Məncə etiraf etmək lazımdır ki, onlar bizim müxalifət liderlərini elə 90-cı illərdə kütləvi şəkildə qətlə yetiriblər. Çünki həmin vaxtdan bəri bu "liderlər" Azərbaycanda hər hansı müsbət dəyişikliyə, iqtidara azacıq təsirə-filana malik deyillər. O məhşur anekdotdakı vəziyyətdir: "Məni də öldürdülər". Özü də mən mətbuatı qırağa qoymuram. Bizi də təxminən o vaxtlardan müxalifətlə bahəm hoppalara yola saldılar. Hətta deyərdim biz daha çox dirəndik, çünki sıralarımızda ziyalılar var idi. Təvazökarlıq çıxmasın, biri elə mən.

Bu durumu Qasım bəy Zakir hələ 19-cu əsrdə təxminən təsvir etmişdir. Uzun şeirdir, hamısını tapıb oxumaqda fayda var, mən bir-iki beytini bura basıram:

***Xəbər alsan bu vilanın əhvalın,***
***Bir özgədir keyfiyyəti-Qarabağ.***
***Həqdi, bundan əqdəm görübsən səndə,***
***Hanı o qaidə, o qanunsəyaq?..***
***...Fəraqət oturub hər kəs bir işdə,***
***Nə yazda yarıdırdıq, nə də ki qışda;***
***Ya rəb, neyləmişdik, bu dağılmışda***
***Haram oldu bizə bir qarış torpaq?..***
***...Gərçi vilayətdə çox idi əhval,***
***Müyəssər olmadı şərh edəm əhlal,***
***Bir parasın yazıb, eylədim irsal,***
***Bir şərt ilə nə diş bilsin, nə dodaq.***

# Okeanın o tayından bu tay üçün kritik gözlənti

**Artıq şübhə yoxdur ki, 2018-ci il həm də ABŞ-Rusiya münasibətlərinin sərtləşməsi ilə yadda qalacaq. Bu da öz növbəsində bir sıra konfliktli məsələlər, o cümlədən Qarabağ problemi ətrafında situasiyada mühüm izlər buraxacaq. Proses hələ ötən ilin dekabrından başlayıb. Nə vaxt ki, ABŞ-ın açıqladığı yeni Milli Təhlükəsizlik Strategiyasında Rusiya, İran və Şimali Koreya Amerika üçün əsas hədəflər elan olunub.**




## Ermənilər panikada - Tramp işğalçıya Qarabağ sürprizi edə bilər

### Düşmən ölkədə ABŞ-ın silah embarqosundan dolayı təlaş artır; Ermənistan müttəfiqi Rusiyanın maddi itkilərinə də ortaq olmaq istəmir və hətta İlham Əliyevin İrəvan bəyanatı ilə Amerikanı şantaj etməyə çalışır; Qərb nəşrindən maraqlı şərh...

"ABŞ-ın Maliyyə Nazirliyi yaxın bir neçə həftədə Rusiyaya qarşı yeni sanksiyalar haqda məlumat verəcək". Bunu ötən həftəsonu ABŞ-ın maliyyə naziri Stiven Mnuçin Ağ Evdə jurnalistlərə bildirib. "Biz Rusiyaya qarşı sanksiyalar üzərində işləyirik. Sizi əmin edə bilərəm ki, proses gedir və mən qarşıdakı bir neçə həftə ərzində yenidən burada - Ağ Evdə olacağam".

"Yeni Müsavat" xatırladır ki, ötən ayın sonunda Rusiyaya qarşı Amerikanın yeni sanksiyaları qüvvəyə minib. Bu sanksiyalar ABŞ-a imkan verir ki, Rusiyanın müdafiə və ya kəşfiyyat idarələri ilə əlaqədə olan istənilən şəxsə, ölkəyə qarşı bır sıra maliyyə sanksiyaları tətbiq eləsin.

Sanksiyalar işə düşər-düşməz, Rusiya artıq 3 milyard dollar itirib. Belə ki, bir neçə ölkə ilə imzalanan hərbi müqavilələr Moskvanın istəyi əleyhinə ləğv olunub. Bu haqda məlumat verən Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov onu da bildirib ki, "ABŞ şantaj və hədə-qorxu yolu ilə, məqsədyönlü şəkildə Rusiyanın başqa ölkələrlə hərbi-texniki əməkdaşlığına mane olmağı hədəf götürüb".

*****

"Rusiya dünyada ikinci böyük silah satıcısıdır və o üzdən nəzəri cəhətcə sanksiya altına düşə biləcək ölkələrin siyahısı böyük ola bilər. Ancaq sanksiya hədəsi yalnız Rusiya silahına güvənən və ABŞ-la da yaxşı əlaqə qurmaq istəyən Ermənistanda deyəsən daha çox təşviş yaradıb".

"Yeni Müsavat" xəbər verir ki, bu barədə EurasiaNest.org portalında getmiş təhlili məqalədə deyilir. Məqalədə daha sonra bildirilir ki, Amerikanın İrəvandakı səfirliyi bu ölkənin də sanksiyalar altına düşmə təhlükəsi haqda artıq Ermənistan hökumətini xəbərdar edib.

"Sanksiyaların tətbiqi çox selektiv və konkret situasiyadan asılı olmalıdır. Yəqin ki, qanun ABŞ-ın heç bir strateji tərəfdaşına və ya müttəfiqinə, hətta hansısa az önəmli müttəfiqinə də toxunmayacaq, əgər Vaşinqton hesab eləsə ki, bu, onun marağına cavab vermir". Bu sözləri adı çəkilən portala açıqlamasında Stokholmdakı Dünya Problemlərinin Tədqiqi Beynəlxalq İnstitutunun böyük elmi əməkdaşı Saymon Vezeman söyləyib.

Pensilvaniya Universitetinin əməkdaşı, postsovet ölkələri ilə bağlı xarici siyasət məsələləri üzrə ekspert Mitçell Orenşteyn isə bildirib ki, prezident Tramp Rusiyadan silah alan istənilən ölkəyə sanksiya tətbiq edə bilər. "Hələ ki, o, belə sanksiyalar tətbiq eləməyib. Ona görə də heç kim deyə bilməz ki, Trampın siyasəti necə olacaq" - ekspert əlavə edib.

*****

Məsələ ondadır ki, ABŞ-ın hazırkı prezidenti Donald Tramp Amerikanın erməni diasporuna deyil, məhz dünya yəhudi lobbisinə bağlı şəxsdir. Əsas da iki səbəbdən: 1. Milyarder olduğu üçün onun erməni lobbisinin çirkli puluna ehtiyacı yoxdur və bu üzdən ermənilərdən heç bir maddi asılılıq mövcud deyil; 2. Trampın kürəkəni - iş adamı, 35 yaşlı Cared Kuşner yəhudi əsilli olduğu üçün.

Təsadüfi deyil ki, Tramp seçki kampaniyasında saxta "erməni soyqırımı"nı tanımaqla bağlı hər hansı vəd vermədi. Halbuki, bir qayda olaraq, bütün prezidentliyə namizədlər erməni seçicilərin səsini qazanmaq üçün yalandan da olsa, bu sözü verirlər. Əksinə, Tramp Qüdsü İsrailin paytaxtı kimi tanıyacağını vəd eləmişdi və sözünü tutdu (İddialara görə, bu qərarın verilməsində Kuşner və onun xanımı İvanka Tramp da mühüm rol oynayıb). Bir neçə gün qabaq isə xəbər yayıldı ki, mayın 14-də - İsrail dövlətinin yaranmasının 70-ci ildönümündə ABŞ səfirliyi Təl-Əvivdən Qüdsə köçürüləcək.

Ermənistana gəlincə, o, nəinki Vaşinqtonun ən aşağı səviyyəli müttəfiqi və ya tərəfdaşları sırasında belə yer almır, üstəlik, ABŞ-ın 1 nömrəli düşmən elan elədiyi və sanksiyalar tətbiq elədiyi Rusiyanın regionda əsas müttəfiqi və hərbi qalasıdır. Bu hərbi qala - forpost Ermənistan həmçinin, öz daxilindəki rus qoşunları ilə birgə qonşuları - qərbyönlü Gürcüstan və müstəqil siyasət yürüdən Azərbaycan üçün də real təhlükə mənbəyidir.

Bundan başqa, Rusiyanın arxasında gizlənən işğalçı Ermənistan bölgədən Avropaya istiqamətlənən iri neft-qaz kəmərlərinə və nəqliyyat xətlərinə ciddi təhlükə olaraq qalır. Kəmərlərin vurula biləcəyi ilə bağlı Ermənistandan dəfələrlə hədələr səslənib ki, bu da Qərbin, Amerikanın regiondakı energetik və təhlükəsizlik maraqlarına bilavasitə təhdiddir. Belədə ABŞ gerçəkdən də Rusiyanın bölgədəki sədaqətli müttəfiqi Ermənistan əleyhinə niyə də Qarabağ (sanksiya) sürprizi eləməsin?..

*****

Rusiyaya qarşı silah embarqosu sözsüz ki, onun silah bazarında əsas rəqiblərindən olan İsrailin də maraqlarına cavab verir (Bu da Ağ Evdən yəhudi dövlətinə daha bir reverans). Çünki silah alıcısı alternativ ölkə kimi İsrailə üz tuta bilər. Ermənistan üçün isə Azərbaycandan fərqli olaraq belə alternativlər mövcud deyil. Birinci Rusiya qoymaz, ikinci isə bahalı və müasir silah-sursat üçün onun yetərli vəsaiti yoxdur.

Bir sözlə, silah satışı ilə bağlı mənzərə hara çevirsən Ermənistana yaxşı perspektiv vəd eləmir. Azərbaycan, Rusiya və Ermənistanda prezident seçkilərindən sonra - may-iyun ayında Qarabağda müharibə riskinin böyük olacağı haqda xəbərdarlıqlar da ciddiyə alınarsa, o zaman Ermənistanın xeyli dərəcədə güclənən isterikanı anlamaq mümkündür.

Bu xüsusda bəzi erməni siyasətçiləri və ekspertlərinin Azərbaycan adından spekulyasiya eləməyə çalışması, daha dəqiqi, ABŞ-ı "aqressiv Azərbaycan"la şantaj eləməsi yersiz olduğu qədər də anlaşılandır. Məsələn, "Yeni Müsavat"ın məlumatına görə, Ermənistan Demokrat Partiyasının sədri Aram Sərkisyan 1 in.am nəşrinə açıqlamasında gerçəyi ənənəvi ermənisayağı, baş-ayaq təqdim edərək deyib: "ABŞ ilk növbədə onun qayğısına qalmalıdır ki, Azərbaycan silah almasın. Nədən ki, məhz o - təcavüzkar tərəfdir (?! - YM). İlham Əliyev İrəvanı tutmaq məqsədini gizlətmir. Belə vəziyyətdə Ermənistanın özünümüdafiə üçün (?!- YM) silah almasını məhdudlaşdırmaq absurddur. Problem ondadır ki, biz yalnız Rusiyadan silah əldə edirik, Azərbaycan isə - istənilən yerdən. Ermənistan hakimiyyəti Dövlət Departamentinə müraciət etməli və bildirməlidir ki, əgər belə addıma gedərsinizsə, bizim vəziyyətimiz anlayın. Fikrimcə, hazırda çox vacib olan məsələ diplomatik aktivlikdir. Əlbəttə ki, sanksiyalar olarsa, biz əziyyət çəkəcəyik. Çünki bizim başqa yerdən silah almaq imkanımız yoxdur".

"Söhbət bizim ölkənin, xalqımızın təhlükəsizliyindən gedir. Odur ki, Ermənistan rəhbərliyi həqiqəti oturub amerikanlara sadə dildə izah eləməyə borcludur. Deməlidir ki, baxın, biz Rusiyadan silah alası olmasaq, başımıza nələr gələcək", - deyə Sərkisyan faktiki surətdə ABŞ-ı erməni və rusun ortaq işğalına məruz qalmış Azərbaycanla həyasızcasına şantaj etməyə çalışıb.

Absurd olsa da, faktdır və necə deyərlər, burada əlavə şərhə yer qalmır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 45 (6934) 26 fevral 2018

**Azərbaycanda aprelin 11-nə təyin edilmiş prezident seçkisi ilə bağlı bir sıra prosedurlar fevralın 25-də başa çatıb. Prezident seçkisinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planına əsasən, səsvermə üçün qeydiyyatdançıxma (səsvermə) vəsiqəsinin hazırlanma qaydasına və sayına dair tələblərin təsdiq edilməsi müddəti bitib.**

# Prezidentliyə 15 namizəddən yalnız biri imzaları verib

## İmzatoplama kampaniyasına kimlər yeni başlayıb?

Tələblər Mərkəzi Seçki Komissiyası tərəfindən səsvermə gününə azı 45 gün qalanadək, yəni 2018-ci il fevralın 25-dək təsdiq edilir.

Fevralın 25-i həmçinin səsvermə üçün qeydiyyatdançıxma (səsvermə) vəsiqələrinin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilməsi prosesi başa çatıb. Səsvermə vəsiqəsi səsvermə gününə azı 45 gün qalanadək, yəni 2018-ci il fevralın 25-dək Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilir.

Bundan əlavə fevralın 25-də dairə seçki komissiyaları tərəfindən nömrələri və hüdudları göstərilən seçki məntəqələrinin siyahısının (seçki məntəqəsi yaşayış məntəqəsi ərazisinin bir hissəsini əhatə etdikdə), yaşayış məntəqələrinin siyahısının (seçki məntəqəsi bir neçə yaşayış məntəqəsində yaradılmışsa), habelə, məntəqə seçki komissiyaları, səsvermə otaqlarının yerləri (ünvanları) və məntəqə seçki komissiyalarının telefon nömrələri haqqında məlumatların dərc edilməsi prosesi başa çatıb.

Həmçinin, Təqvim Planına əsasən, fevralın 25-də Mərkəzi Seçki Komissiyası tərəfindən seçki komissiyalarının səsvermə protokollarının hazırlanması qaydasına, mətninə, formasına, ayına, hazırlanmasına aid tələblərin təsdiq edilməsi müddəti başa çatıb.

Prezidentliyə namizədliyi sürülən şəxslərin namizədliyinin rəsmi qeydə alınması üçün lazım olan 40 min seçici imzasının və digər müvafiq sənədlərin MSK-ya təqdim olunması üçün vaxt martın 12-də saat 18.00-da başa çatacaq. 15 nəfər iddiaçıdan hələlik yalnız YAP-ın prezidentliyə namizədi İlham Əliyev üçün imzalar və digər sənədlər MSK-ya təqdim edilib.

Mərkəzi Seçki Komissiyasının (MSK) Media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli bildirib ki, Mərkəzi Seçki Komissiyası tərəfindən namizədlərin sənədlərinə baxılması hər zaman şəffaf şəkildə həyata keçirilir. Hazırda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin prezidentliyə namizədliyinin qeydə alınması üçün seçici imzaları toplanmış imza vərəqələri və digər sənədlərə Mərkəzi Seçki Komissiyasında İşçi Qrupu tərəfindən baxılır.



Ş. Əsədli deyib ki, bütün bu proseslər tam şəffaf şəkildə aparılır: "Hər zaman MSK sədrinin iclasda bəyan etdiyi kimi, maraqlı şəxslər müraciət edib, prosesə yaxından tanış ola bilərlər".

Namizədliyi irəli sürülən digər 14 nəfər isə imza toplama kampaniyasını davam etdirir. Onların iksinin-ADP-nin namizədi Sərdar Cəlaloğlu və VİP-in namizədi Əli Əliyevin prezident seçkilərində namizədliyin irəli sürülməsinin təsdiq olunması məsələsinə MSK-nın 24 fevralda keçirilən iclasında baxılıb və müsbət qərar verilib. Hər iki iddiaçı üçün imza vərəqələri verilib.

ADP-nin seçki qərargahının sədri Taliyət Əliyev "Yeni Müsavat"a bildirib ki, fevralın 25-də imza vərəqələrini MSK-dan götürüblər: "Fevralın 25-dən etibarən imza toplanılmasına start verdik. Bütün qüvvələrimizi səfərbər etmişik. Vaxt az qalsa da ümid edirik ki, lazım olan sayda imzaları toplayıb çatdıra biləcəyik".

VİP-in namizədi Əli Əliyevin seçki qərargahı da imza toplama kampaniyasına start verib.

Prezidentliyinə namizədliyini irəli sürmüş QAT sədri Akif Nağı üçün imza vərəqələrinin verilməsi isə yubadılıb. Bu barədə A.Nağının seçki qərargahının rəhbəri Barat İmani bildirib: "Seçki Məcəlləsinin tələblərinə görə biz imza vərəqələrini uzağı fevralın 24-də almalı idik. Təəssüf ki, müraciətlərimizə heç bir konkret cavab vermir, ləngimənin səbəblərini izah etmirlər. Biz bunu Akif Nağıya qarşı təzyiq forması kimi qəbul edirik. Mərkəzi Seçki Komissiyası bu hərəkəti ilə qanunu pozur, namizədimizin qeydə alınması üçün imzaların vaxtında toplanıb təqdim olunmasına süni əngəllər yaradır".

Akif Nağı isə bildirdi ki, ona qarşı açıq-aşkar qanunsuzluq edilir: "Qanuna görə MSK bizə ən geci fevralın 24-də rəsmi cavab verməli idi. Sərdar Cəlaloğlu və Əli Əliyevin sənədləri mənim sənədlərimdən sonra MSK-ya təqdim olunmuşdu. Onların hər ikisinin sənədlərini fevralın 24-də MSK təsdiqlədi. Lakin bizə heç bir cavab verilmir. Seçki qərargahımızın rəhbəri və nümayəndələrimiz dəfələrlə MSK-ya zəng etsələr də, cavab verən yoxdur. Nümayəndələrimiz MSK-ya gedib, qapıdan içəri buraxmayıblar. Açıq-aşkar mənim hüquqlarım pozulur. İmzaların toplanması üçün vaxt getdikcə azalır. Sanki bizə imza vərəqələrinin verilməsini qəsdən yubadırlar ki, çatdırıb imzaları toplaya bilməyək. Lakin bizim hazır komandamız var, hətta 10 gün qalsa belə, imzaları toplaya bilərik".

Prezident seçkisini izləmək üçün isə hələ ki, 51 müşahidəçi Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçib. MSK-dan bildirilib ki, onlardan 36-sı öz təşəbbüsü, 15-i isə qeyri-hökumət təşkilatlarının təşəbbüsü ilə müşahidəçi kimi qeydiyyata alınıb.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Sərkisyanın Türkiyə və Azərbaycana böyük xidməti



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ötən günlərdəki çıxışlarının birində Xocalı soyqırımından danışdı, 26 il öncəki hadisələri "dünyanın ən qanlı faciəsi" adlandırdı. "Türkiyə olaraq bu qanlı faciəni unutmadıq və əsla unutdurmayacağıq" deyən qardaş ölkənin prezidenti ardınca bildirdi ki, bu qanlı faciəni törədənlər mütləq cavab verməlidirlər.**

Hər birimizi duyğulandıran, qürurlandıran mövqedir, qardaş ölkənin daim bizim yanımızda olduğunun növbəti təsdiqidir. Ancaq erməni həyasızlığı sözdən işə keçməyi tələb edir. Ermənilər hətta həyasızcasına Azərbaycanın keçmiş rəhbərliyini beynəlxalq məhkəmə ilə hədələyirlər, özləri Haaqa Tribunalında mühakimə olunmadıqca qudururlar.

Xocalı soyqırımını dünyaya tanıtmaq həm də qardaş Türkiyə üçün olduqca vacibdir. Həm də o səbəbə ki, düşmən bizi heç zaman Türkiyə türklərindən ayırmayıb, bizi TÜRK olduğumuz üçün qırıb, 100 il öncə də, 26 il əvvəl də...

Türkləri məhv etməyi qarşısına məqsəd qoyan ermənilər gecəli-gündüzlü təbliğat aparıb iddia edirlər ki, 1915-ci ildə soyqırıma məruz qalıblar. Hətta bir çox ölkələr yalan üzərində qurulmuş bu iddiaya qoşuşub, sözdə "erməni soyqırımı"nı tanıyıb, sonuncu dövlət Hollandiya oldu.

Bu mənada Xocalı soyqırımı, o cümlədən azərbaycanlılara qarşı 100 il əvvəl törədilmiş azərbaycanlıların soyqırımı ilə əlaqədar Türkiyə və Azərbaycanın koordinasiyalı fəaliyyət göstərməsi, Türk və Azərbaycan diasporunun birgə hərəkət etməsi düşmənin yalançı təbliğatını alt-üst edə bilər.

Ermənistan Türkiyəyə qarşı "soyqırım" iddiasını irəli sürməklə kifayətlənmir. Fakt budur ki, Ermənistan Konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiası əksini tapıb və təəssüf ki, qardaş ölkədə çoxları bunun fərqində deyil. Hətta biriləri "Ermənistanla sərhədləri açaq, onlar da Qarabağı qaytarsın" kimi bəsit nağıllar danışır.

"Böyük Ermənistan" xülyasını reallaşdırmaq, Ermənistanın gerbində də Ağrı dağının ("Ararat" deyirlər) əks olunması faktı da ortadadır. Serj Sərkisyanın bir neçə il əvvəl erməni gənclərlə görüşərkən "Qarabağı biz aldıq, Araratı ("Ağrı"nı) sizə buraxdıq" demişdi. Türkiyəyə qarşı ərazi iddiası irəli sürən erməni prezident elə bu günlərdə utanmazcasına Ankaraya sərhədləri açmaq çağırışı etdi. Hətta bildirdi ki, Azərbaycanla bağlı hər hansı bir şərt irəli sürmədən iki ölkə arasındakı sərhəd qapıları açılmalı, münasibətlər bərpa edilməlidir. Bu, bir erməni fitnəsi, Bakı ilə Ankaranı bir-birindən ayırmaq, iki qardaşın arasını vurmaq cəhdidir.

Şübhəsiz ki, Kəlbəcərin işğalından sonra Ermənistana qapısını qapayan qardaş ölkə bu çağırışı saya salmayacaq. Elə Ərdoğanın Xocalı bəyanatı da Sərkisyanın çağırışına cavab oldu. O da bəllidir ki, Ermənistan nə Qarabağı azad edən, nə də Türkiyəyə qarşı ərazi iddialarından əl çəkən deyil. Belə olan təqdirdə ən ideal variant iki qardaş ölkənin birgə fəaliyyət göstərib yalançı "soyqırım" təbliğatı aparan Ermənistanın Xocalıda törədilən vəhşiliklərə cavab verməsinə nail olmaqdır.

Xocalıda baş verənləri dünyaya çatdırmaq üçün arxivə baş vurmağa gərək yox, elə şahidlərin dedikləri yetərlidir, video-foto faktlar öz yerində. Hansı ki, Xocalı soyqırmını Serj Sərkisyan özü də araşdırmaçı Tomas de Vaala etiraf edib. Sitat: "Xocalıya qədər azərbaycanlılar bizimlə sadəcə zarafat etdiklərini düşünürdülər. Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Bütün bu düşüncələri dəyişmək lazım idi. Belə də oldu".

Bəlkə də bu etiraflar Sərkisyanın ömrü boyu Azərbaycana və elə Türkiyəyə ən böyük xidmətidir. Türkiyəyə qarşı olmayan hadisələrə görə iddialar irəli sürənlər və onlara dəstək verənlər kor gözləri ilə oxusun, kar qulaqları ilə eşitsinlər: Xocalı soyqırımını Ermənistanın prezidenti də etiraf edib! "Erməniləri bezdirən" Xocalının yer üzündən silindiyini təsdiqləyib. Elə isə dünyanın Xocalı soyqırımını tanımaqdan imtinası üçün heç bir əsas ola bilməz!

Əslində Sərkisyanın bu etirafı hər yerdə iri hərflərlə yazılmalı, bütün tribunalardan deyilməli, düşmənə öz sözü ilə cavab verilməlidir. Türkiyə və Azərbaycan Tomas de Vaalın həmin "Qara Bağ" kitabını dünyanın bütün aparıcı dillərinə tərcümə edib yaymalıdır ki, dünya Xocalı soyqırımının iştirakçısı olan cani prezidenti yaxşı tanısın və onun "erməni soyqırımı", ya da Qarabağ iddialarının əsassız olduğunu bilsin.

YENİ MÜSAVAT
N 45 (6934) 26 fevral 2018



# Serial davalar(ı)

**Samir SARI**

**Son günlər sosial şəbəkədə maraqlı statuslar yayılır, yazırlar ki, bir rejissor var, onun serialını tənqid edən jurnalistləri, ictimaiyyət nümayəndələrini şəxsi söhbətə, ayırdetmə proseduruna çağırır.**

Bilmirəm gənc rejissorun çağırışına gedənlər olurmu, olmurmu. Hərgah gedən olsaydı, düşünürəm, bu barədə xəbərlər ya "media yenilikləri" bölümündə ("Gənc jurnalist döyüldü - şok"; "Rejissor və jurnalist əlbəyaxa oldular - ilginc səbəb"; "Reportyor rejissordan üzr istədi - "Düz etməmişəm") çıxardı, ya da "kriminal xəbərlər" rubrikasında: "Rejissor şou-biznes yazarını bıçaqladı - "Ortada kişilik söhbəti vardı"; "Məşhur serialın rejissorunun amansızcasına döyülməsinin pərdəarxası"; "Serial rejissoru qəzeti yazarını niyə öldürmək istədi? - sensasion təfərrüat" və s.

Hiss olunur ki, söhbət hələ bu müstəviyə çıxmayıb. Görünür, gənc rejissor ya telefon nömrəsi qoyub, rus demişkən, "razborka"ya çağırdığı adamların cavab zənginə məhəl qoymur, ya da hər kəs, türkün sözü, tırsır, rejissorun qabağına çıxmaq istəmir.

Əslində, heç lazım da deyil. 18-ci, 19-cu əsrin duellərindən kim xeyir tapdı ki? Ara yerdə "Rusiya poeziyasının günəşi"ni - Puşkini dueldə öldürdülər, Lermontov gənc yaşında güdaza getdi və s.

Kim bilir, bəlkə bizim hirsli gənc rejissorumuz da gələcəkdə şedevr seriallar, filmlər çəkəcək, bu gənc yaşında niyə "qədeşvari razborka"ların qurbanı olsun? Gəncdir, beyni qandır, gedər davaya, çağırışa gələn də arıq jurnalist olmaz, keçmiş taekvondoçu olar, dabanını havaya qovzayıb iki zərbəylə məsələni həll edər. Ola bilər ki, bu zərbələrdən sonra gənc rejissor heç xəstəxanaya-filana düşməsin, amma elə bir sarsıdıcı zərbə alsın ki, özünü toparlaya bilməsin, əksər seriallardakı kimi amneziyaya düçar olsun.

Ümumiyyətlə, seriala görə dalaşmaq, söyüşmək havayı işdir. Hər zəif seriala görə dava düşsəydi, qardaş Türkiyənin sənət camiəsində qan su yerinə axardı. Çünki il-ildən seriallar zəifləyir, bir-birini təkrarlayır, hətta 4-5 bölümdən sonra bir çoxunun istehsalı dayandırılır. Deyirlər, "reytinq qurbanı oldu".

Camaat da artıq seriallara kütləvi şəkildə baxmır. O "Kurtlar vadisi"ydi, "Aşki-memnu"ydu, "Möhtəşəm yüzil" idi, əksər tamaşaçılar oturub baxır, zövq alır, tarixin və müasir həyatın gerçəkliklərini öyrənirdilər. O cür uğurlu seriallardan sonra dəb oldu, indi tapançasız, "yasaq aşksız" serial çəkilmir. Hamısında bütün personajları növbəylə girov götürürlər, hamı növbəylə xəstəxanaya düşür, növbəylə göz altına alınır və s.

Artıq Türkiyə tarixində adı çıxmış hər kəs haqqında serial çəkirlər. 36 sultanın 10-15-i barədə artıq seriallar və ya serial bölümləri çəkilib, yerdə qalanları haqqında da çəkilər, əl-əlbət. Yəqin ki, İstanbulu ingilislərə satan və İngiltərə donanmasına aid gəmiylə Türkiyədən qaçan sultan Vahdətdin də qıraqda qalmaz, onu da xalqa "böyük dövlət adamı" təqdim edərlər.

Xüləs, səltənət-respublika polemikasına çox girməyək, öz seriallarımızdan bəhs edək.

Baxanlar deyir ki, 5-6 il əvvəllə müqayisədə bu sahədə pis-yaxşı tərpəniş var. Əlbəttə, heç olmamasındansa, zəif də olsa, nəsə olması yaxşıdır. Hərçənd fərqli fikirdə olanlar da deyir ki, belə əttökən seriallardansa, heç olmaması daha yaxşıdır. Guya ki, götürülmüş mövzu zəif və trivialdır, aktyor oyunu bərbaddır, rejissor işi sıfırdır, dialoqlar əcaibdir və s.

Göründüyü kimi, mübahisəli mövzudur. Adamın vaxtı, həvəsi ola, hövsələsi çata, əti tökülməyə, oturub özü baxa, qiymət verə. Yoxsa hansısa serial barədə ağızdan-ağıza eşitməklə ortaya normal tənqidi yazı qoymaq olmaz.

Üstəlik, belə edəndə adamı "razborka"ya çağırırlar, deyirlər, bomba oğlansan, gəl filan daldabasar yerə, yazdığın tənqidə görə cavab ver. Adamlar da məcbur olurlar duelə çağırana cavab yazsınlar ki, gəlməyən peysərdir, elədir, belədir.

Görürsünüzmü, necə də yüksək səviyyəli intellektual polemika gedir. Belə ortamda, əlbəttə ki, serial sektoru əvvəl-axər inkişaf edəcək. Sadəcə, ona qədər neçə rejissorun, jurnalistin, facebook fəalının ağzı-burnu dağılacaq, neçəsi kəsici-deşici alətlərlə yaralanacaq, bilinmir.

"İncəsənət qurban tələb edir" kəlamını kim demişdi? Həmin söhbət yetişib, kiminsə ağzı cırılacaq.

# İlqar Məmmədov üçün kritik həftə

## REAL sədri ilə bağlı məsələ, nəhayət, çözüləcəkmi...

**Həbsdə olan REAL sədri İlqar Məmmədov müəmması bu həftə çözülə bilər. Belə ki, vicdan məhbusu sayılan dustaqla bağlı Avropa İnsan Haqları Məhkəməsinin Azərbaycan hökumətinə göndərdiyi sorğuya verilməli olan cavabın vaxtı martın 1-də bitir.**



Rəsmi Bakının Avropa Məhkəməsinin sorğusuna cavab verib-vermədiyi hələ ki məlum deyil. Azərbaycan tərəfinin üç ay vaxt qazanaraq, bu müddət ərzində REAL sədrini ya əfvlə, ya da amnistiya yolu ilə azadlığa buraxa biləcəyi də iddia olunur.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa ölkəmiz üçün neqativ durumun yarandığını düşünür. O hesab edir ki, 11 apreldəki növbədənkənar prezident seçkiləri öncəsi xoşagəlməyən proseslərin baş verməməsi üçün rəsmi Bakı sorğuya cavab verməlidir: "Açığı, Avropa Şurasında bu məsələ ilə bağlı Azərbaycanı ciddi problemlər gözləmir. Çünki fərdi məsələyə görə hər hansı bir şəkildə təzyiq forması düşünülmür. Amma hər halda müəyyən neqativ durum ortaya çıxa bilər. Ona görə də, ümid edirəm ki, martın 1-ə qədər bu cavab veriləcək. Ən azından münasibətlərin pozulmaması baxımından bu edilməlidir. Bu istiqamətdə artıq hökumət nümayəndələri tərəfindən açıqlamalar da olub. Məhz buna görə düşünürəm ki, normal cavab veriləcək və bu məsələ öz həllini tapacaq. Çünki bu, Azərbaycan üçün heç də xoş olmayan bir durum yaradır. Ən azı, imic baxımından müəyyən problemlər ortaya qoyur. Amma bunu yüz faiz söyləmək çətindir. Sadəcə, bunu edəcəklərinə ümid edirəm. Azərbaycan tərəfi mümkündür ki, 3 ay vaxt istəmə kimi imkanlarından yararlansın. Amma fikrimcə, bu məsələyə artıq nöqtə qoymaq lazımdır. Prezident seçkiləri ərəfəsidir. Bu ərəfədə Azərbaycana əlavə ittihamların səslənməməsi üçün iqtidar hamıdan çox maraqlı olmalıdır".

İ.Məmmədovun vəkili Fuad Ağayev isə musavat.com-a bunları deyib: "Müraciətə cavab verilib-verilmədiyini deyə bilmərəm. Burada qayda belədir. Avropa Məhkəməsinin reqlamentinə uyğun olaraq, vaxt verilən sonra tərəflər öz mövqelərini ifadə edirlər və Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edirlər, yaxud da etmirlər. Həmin müraciət də Avropa Məhkəməsi tərəfindən digər iştirakçılara daxil olur . İstənilən halda, hər bir tərəfin martın 1-ə qədər vaxtı var. Bu müddət ərzində müraciət oluna bilər. Bilirsiniz ki, bu cür iş Avropa Məhkəməsi daxilində ilk dəfədir. Demək, hansı müddətdə hökumətin cavab verdiyinin bizə məlum olmasını söyləmək çətindir. Düşünürəm ki, bu tip işin ilk dəfə olduğunu nəzərə alaraq, hər halda martın ilk on günlüyündə məlumat çıxarılacaq. Azərbaycan tərəfinin sorğuya cavab verməyəcəyi təqdirdə nələrin baş verəcəyini proqnozlaşdırmaq istəmirəm. Avropa Məhkəməsi tərəflərə vaxt verib. Kimsə cavab verdi, kimsə vermədi, nələrin olacağını demək çox çətindir".

REAL-ın idarə heyətinin üzvü Azər Qasımlı öz növbəsində Azərbaycan hökumətinin cavab verməyəcəyinə inanmır: "Martın 1-də vaxtın bitməsi o anlama gəlmir ki, Azərbaycan tərəfi cavab verməyib. Bəlkə də cavab verib, amma açığı, buna inanmıram. Çünki Avropa Məhkəməsinə o cavab göndərilsəydi, ən azından xarici vəkil məlumatlı olardı. Bildiyiniz kimi, İlqar Məmmədovun işini xaricdə britaniyalı vəkil aparır. Məhz bu məsələ ilə bağlı həmin vəkil Avropa Məhkəməsində dinləmələr və başqa prosedurlar həyata keçirilsə, onun hüquqlarını müdafiə edəcək. O məlumat tutmuş olsaydı, təbii ki, bizlərin də xəbəri olardı. Hələ ki bizdə belə bir məlumat yoxdur. Bu da onu deməyə əsas verir ki, böyük ehtimalla, hökumət hələ öz mövqeyini bildirməyib. Martın 1-ə qədər çox güman ki, cavab veriləcək. Azərbaycan tərəfi əlavə olaraq, Avropa Məhkəməsindən üç ay vaxt da istəyə bilər. Bildiyiniz kimi, Avropa Parlamentinin Bürosu bir neçə ay bundan əvvəl Avropa Məhkəməsinə bir çağırış etmişdi ki, İlqar Məmmədovun işi ilə bağlı qərarı tezləşdirsinlər. Bu baxımdan vaxtın uzadılması ilə bağlı müraciətin ediləcəyini düşünmürəm. Görünən odur ki, martın 1-nə qədər hökumət İlqarın işi ilə bağlı mövqeyini bildirəcək. Sonra da yaxın üç ay ərzində Avropa Məhkəməsi qərarını verəcək - təbii ki, o vaxta qədər İlqar Məmmədov azadlığa çıxmasa. O ehtimal da var ki, hökumət üç ay vaxt istəsin və qəbul olunacağı gözlənilən amnistiya ilə onu azadlığa buraxsın. Avropa Məhkəməsində hər ölkədən olduğu kimi, Azərbaycandan da ölkəni təmsil edən hakim var. Bunu ona görə deyirəm ki, İlqar Məmmədovla bağlı gözlənilən qərar verilər-verilməz Azərbaycan tərəfin bundan xəbəri olacaq. O qərarı qabaqlayıb, buna uyğun da qərar qəbul edə bilərlər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Azərbaycanda nadir hadisə: uşağın gözlərinin biri göy, digəri qaradır

**Tovuzda yaşayan 6 yaşlı qız gözlərinin rəngləri ilə bir çoxlarının marağına səbəb olub. Onun gözlərinin biri göy, digəri isə qara rəngdədir.**

Zəhra Əliyeva doğularkən gözləri fərqli rəngdə olub. Gözlərinin rəngləri fərqli olsa da, uşağın görməsində indiyə qədər heç bir problem olmayıb. Buna baxmayaraq, uşağın 13 yaşından sonra təkrar müayinə olunması məsləhət görülüb. Zəhranın valideynləri deyirlər ki, indiyə qədər nəsillərində belə hala rast gəlinməyib. İlk dəfə Zəhranın göz rəngində müşahidə etdikləri fərq dünyada da nadir hadisə sayılır. Onun şəxsiyyət vəsiqəsində də gözlərinin rəngi göy və qara yazılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 45 (6934) 26 fevral 2018

**Bu gün Azərbaycanın qədim yaşayış məskənlərindən olan Xocalıda erməni vəhşilərinin törətdiyi soyqırımın 26-cı ildönümüdür. Bəşəriyyət əleyhinə bu cinayətdə mühüm detallardan biri soyqırımda Rusiyanın da Xankəndindəki 366-cı motoatıcı alayla iştirak eləməsidir.**






# Qarabağ üçün yeni sülh formulu: "unudulmuş köhnə", yoxsa...

## Danışıqlar prosesi üç ölkədəki prezident seçkisindən sonra canlanacaq - iddia; Azərbaycanın ən böyük güzəşti isə çoxdan məlumdur; **politoloq:** "Ermənilər Azərbaycan Ordusunun haçansa hücuma keçəcəyini bilirlər..."

Sanki tarix 100 il öncəki kimi yenə təkrarlanır, Köhnə müttəfiqlər - Rusiya və onun Cənubi Qafqazdakı əlaltısı və maşası Ermənistan öz ənənəvi missiyasını davam etdirir. Ən absurdu isə məhz Rusiyanın - Dağlıq Qarabağ konfliktinin körükləyicisi və Xocalı soyqırımında əli olan bir ölkənin Dağlıq Qarabağ probleminin həllində ədalətli vasitəçiliyə iddia eləməsidir.

Halbuki, bu rola o, dünyada ən axırıncı uyğun gələn dövlətdir. Ona görə ki, Qarabağ münaqişəsində, onun uzanmasında birbaşa marağı var, konfliktdə tərəfdir, tərəfsiz yox. Ermənistanla faktiki, işğal ortağıdır. Regionda legitim hərbi bazaları da məhz işğalçı Ermənistanın ərazisində yerləşir. Belə bir ölkə necə qərəzsiz vasitəçiliyə iddia edə bilər?

Bununla belə, problemin həlli də yenə Rusiya faktoru ilə bağlı olaraq qalır. Bəs, proqnozlar nə deyir, Rusiya, Azərbaycan və Ermənistanda təxminən eyni vaxta təsadüf edən prezident seçkilərindən sonra nəhayət ki, "yük" yerindən tərpənəcəkmi? Bəzi şərh və gözləntiləri diqqətə çatdırırıq.

*****

"Hesab edirəm ki, seçkilərdən sonra bu il Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar intensivləşdiriləcək". Bunu rusiyalı tanınmış politoloq, Rusiya Siyasi Araşdırmalar İnstitutunun baş direktoru Sergey Markov deyib. Onun sözlərinə görə, danışıqlar əvvəlki kimi Madrid prinsipləri əsasında aparılacaq.

Markov bu xüsusda iki il əvvələ gedərək, 2016-cı ilin sonunda danışıqların, deməkolar ki, nəticə verdiyini bildirib. "O vaxt nikbinlik çox böyük idi, lakin çıxış yolu tapılmadı", - deyə o qeyd edib və əlavə edib ki, həmin danışıqlara qayıtmaq olduqca vacibdir: "2016-cı ildə danışıqların alınmamasına radikal erməni diasporunun təzyiqi səbəb oldu. Belə ki, onlar Ermənistan üzərindəki təsir qüvvələrini itirəcəklərindən qorxurdular".

Politoloqun fikrincə, ATƏT-in Minsk Qrupunda aparıcı rolu hələ ki, Rusiya oynamaqda davam edir: "ABŞ və Fransa bu formatda Rusiya ilə münaqişə yaşamır, hərçənd başqa məsələlərdə gərginlik var. Bu, ABŞ və Fransanın belə sülhsevər təşəbbüsləri dəstəklədiyi xüsusi unikal haldır".

Göründüyü kimi, cənab Markov Qarabağ məsələsinin üçün həll formulu olaraq "unudulmuş köhnə"ni təklif edir. Lakin təəssüflər olsun ki, üç həmsədr ölkə arasında Dağlıq Qarabağla bağlı "unikal həmrəylik" olsa da, problem illərdir yerindən tərpənməmiş qalır. Bu da ilk növbədə Rusiya faktoruna gedib dirənir. Niyə?

Fakt budur ki, Moskva konfliktin həllində real dönüşü arzulamır. ABŞ və Fransa timsalında Qərb, Avropa Birliyi isə əksinə, münaqişənin tezliklə tarixin verilməsində maraqlıdır. Çünki o halda bir yandan, Rusiyanın regionu qarışdırmaq, Azərbaycanla Ermənistanı basqı altında saxlamaq imkanı olmayacaqsa, ikinci yandan, Qərbin bölgəyə iqtisadi nüfuzu güclənəcək, regionda iqtisadi çiçəklənmə, qarşılıqlı inteqrasiya başlayacaq, Avropaya ünvanlı strateji əhəmiyyətli neft-qaz kəmərləri və nəqliyyat arteriyalarının təhlükəsizliyi möhkəmlənəcək, Qərbin regiona sərmayə yatırımı güclənəcək.

Yekun etibarilə, Rusiya bölgədən sıxışdırılmış olacaq. İndi məntiqlə Rusiya bu və digər səbəbdən konfliktin həllində maraqlı deyilsə, demək, üç həmsədr dövlətin arasında hansısa həmrəylikdən danışmaq da mümkün deyil. Ümumiyyətlə, Dağlıq Qarabağ ixtilafının həllinə əsas əngəl dövlət bəllidir: bu, işğalçı Ermənistan yox, onun 1 nömrəli havadarı və işğal ortağı Rusiyadır.

Lakin böyük sülhü əlçatmaz edən təkcə Rusiya amili də deyil, eyni zamanda, digər iki həmsədr dövlətin işğalçıya qarşı gizli-açıq xristian təəssübkeşliyidir. Konfliktin həllinə beynəlxalq hüququn, Qarabağa dair BMT qətnamələrinin tətbiqində yol verilən ikili standart yanaşmasıdır. Yoxsa ki, fövqəlgüclər BMT Təhlükəsizlik Şurası qətnaməsinin icrasını bir neçə günün içində təmin ediblər.

Di gəl, erməni işğalına gələndə Azərbaycandan da güzəşt istəyirlər. Heç bir ölkəyə, o cümlədən saxta Ermənistan dövlətinə ərazi iddiası olmayan Azərbaycan işğalçıya nəyini güzəştə getməlidir? Erməni işğalçılarının etnik təmizləmə apardıqlarıqanuni ərazisinimi?

Azərbaycanın ən böyük güzəşt öz suveren ərazisinin 20%-nin işğalına bunca dözüm göstərməsidir - o amacla ki, təcavüzkar dinc yolla ram ediləcək və sülhə gətiriləcək. Bundam ötrü vasitəçi ölkələrlə yanaşı, regionun iri dövlətlərinin də konfliktə münasibətdə ədalətli mövqe tutması vacibdir. Qardaş Türkiyənin məsələyə yanaşması çoxdan məlumdur. Ankara Bakının, ədalətin, ədalətli sülhün yanındadır.

Əfsuslar olsun ki, cənub qonşumuz - "dindaş və qardaş" İran Türkiyə kimi deyil, Rusiya kimi mövqe sərgiləyir, müsəlman Azərbaycanın 20% ərazisini işğal eləmiş, 1 milyon müsəlmanı qaçqın vəziyyətə salmış təcavüzkarla hərtərəfli yaxınlaşmaq siyasəti yürüdür. Münaqişənin uzanmasının bir səbəbi də budur - İran amili. Halbuki, Ermənistandan fərqli olaraq, Azərbaycan İran üçün qat-qat vacib, potensial strateji tərəfdaş ölkədir. Bunu qlobal əhəmiyyətli "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə bağlı ortaq layihə bir daha sübut edir.

*****

"Türkiyənin Azərbaycana olan münasibətinin eynisini İrandan tələb etməyə haqqımız var". Bu sözləri Axar.az -a açıqlamasında sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Politoloqun sözlərinə görə, Azərbaycan indiki dönəmdə İranla daha çox ticarət əlaqələrini inkişaf etdirməlidir.

"Azərbaycan İran üçün çox böyük həyati əhəmiyyətə malik olacaq "Şimal-Cənub" dəmir yolu layihəsinin reallaşmasına böyük köməklik göstərir. Hətta Astara çayı üzərində körpü ortaq tikilməli olduğu halda, Azərbaycan bu işi təkbaşına yerinə yetirdi və 40 milyon dollardan çox vəsait xərclədi. İndi isə Bakı İrana çox cüzi faizlə yarım milyard dollar vəsait verir ki, Tehran Astara-Rəşt dəmir yolunun inşasını sürətlə başa çatdırsın. Bütün bunlar çox önəmli məsələlədir", - deyə ekspert qeyd edib.

Politoloq bildirib ki, İran Şimal-Cənub dəmir yolu layihəsindən Azərbaycandan daha çox gəlir əldə edəcək. "Bakı bunun əleyhinə deyil, dövlətlər əməkdaşlıq edir və bundan da öz bəhrələrini götürürlər. Məsələ burasındadır ki, Azərbaycan həm də quru yolları ilə İranı Rusiya və Avropa ilə birləşdirir. Azərbaycan hətta sanksiyalar dövründə də İranla ticarət əlaqələrini dayandırmadı. Tehran Bakının bütün bu jestlərini nəzərə almalıdır və unutmamlıdır ki, bizi tarixi köklər, mədəniyyət birliyi, hətta orada yaşayan azərbaycanlıların timsalında dil birliyi birləşdirir. O üzdən də hesab edirəm ki, bir çox əlamətlərə görə, Türkiyənin Azərbaycana münasibətinin eynisini İrandan da tələb etməyə haqqımız var" - politoloq bildirib və əslində Azərbaycanın müsəlman toplumunun müsəlman İrandan əsas gözləntisini dilə gətirib.

Analitik hesab edir ki, Ermənistan gec-tez danışıqların uğursuzluqla bitəcəyini və Azərbaycanın müharibəyə başlayacağını bilir: "İrəvan onu da anlayır ki, danışıqlarla hədəflərinə nail ola bilməyəcək. Çünki Azərbaycan Dağlıq Qarabağı ermənilərə güzəştə getməyəcək. Bu baxımdan ermənilər Azərbaycanın ordu quruculuğu və döyüş hazırlığı sahəsində ciddi surətdə irəlilədiyini görürlər. Ona görə də aprel döyüşlərinin təcrübəsindən çıxış edərək hazırlıqlara başlayıblar. Ruslar da geniş surətdə işğalçıya yardım edir. Deməzdim ki, Ermənistan hücum əməliyyatlarına hazırlaşır. Ermənilər Azərbaycan Ordusunun haçansa hücuma keçəcəyini bilir və daha çox müdafiəyə hazırlaşır".

Q.Hüseynli son günlər Ermənistan ərazisindən Dağlıq Qarabağa gələn qoşun hissələrinin sayının xeyli artdığını söyləyib: "Xüsusən də ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbərinin aprel hadisələrindən sonra Cənubi Qafqaz bölgəsində Ermənistan-Azərbaycan savaşının güclənə biləcəyinə dair proqnozundan sonra Rusiyadan da bu tipli mesajlar sürətlə tirajlanmaqdadır. Rusiyada müəyyən dairələr hazırda Ermənistanı qızışdırmaq xətti tutublar. Görünür, müharibə haqqında danışıqlar çoxaldıqca ermənilər ciddi şəkildə narahat olurlar..."

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Millətin ağrısına tüpürənlər

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Allah Markın evini tiksin... demək istərdim. Amma son dönəmlər onun yaratdığı sosial şəbəkənin verdiyi imkanlar sayəsində kimlərinsə özünü div aynasında gördüyünü müşahidə edib, alqışımı qarğışa keçirmədən sadəcə susuram. Canlı yayım imkanlarıdır çoxunun qoltuğuna qarpız verən.**

Adamlar otururlar telefonun qabağında və özləri ağılda olan bir neçə nəfəri də qoşurlar canlı yayıma. Başlayırlar bütün millətə ağıl verməyə, mübarizə dərsi keçməyə. Özü də bunu əsasən tas-darağını yığıb, hansısa yollarla xaricə gedənlər edirlər. Ölkədə hansı "qəhrəmanlıqları" etdiyi bəlli olmayan bu təbəqə elə cəsarətlə, elə bir daxili inamla insanlara ağıl verirlər ki, düşünürsən, yəqin hamımız elliklə buna borcluyuq, yaxud bu, mürşiddir, biz bunun müridləri...

Mən beləlri haqqında söz deməyə, tənqid yazmağa o qədər özümdə daxili haqq tapıram ki. Çünki əksəriyyətinin üzünü yaxşı görmüşəm. Avropanı qarış-qarış gəzmişəm onları tapmaq, tanımaq və danışdırmaq üçün. Ölkədə olanda mitinqlərə sırf şəkil çəkdirmək və öz dosyesini hazırlamaq üçün qatılanlar sərhədi adlayan kimi şirə-aslana çevrilirlər. Məlum olur ki, burda istibdad onları divara dirəyibmiş, mübarizələrini istədikləri kimi həyata keçirə bilmirlərmiş və... Bütün bunların fonunda isə Azərbaycanda qalıb, həyatını davam etdirənləri var gücləri ilə tənqid edirlər. Burdakılar qorxaqmış, cəsarətsizmiş, mübarizəni apara bilmirlərmiş.

Bütün bunları qoyaq bir kənara. Mən hətta saxta yolla mühacirətə gedib, almanın, isveçin, fransalının boğazından kəsilib verilən müavinətlə dolandığı halda, bura barmaq silkələyənləri də müəyyən qədər həzm edə bilərəm. "Şapalaqla üz qızardır" deyərəm, "arından sakit dayanmır" düşünərəm... Amma sırf hakimiyyətə müxalif olmaq adına (guya) erməniyə dayı deməyin nə lüğətdə, nə məntiqdə heç bir adı yoxdur. Adını belə çəkib, yazımı çirkləndirmək istəmədiyim biri bu günlərdə ermənilərin işğal etdikləri ərazilərdə mədəniyyət abidələrinə toxunmadığını iddia edir. Düşünün, qəzetlərin, saytların bir tərəfində Xocalı faciəsində ailəsini itirənlərin dramı, tükürpədən hekayələri yer alır, digər tərəfdə belələrinin iddiaları. Bu günə qədər küçə söyüşləri ilə hökuməti tənqid edənlər birdən-birə alimə çevriliblər, xəbərimiz yoxdur. İsmi-cismi, adı-sanı dünənə qədər məlum olmayan biri bir günün içində müxalifətçi bloqqer olub. Müxalifət biz jurnalistlərin gözü qabağında olubsa, biz niyə bunun kimilərini bu illər ərzində tanımamışıq? Nə mübarizədə, nə digər sektorlarda. Ümumiyyətlə, söyüş söymək nə vaxtdan mübarizə aparmaq forması olub?

"Fevralın 28-də mən də içində olmaqla 18 nəfəri seçib dəyişmək adı ilə Xocalıya apardılar. Xocalıya girəndə körpünün yanında yanacaqdoldurma məntəqəsi var idi. Gördük əlləri bağlı insanları üst-üstə yığıblar. Uşaq, böyük, yaralı, salamat insanların ah-naləsi yerə-göyə sığmırdı. Belə mənzərəni yalnız filmlərdə görmüşdüm. Ermənilər yanacaqdoldurma məntəqəsindən benzini çəkib insanlara od vurdular. Qadınların, körpələrin haray dolu qışqırığı bu gün də qulağımdadır. İlahi, heç kimə yaşatma bu dərdi..." 48 gün erməni əsirliyində qalan, olmazın işgəncələrə tab gətirən Qədim Abbasov danışır bunları. Bütün media bu günlərdə belə hekayələrlə doludur. İşgəncə dolu xatirələr. Və sən bu ağrının məsştabını həzm etməyə çalışdığın bir anda söyüş söyməklə ad çıxaran birisi minlərlə, milyonlarla insanın kədərini təhqir edir, acısına tüpürür. Mənə çox maraqlıdır, bundan sonra da insanlar belə birinin dediklərindən eyforiyaya düşüb, siyasi ekstaz yaşayacaqlar?

Bir insanın iç üzü ya davada, ya pullananda bilinir. Bu sözləri demək üçün dava mühiti yox idi. Ancaq erməni lobbisinin maliyyələşdirdiyi mənbələrdən pay alan birisi öz soydaşlarının mənafeyinə bu cür tüpürə bilər. Halbuki bu günlərdə.... Tanıdığı, tanımadığı bütün mühacirləri bəlli bir məkana toplayıb, Xocalı faciəsinin ildönümü münasibətilə böyük bir etiraz aksiyası keçirə bilərdilər. Bir gün, ildə bir gün böyük bir heyətlə bir araya gəlmək üçün xüsusi bir manee olmamalıdır. İş-güc desəniz? çoxu işləmir, pul desəniz, əksəriyyəti müavinət alır və nəqliyyat xərclərini ödəyəcək qədər pulları olur. O zaman nə? Klaviatura qəhrəmanlığı?

Bəzi dil pəhləvanlarını sektordan qovmaq üçün xüsusi bəhanələr gözləməyə gərək yox. Millətin dərdinə dil uzadan gündən... onları sıfırlamaq lazımdır. Necə ki, onlar içlərindəki ülvi hissləri sıfırlayıblar.



# ABŞ İsraili ərəb ölkələri ilə üz-üzə qoyur

## Amerika səfirliyinin 14 mayda Qüdsə köçürülməsinin neqativ nəticələri ola bilər

**ABŞ administrasiyası ölkə səfirliyini Təl-Əvivdən Qüdsə köçürmə qərarını 14 may tarixində həyata keçirəcək. Bu isə İsrailin qurulmasının bəyan edildiyi günün 70-ci ildönümünə düşür. Bu barədə İsrailin nəqliyyat və kəşfiyyat naziri Yisrael Katz bildirib. "Bundan böyük hədiyyə yoxdur. Çox ədalətli və ən doğru həmlədir. Sağ ol, dost", - deyə o qeyr edib. ABŞ rəhbərliyi də bu faktı təsdiqləyib.**

Bəs, ABŞ həqiqətən də səfirliyini mayın 14-də Qüdsə köçürsə, bu hadisə hansı nəticələr verə bilər? Donald Tramp Qüdsü İsrailin paytaxtı olaraq tanıyan qərarı qəbul edən zaman səfirliyin iki il ərazində köçürüləcəyi bildirilmişdi. Məsələnin indi bu qədər tezləşdirilməsinin arxasında hansı niyyətlər dayana bilər? Səfirliyin may ayında köçürülməsinin təxirə salınması gözlənilərdimi?

Politoloq Elşən Mustafayev xatırlatdı ki, ABŞ-ın İsraildəki səfirliyini Qüdsə keçirmək istəməsi ilə bağlı Donald Trampın verdiyi ilk açıqlama regionda çaxnaşma yaradıb: "O zaman Trampın bu qərarı sona qədər icra etməyəcəyi ilə bağlı da fikirlər söylənilirdi. Bəzi ekspertlər isə bunu seçkiöncəsi yəhudi lobbisinə verilən sözün nəticəsi olaraq görürdü və ciddi müqavimət olmayacağı halda həyata keçə biləcəyini də söyləyirdilər. Qüds 3 dinin özü üçün müqəddəs hesab etdiyi şəhərdir. Ona xüsusi status vermək əvəzinə bu şəkildə davranmaq qarşıdurmaları, düşmənçiliyi daha da artırmağa xidmət edəcək. Düşünürəm ki, aradan bir neçə ay keçəndən sonra yenidən bu məsələnin aktuallaşması, konkret vaxtın göstərilməsi növbəti dəfə region dövlətlərinin bu məsələ ilə bağlı dözümlülüyündə nəbzlərini bir daha yoxlamağa hesablanıb. Əslində ABŞ-a hal-hazırda həmin regionda növbəti qaynar nöqtə yaratmaq sərf etmir. Əgər ərəb dövlətlərinin əksəriyyəti bu addıma qarşı çıxsalar, regionda ABŞ-ın siyasi və hərbi mövcudluğuna sağalmaz zərbə dəyə bilər. Digər məsələlərdə birləşmə imkanları aşağı olan ərəb dövlətlərinin bu məsələdə rahat birləşmə imkanları yaranar. Livan hakimiyyətinin bir qoluna rəhbərlik edən "Hizbullah" artıq məsələ ilə bağlı kəskin mövqeyini ortaya qoyub və onların digər hakimiyyət ortaqları - sünni, xristian, ortodoks partiyalar da İsrailə qarşı olacaqlarını bildiriblər. Bu hələ 4 milyon əhalisi olan bir dövlətdə yaşanan narahatçılıqlardır. Qalan ərəb dövlətləri də buna qarşı açıq savaş açarasa, ilk növbədə İsrail çətin vəziyyətdə qalacaq".

Politoloqun fikrincə, ortada olacaq müqavimətin səviyyəsindən asılı olaraq ABŞ səfirliyin may ayında Qüdsə köçürülməsi qərarını sonrakı vaxtlara təxirə sala bilər. Amma ümumilikdə, paytaxt köçürmə qərarını hələ ki, dəyişməyəcək: "Bu addımla da regionu gərgin vəziyyətdə saxlayacaq. Məsələnin daha həssas tərəfi ABŞ-ın köçürülmənin İsrailin yaranmasının 70 illik ildönümü günündə etmək istəməsidir. Bilirik ki, o zaman razılaşmalara görə, İsrail dövləti yaranan vaxt Fələstin dövləti də yaranmalı idi, anacaq bu, olmadı və fələstinlilər o vaxtdan bu günə qədər bunun hesabını sorurlar".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# BMT-dən ikibaşlı Suriya qərarı - hədəf Türkiyə?

## 30 günlük atəşkəs haqda qərar Afrin əməliyyatına şamil olunacaqmı? Yerli ekspertlər "yox" deyir, ancaq...

**BMT Təhlükəsizlik Şurası Suriyada ən azı 30 gün müddətində atəşkəs elan olunması ilə bağlı qərar qəbul edib. Qərar layihəsinə əsasən, qarşıdakı 3 gün ərzində Suriya ərazisində humanitar yardımların çatdırılması, yaralıların və xəstələrin təhlükəli bölgələrdən çıxarılması üçün 30 günlük atəşkəs elan olunacaq.**



Qərar layihəsinin müəllifi Küveyt və İsveç hökumətləri olub. Layihədə göstərilib ki, atəşkəsin əsas məqsədi humanitar yardımların təhlükəsiz, maneəsiz və davamlı bir şəkildə çatdırılması, xüsusən də Şərqi Qutada xəstə və yaralıların təxliyəsini təmin etmək üçün tərəflər gecikmədən atəşi ən azı 1 ay dayandırmalıdır.

Qeyd edək ki, atəşkəs qərarında Suriyanın bütün əraziləri qeyd olunsa da, əslində söhbət Şərqi Quta bölgəsindən gedir. Dəməşqin yaxınlığında yerləşən bu kisik ərazi Suriyada silahlı toqquşmalar başlayandan bu yana silahlı müxaliflərin nəzarətindədir. Məntəqədə əsasən "Ceyşl əl-İslam" və Nusra Cəbhəsi silahlıları üstünlük təşkil edir. Ötən ay İdlibin cənubunda geniş miqyaslı əməliyyatlar həyata keçirən Suriya hökuməti keçən həftə qüvvələri Şərqi Quta ətrafına toplayıb və əraziyə hücum əməliyyatı başladıb. Son bir həftədə Şərqi Qutada hava zərbələri və atışmalar nəticəsində 400-dən çox insan ölüb, 2 mindən çox yaralı var. Görünən odur ki, Suriya hakimiyyəti əsas güclərin başı qarışdığı bir zamanda Şərqi Quta kimi kiçik, amma "başağrısı" olan bölgələri təmizləməyə qərar verib.

Ancaq məsələ ondadır ki, atəşkəs terror təşkilatlarını əhatə etmir. Yəni İŞİD, eləcə də əl-Qaidənin Suriya qolu hesab olunan "Nusra Cəbhəsi", "Əhrar əş-Şam" kimi və ya onlara bağlı terrorçu qruplara qarşı mübarizə davam edəcək. İndi isə əsas sual ondan ibarətdir ki, Şərqi Qutadakı radikal silahlı terrorçular bu atəşkəsə daxil olacaqmı?

Daha bir sual Türkiyənin Afrindəki antiterror əməliyyatları ilə bağlıdır. BMT TŞ-nin son qərarı bütün Suriya ərazisini əhatə edir. Yəni atəşkəs qanunla həm də Afrindəki əməliyyatlara da aid edilməlidir. Afrində Türkiyə ordusunun yanvarın 20-dən başlatdığı "Zeytun budağı" əməliyyatı isə davam edir. Bəs Türkiyə Afrin əməliyyatını dayandıracaqmı?

Türkiyədə yaşayan təhlükəsizlik və müdafiə sahəsində mütəxəssis Yusuf Alabarda "A xəbər" kanalına açıqlamasında bildirib ki, atəşkəslə bağlı qərarın mətnində bu atəşkəsin terror təşkilatlarını əhatə etmədiyi qeyd olunub: "Türkiyə "Zeytun budağı" əməliyyatının Afrində məskən salan PKK/PYD və İŞİD kimi terror təşkilatlarına qarşı başladıldığını hələ bir ay əvvəl bütün dünyaya elan edib. Yəni dolayısı ilə BMT TŞ-nin atəşkəs qərarı heç bir halda Türkiyə ordusunun Afrində apardığı anti-terror əməliyyatına təsir edə bilməz".

"Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Hasan Oktay isə "Yeni Müsavat"a verdiyi açıqlamada BMT TŞ-nin Suriyada atəşkəs qərarının Türkiyədə razılıqla qarşılandığını bildirdi. H.Oktayın fikrincə, bu qərar mülki əhaliyə qarşı həyata keçirilən bombardmanların dayanması və əhaliyə yardımın çatdırılması ilə bağlı problemi həll etmiş olacaq: "Türkiyə 30 günlük atəşkəsdən məmnundur. Orada mülki əhaliyə yardım çatdırılması və hücumların dayandırılması üçün atəşkəsə ehtiyac vardı. Eyni zamanda mülki əhaliyə qarşı hücumların dayandırılması və terrorçulara qarşı əməliyyatların davam etdirilməsi Suriyanın özünün ərazi bütövlüyünün təmini baxımdan əlverişlidir. Türkiyə dövləti də Suriya ilə bağlı mövqeyinə sadiqdir. Bu ölkədə sülhün əldə olunması və terrora qarşı mübarizənin aparılmasını müdafiə edir".

Hasan Oktay deyir ki, qərar Suriyada terror təşkilatlarına qarşı əməliyyatları nəzərdə tutmadığı üçün "Zeytun budağı" əməliyyatı davam edəcək.

Ancaq məsələ ondadır ki, qərar mətnində "terror təşkilatları" ifadəsi olsa da, konkret olaraq İŞİD, "əl-Qaidə" bağlantısı olan terror təşkilatlarının adı çəkilir. Və təbii ki, bu siyahıda YPG və ya PKK-nın adı yoxdur. Bu da PYD üçün fürsət yaradır. Bu səbəbdən ekspert şərhlərindən fərqli olaraq verilən siyasi qərarların və rəsmi açıqlamaları gözləmək lazım gələcək. Ehtimal etmək olar ki, qərar layihəsində, sadəcə Şərqi Quta deyil, bütövlükdə Suriyaya aid edilməsi məqsədli olmaqla Afrin əməliyyatının dayandırılması istəyi də gizlənir.

❑ Kənan RÖVŞƏNOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 45 (6934) 26 fevral 2018

# "Novruz sırf müsəlmanların bayramı olmayıb"

## Folklorşünas Atəş Əhmədli: "Kosa və Keçəlin pomadalı, kloun kimi səhnəyə çıxmasının əleyhinəyəm"



**Qarşıdan Novruz bayramı gəlir. Novruz bayramının gəlişi ilə kosa, keçəl personajları, papaqatdı kimi bir sıra adət-ənənələrin müzakirəsi yenidən gündəmə gəlib. Həmçinin, ilaxır çərşənbə ilə bayramın üst-üstə düşməsi də insanlarda çaşqınlıq yaradıb. Hətta buna görə Naxçıvan bölgəsində Boz ayın girdiyi gün, yeni fevralın 20-si ilk çərşənbə - Su çərşənbəsi kimi qeyd edilib.**

İnsanlarda sual yaradan bu kimi qaranlıq məqamlara aydınlıq gətirmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun Mərasim folkloru şöbəsinin böyük elmi işçisi, fəlsəfə doktoru Atəş Əhmədliyə müraciət etdik.

***- Novruz bayramının tarixinə nəzər salsaq, bunu sırf müsəlmanların bayramı adlandıra bilərikmi? Ümumiyyətlə, bu il bahar ölkəmizə nə vaxt qədəm qoyacaq?***

- Bunun astronomik əsası var. Yerin Günəş ətrafındakı hərəkəti məsələsi var, bu 365-366 gün olur ki, bunun da müxtəlif formalarda astronomik hesablamaları var. Yaz bərabərliyi nöqtəsi var ki, bu 23 dərəcə 27 dəqiqədir. Amma yuvarlaq götürülərək buna bəzi hallarda 23 dərəcə 30 dəqiqə də deyirlər. Çünki yerin quruluşu elips formasındadır. Ona görə də Günəşin ekvator kəsişmə nöqtələrindən keçdiyi günlərin də sayı fərqlidir. Məsələn, ekvator xəttinin birinci dövriyyəsi 186 gündür. 365 günü yarı bölsək 186 gündən sonra ilin başlanğıcı sayılır. İlin başlanğıcını da qədim dövrlərdə martın 21-dən götürüblər. Bizim eramızın 325-ci ilində Nikey kilsə məclisində Yuri Sezarın təqvimi əsas götürülür və 21 mart ilin başlanğıcı hesab edilir. Sonrakı dövrlərdə də bu əsas götürülüb. Biz deyirik ki, bu bayram yeni il kimi müsəlman dünyasının bayramıdır. Xeyr, qədim zamanlardan dünya üzrə belə hesablanıb ki, 21 mart Yeni ilin başlanğıcıdır.

***- Axır çərşənbənin bayramla üst-üstə düşməsi hadisəsi necə ildən bir təkrar olunur? İnsanlar axır çərşənbə ilə bayramı birlikdə qeyd etməlidir, yoxsa...***

- Bayram bəzən martın 20-nə, bəzən də 21-nə düşür. Axı fevral ayı da həmişə 29-dan olmur. 3 il 28 gün, 4-cü il isə 29 gündən ibarət olur. Bunun da məsələyə təsiri var. Hər ildən 5 saat 48 dəqiqə 46 saniyə yığılır. 4 dəfə bunu hesabladıqda bu 24 saat edir. Bu 24 saat 3- il ərzində yığılır və 4-cü ili fevral 29 gündən ibarət olur. Yəni bayramın axır çərşənbə ilə üst-üstə düşməsini heç kim müəyyənləşdirmir, bu sırf astronomik hadisədir. Bu il yaz fəsli ölkəmizə 20 mart saat 20:15:30 saniyədə daxil olacaq. Şamaxı rəsədxanasının alimi Xıdır Mikayılov dedi ki, bayramla çərşənbənin üst-üstə düşməsi heç bir əsas vermir ki, çərşənbələrin yeri dəyişilsin. Bu hesablamalar da səmanın birbaşa müşahidəsi əsasında aparılmış dəqiq hesablamalardır. Bilirsiniz ki, qış təqvimi xalq təqvimidir, bölgüləri xalq aparır. Bu il Boz ay fevralın 20-i çərşənbə axşamına düşdü və bunu Naxçıvanda su çərşənbəsi kimi qeyd etdilər. Bu da düzgün deyil. Bayramla axır çərşənbənin üst-üstə düşməsi heç bir əsas vermir ki, çərşənbələrin yeri sürüşdürülsün. 2008-ci ildə də bu baş verib. O zaman hətta bayramla çərşənbə ayın 21-ə düşmüşdü. 10 il keçdi və bu yenidən baş verdi. Yəni çərşənbə ilə bayramın üst-üstə düşməsi mümkündür.



### "Bu il yaz fəsli 20 mart saat 20:15:30-da daxil olacaq"

***- Çərşənbələrin adlarının və sıralanmasının zamanla dəyişdiyi və ünsürlərlə əvəz olunduğu deyilir. Bu, doğrudurmu?***

- Çərşənbələrin qeyd edilməsi məhəlli və qlobal səviyyədə həyata keçirilir. Məsələn, 1-ci çərşənbəyə xalq arasında yalançı, əzəl, su çərşənbəsi deyilib. Bilirsiniz ki, dünyanın yaranmasında dörd əsas ünsür var. O ünsürlərlə çərşənbələrin bağlanması da çox maraqlı bir haldır. Məsələn, mifologiyada bununla bağlı kiçik bir rəvayət var. Bu mifdə deyilir ki, hələ dünyada Allahdan başqa heç kim yox idi və yer üzü başdan başa su ilə örtülü idi. Sonra Günəş, od, istilik çıxdı. Yavaş-yavaş su qurumağa başladı və torpaq üzə çıxdı. Sonra yellər əsdi və dünya cana gəldi.

İndi biz deyirik ki, 3-cü torpağın üzə çıxmasıdır. Amma hazırda torpaq çərşənbəsi axırıncı qeyd edilir. Bunun da müəyyən səbəbləri var. Təbiət qışda ölür, yazda dirilir. İnsan yazda təbiətin dirilməsini bu 4 cisimlə bağlayır. Hər çərşənbəni də bir cismin oyanması kimi izah edir. Qədim nəzəriyyəyə görə insan oddan keçirsə, özünü oda qurban verir. Oddan çıxırsa, artıq dirilib çıxmış olur. Bu indi simvolik bir şeydir. Amma qədimdə bu simvolik ola bilməzdi. İndi biz buna əyləncə kimi baxsaq da, vaxtilə insan inanırdı ki, oddan keçə bilsə, yeni gələn ilə təzə ruhla girəcək və ona uğur gətirəcək. Oddan tullananda deyir "sarılığın səndə, qırmızılığın məndə", "ağırlığım, uğurluğum odda yansın". Görürsünüz ki, insan ağırlığını da, uğurunu da oda qurban verir. Çünki od insanın həyatında elə bir element idi ki, insan o oddan paklığı götürür, yeni ilə yeni ruhla daxil olmaq istəyirdi. Ona görə də bu çərşənbələrin indi müxtəlif adlarla adlandırılması məhəlli məsələlərdir və bu mədəniyyətimizə heç bir xələl gətirmir. Bəzi alimlər çərşənbələrin bizi türk mədəniyyətindən, türk dünyasından ayırmağa xidmət etdiyini deyir. Çərşənbələrin ünsürlərlə bağlanması guya qədim türk ənənəsində olmayıb və bu 90-cı illərdə uydurulub. Hər il bununla bağlı müzakirələr olur. Bəzi alimlər deyir ki, qərb bölgəsində çərşənbələr yalançı, xəbərçi, ölü və ilaxır çərşənbə adlandırılıb. "Azərbaycanı öyrənmə" jurnalının 1928-ci ildə çapdan çıxan ikinci sayında Əhməd Paşabəylinin bu barədə bir məqaləsi var. O qeyd edir ki, Şirvan, Şəki, Qutqaşın ərazisi, Göyçay qəzası üzrə insanlar hər həftə çərşənbələrdə bir cismin adına tonqal qalayar və bunu qeyd edərdilər. Əhməd Paşabəylinin sıralanmasında belədir: 1-ci havaya, 2-ci suya, 3-cü torpağa, 4-cü isə ağaca. Ağac türk düşüncəsində çox müqəddəs hesab edilib və nəsil, inkişaf deməkdir. Ağac üçlü dünya modelini özündə ehtiva edir. Kökü yeraltı dünyanı, gövdəsi yer üstü dünyanı, budaqları isə göyü, səmanı əks etdirir. Hər çərşənbədə tonqal qalanması odun olduğunu, ancaq çərşənbə kimi qeyd edilmədiyini göstərir. Axı bu bayramın qeyd edilməsi havanın isinməsi, günəşin şimal yarımkürəsinə keçməsi halı ilə qeyd edilir. Deməli, bu bayramın əsas atributu Günəşdir. Günəşin də yerdəki simvolu oddur. Məsələn bəzi adamlar deyir ki, bizim bölgəmizdə ilk çərşənbə od çərşənbəsidir. Naxçıvanda isə od axırıncı çərşənbə kimi qeyd edilir. Ancaq hazırda qeyd edilən 4 ünsür dünya tərəfindən qəbul edilib və dünyanın, insanın yaranmasında əsas bu 4 ünsür dayanır. Torpaq və yer çərşənbəsinin yerinin son dövrlərdə dəyişməsi əkinçilik həyatı ilə əlaqədar götürülüb. Bu sıralanmada müəyyən fərqlər olsa da, bu tarixdə, ədəbiyyatımızda olub. Məsələn, indi ikinci çərşənbəyə bəzi yerlərdə xəbərçi, Bakı ətrafında isə üskü çərşənbə deyirlər. Üskü od mənasındadır. Məsələn 3-cü çərşənbəyə bəzi yerlərdə ölü çərşənbə, Qarabağ zonasında isə gül çərşənbəsi deyirlər. Bu çərşənbədə qəbir üstünə gül apardıqları üçün bu cür adlandırırlar.

***- Papaqatdı adətinin ləğvi məsələsi də zaman-zaman səsləndirilir, bunun sonradan yaranmış bir ənənə olduğu və kişinin papağını yerə atmasının bir təhqir olduğu bildirilir.***

- Qədim ənənədə papaqatma olmayıb. Qədimdə papaq yox, qurşaq, şal, torba atıblar. Papaq məsələsi bizim mədəniyyətimizə sonradan gəlib. Məsələn, Göyçay bölgəsində buna yaylıq atdı deyərdilər. Biz əl yaylığının dörd tərəfini düyünləyərdik və içərisinə daş qoyub atardıq. Naxçıvan zonasında da buna şal atdı, qurşaq atdı, şimal, qərb bölgəsində isə torba atdı deyirlər. Bu "Dəli Kür" filmində də var. Zaman keçdikcə etnoqrafik fon dəyişir. Yeni köhnə geyim vasitələrinin sıradan çıxması ilə bağlı yeni geyim növləri əmələ gəlir. Cavan oğlanlar o vaxt bellərinə qurşaq bağlayırdılar. İndi o qurşaq yoxdur. Hətta o vaxtlar kişilərin də şala bənzər çalma papaqları olub. Bu geyim növləri sıradan çıxıb. Hazırda papaq atma ənənəsinin heç 100 il tarixi yoxdur. Bəlkə də bu 30-50 ilin məsələsidir. Qədim dövrdə bu ənənəyə kasa saldı mərasimi də deyilib. Əllərində kasa tutan adamlar qara geyinər, üzlərini də örtərdilər. Əslinə qalanda papaq atanda insanın üz görünməməlidir. Amma indi bunun əhəmiyyəti itib və əyləncəyə çevrilib. Amma bunun ritual əsası ruhun imitasiya edilməsi idi. Həmin ili dünyasını dəyişmiş insanların payını yığmaq üçün gəlirdilər. Verilən pay da dənli bitkilərdən ibarət olardı - buğda, arpa, noxud və s. Bu paylar məhsuldarlıq bol olsun deyə, aparılıb yeni əkiləcək sahələrdə dualar oxunaraq səpilərdi. Həmçinin bu bayram təkcə dirilərin deyil, həm də ölülərin bayramı idi. Qədim təsəvvürdə onlar ölü deyildi, dünyasını dəyişmiş insanlar idi. Hazırda etnoqrafik fon dəyişib, məsələnin mahiyyəti itib və bu gün onu əyləncə şəklində həyata keçirirlər. Mən təklif vermişdim ki, bu papaqlar novruz torbaları ilə əvəz oluna bilər. Bir iş adamı bunu üzərinə götürsə, gəlir əldə edə bilər. Üzərində Novruz atributlarının şəkli əks olunan bu cür torbaların hazırlanması sifariş edilə və satışa çıxarıla bilər. Bunun qiymətini də ucuz edə bilərlər ki, insanlar ala bilsin. Bunu etsələ,r papaq atma yığışdırılar və əvvəlki ənənə yaşayardı.

***- Şaxta baba pay verir, Kosa və Keçəl isə nimdaş paltarda pay yığır, bu personajların bizə utanc gətirdiyini, hətta onları dilənçi adlandıranlar var. Bu məsələyə münasibətiniz necədir?***

- Əslində bu da məhsuldarlığın bir nişanəsidir. Məsələn, Diyarbəkirdə Kosa qapıya gəlməsə, insanlar narahat olur və düşünürlər ki, kosa gəlmədisə, xeyir bərəkət də olmadı. Kosanın qapıya gəlib pay aparması o qapıya ruzi-bərəkət arzulanması kimi anlaşılır. Bu rəmzlərin paltarlarının nimdaş olması məsələsi də qabardılır. Hər kəs bilir ki, qış yoxsulluğun, soyuğun simvoludur. Onun geyiminin də cır-cındır içində olması o yoxsulluğu ifadə edir. Keçəl obrazının ölüb dirilməsi məsələsi də imitasiya məsələsidir. Bu da təbiətin ölüb, qış fəslindən yaz fəslinə keçməsi məsələsidir. Bunu teatr vasitəsilə obrazlı şəkildə xalqa çatdırırlar. Burada arxaik və teatr mədəniyyəti var. Keçəlin burada funksiyaları çoxdur. Bəzən deyirlər ki, onun başının keçəl olması, işıq saçması günəşi təmsil edir. Kosa sanki o səhnəni qurur, Keçəl isə ona köməkçi olur. Buna qətiyyən utancverici bir ünsür kimi baxmaq olmaz. Bu bizim teatr mədəniyyətidir. Ancaq bu ünsürlərin pomadalı, rumiyanalı şəkildə kloun kimi səhnəyə çıxması ilə mən də əleyhinə olmuşam. Burada təqdimat yerində olmalıdır. Məsələn "Yeddi oğul istərəm" filmində Kosa və keçəli gözəl klassik formada veriblər. Bu personajlar kloun formasında yox, insanlarda ikrah oyatmayacaq, düşündürə biləcək formada təqdim edilməlidir".

❑ **Günel MANAFLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 45 (6934) 25 fevral 2018

# Uşaqları döymək tərbiyə üsuludurmu?

## Daşkəsəndə "ZİL" sürücüsü 36 yaşlı sevgilisini öldürüb qaçdı

**Daşkəsəndə qadın qeyri-rəsmi nikahda yaşadığı şəxs tərəfindən qətlə yetirilib. APA-nın Qərb bürosunun məlumatına görə, hadisə rayonun Əhmədli kəndində baş verib.**

Kənd sakini 1982-ci il təvəllüdlü Abbasova Mahizər Məhəmməd qızı qeyri-rəsmi nikahda yaşadığı 1978-ci il təvəllüdlü Bəşirov Qorxmaz Şəmil oğlu tərəfindən başına küt alətlə vurularaq qətlə yetirilib. Qətli törədən şəxs hadisə yerindən qaçıb. Hazırda onun saxlanılması istiqamətində tədbirlər görülür.

Məlumata görə, M. Abbasova bir neçə il əvvəl rəsmi nikahda olduğu həyat yoldaşından boşanıb, bir oğlu və bir qızı var. Oğlu orta məktəbin 9-cu sinfində oxuyur, qızı isə ailəlidir, bir övladı var.

Kənd sakinlərinin Report-a verdiyi məlumata görə, qadının meyitini oğlu aşkar edib. Həmin gecə oğlu qonşuluqda olan bacısıgildə olub. Qadın oğluna həmin gün evə gəlməyəcəyini və tək qorxmaması üçün bacısıgilə getməsini istəyib. Səhər uşaq öz evlərinə qayıdanda anasını ölmüş vəziyyətdə görüb. Qadının əvvəllər kiminləsə bir münasibətinin olmadığı bildirilir.

Sakinlər bildiriblər ki, Bağırov Qorxmaz Şamil oğlu sürücülüklə məşğuldur. Özünə məxsus "ZİL" markalı avtomobillə yük daşıyaraq dolanır. Ailəsi və 15-16 yaşlı bir qızı və bir oğlu var. Təxminən bir ay əvvəl həyat yoldaşı məhkəmə yolu ilə ondan boşanıb. Buna kişinin başqa qadınla vətəndaş nikahında yaşaması, eyni zamanda öz xalası qızı üçün 3500 manat məbləğində kredit götürməsi və həmin krediti xalası qızının yox, məhz Q.Bağırovun öz uşaqlarının boğazından kəsərək ödəməsi səbəb olub.

O da bildirilir ki, o, xalası qızının adına olan krediti qeyri-rəsmi yaşadığı qadına görə götürüb. Q.Bağırovun 2017-ci ilin yanvar ayında sərxoş vəziyyətdə ictimai qaydanı pozduğuna görə 15 gün həbsdə olduğu da deyilir. Fakt bağlı Daşkəsən rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.

## Alimlərdən xəbərdarlıq: 40 il sonra şokolad olmayacaq

**98 milyard dollarlıq şokolad sənayesinin əsasını təşkil edən kakaonun gələcəyi təhlükədədir. Musavat.com-un dünya mətbuatına istinadən verdiyi məlumata görə, bu barədə elm adamları xəbərdarlıq edib. Onların dediklərinə görə, 40 il sonra şokolad hazırlamaq mümkün olmayacaq.**

Bu təhdidin arxasında qlobal istilərdən tutmuş, həşəratlara kimi bir çox amil var. Hazırda alimlər bununla bağlı çıxış yolları axtarır. Bir çox insan üçün bu problem ciddiyə alınmasa da, ötən ay Fransada baş verən "Nutella üsyanı"na nəzər salınmalıdır.

Araşdırma şirkəti olan "Euromonitor"un hesabatına görə, 2016 və 2017-ci illərdə dünyada şokolada tələbat 7540 tona qədər olub. Bu rəqəm 5 il öncəsi ilə müqayisədə 10 faiz artıb. Şokolada tələbatın artdığı ölkələrin sırasında əhalisi çox olan ölkələr ön sıradadır. Dünyada ən böyük şokolad bazarı ABŞ-da yerləşir. Ən yüksək şokolad istehlakı isə İsveçrədədir. Burada adambaşına il ərzində 11 kq şokolad payı düşür. Son 40 il ərzində kakaonun qiymətində də enmə müşahidə olunur. 1970-ci ildə bu bitkinin 1 tonu 4 min dolar idi. Hazırda isə 1 tonu 2138 dollara enib.

Alimlər vəziyyətin daha da pisləşməsinə səbəb kimi gənclərin bu işlə maraqlanmamasını göstərir. Günümüzdə ən gənc kakao istehsalçısının 51 yaşı var.

Kakao ağacı tropik bölbələrdə yetişir və bu bitki xüsusi zəhmət, diqqət tələb edir. Bir ağacın il ərzində verdiyi məhsuldan yalnızca yarım kilo kakao əldə olunur. Kakao bitkisi yabanıdır və həşəratlara qarşı dözümlüdür. Lakin 19-cu əsrin sonlarında Amazon bölgəsindən Afrikaya gətirilən bitkinin fərqli virus və təbiətlə tanışlığı vəziyyəti dəyişib. 1980-ci ildə Braziliyanın şimalında yayılan epidemiya da bu bitkiyə zərər verib. 1991-ci ildə olunan məhsul 320 ton idisə, 2001-ci ildə bu göstəricilər 191 tona enmişdi. Kakao böhranının daha bir səbəbi də ağacların xəstəliyinin vaxtında diaqnozlaşdırılmasının mümkünsüz və çətin olmasıdır. Hazırda elm adamları bu məsələ ilə ciddi şəkildə tədbirlər görməyə başlayıblar. Mütəxəssislərin ilk açıqlamalarına görə, kakaonu genetik dəyişikliklə bu vəziyyətdən çıxarıb, daha da davamlı edəcəklər.

❑ Turan ORUC,
Musavat.com

**Elan**

Smeta+ proqramını bilən, rus dilində danışa bilən, kompüterdə işləmək bacarığı olan 25-50 yaş arası mütəxəssis tələb olunur.

Əlaqədar şəxs Rəşad Abdullayev
İş qrafiki (08:30 - 17:30)
İstirahət günləri şənbə və bazar
Əmək haqqı 600-800 AZN

## Psixoloqdan maraqlı şərh: "İstənilən zorakılığın əleyhinəyik, istər məktəb olsun, istərsə də ailə, amma..."



**"Uşaqları tərbiyə etmək üçün onu mütləq döymək lazımdır". Bu sözləri gənc bəstəkar Sədaqət Rəşidqızı "Space" telekanalında yayımlanan "El bizim, sirr bizim" verilişində deyib. Gənc bəstəkar uşağın döyülməsinə normal yanaşdığını bildirib.**

"Əgər uşaq yaxşı iş görürsə onu mükafatlandırmaq, pis iş görürsə, şıltaqlıq edirsə, sözə baxmırsa onu döymək lazımdır. Döyəndən sonra uşaq hər şeyi başa düşür", - deyə o bildirib.

Qeyd edək ki, gənc bəstəkarın bu sözləri sosial şəbəkələrdə müzakirələrə yol açıb. Əksəriyyət bəstəkarı qınasa da, onunla həmfikir olanlar da tapılıb. Bəs şagirdləri və ya uşaqları tərbiyə məqsədilə döymək lazımdırmı, buna lüzum varmı?

Qeyd edək ki, bu günlərdə "Gənc Vətəndaş" İctimai Birliyinin icraçı direktoru Günel Səfərova ali məktəb rəhbərlərinə müraciət edərək təklif edib ki, yeni tədris proqramına uşaq hüquqları ilə bağlı fənn salınsın: "Bu müəllimləri yeni dövrün çağırışlarına hazırlamaq baxımından önəmlidir. Çünki onlar təkcə müəllim yox, həm də pedaqoq kimi hazırlanmalıdırlar.

Uşaqların hüquqları, müdafiəsi, uşaqlara qarşı zorakılıq əleyhinə yanaşma, əsasən, onların tədrisi ilə məşğul olan müəllimlərdə olmalıdır. Ümumiyyətlə, uşaqların təhsil aldığı müəssisələrdə hər kəs onların müdafiəsi, təhlükəsizliyi barədə bilgiyə sahiblənməlidir. Məsələn, indi müəllimlər öz ixtisası ilə bağlı mütəxəssis olurlar, amma uşaqlarla davranışı tam öyrənmirlər. Pedaqogika yeni standartlara cavab verməlidir. Məsələn, uşaqlarla davranış, ünsiyyət, uşaq psixologiyası və s. prioritet təşkil etməlidir. İndiki dövrün uşaqları texnoloji əsrin uşaqlarıdır və onlara fərqli yanaşılmalıdır. Ən əsası, indiki müəllimlərin əksəriyyəti uşaq zorakılığı əleyhinə bilgilərini artırmalı, uşaqlara sözlü, fiziki təhqiri üstün tutmamalıdırlar. Xüsusilə gənc müəllimlər üçün əksər hallarda uşaq hüququ, müdafiəsi əsas olmalıdır".

O həmçinin bildirib ki, müəllim-şagird münasibətlərinin zorakılıq səviyyəsinə gəlib çıxması pedaqoq hazırlığı ilə birbaşa bağlı olan məsələdir.

Psixoloq Narınc Rüstəmova da mövzu ilə bağlı "Yeni Müsavat"a danışaraq qeyd edib ki, ümumiyyətlə, təlim prosesi tədrislə yanaşı getməlidir: "Əgər biz məktəbdə müəllim şagirdlərə təkcə təhsil versə, pedaqoji fəaliyyətindən istifadə etməsə, təbii ki, onun gördüyü işin keyfiyyəti olmaz. Çünki müəllim hər bir şagirdi və onun ailəsini tanımalı və ona uyğun hərəkət etməlidir.

Müəllim təzyiq hər zaman qəbul olunmazdır - istər zorakılıq olsun, istər fiziki və ya psixoloji təzyiq. Məsələn, bizim qurumumuza çox uşaq məktəb qorxusu ilə bağlı şikayətlə müraciət edir. Əgər bir müəllim hansısa şagirdi döyürsə, digər şagirdlər bunu görür və onlarda həssas qorxu yaranır, təsirlənir, qarın ağrıları, ürək bulantıları və sairə olur, beləliklə də təhsildən yayınır. Bəzən görürük ki, müəllimlər şagirdləri qorxudaraq şantaj edir, məsələn, deyir ki, "əlini yandıracam, ya qapı arxasında qoyacam, direktorun otağına aparacam" və sairə. Beləliklə, müəllim bu şəkildə psixi zorakılıq göstərməklə guya uşaqları oxumağa sövq edir. Təbii ki, biz bütün bunların əleyhinəyik, istər məktəbdə, istərsə də ailədə. Bütün sferada təzyiqə yox deyirik".

Lakin psixoloqa görə, bu, o demək deyil ki, uşağın bütün istəkləri davamlı olaraq həyata keçməli, ona hər zaman "hə" deyilməlidir: "Əlbəttə ki, bütün bunlar qaydasında həll olunmalıdır. Valideyn bilməlidir ki, bu qaydalara əməl olunmasa, nəticələri necə ola bilər. Qaydalara uyğun cəza üsulları var ki, onlar həm məktəbdə, həm də ailədə tətbiq edilməlidir. Bu cür situasiyalarda mütləq şəkildə məktəb psixoloqları yaxından iştirak etməlidir. Bəzən valideynlər psixoloqların verdiyi cəzanı qəbul etmir, az qala müəllimlə davaya çıxır. Bu baxımdan valideynlə müəllimin əməkdaşlığı olmalıdır".

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"



## "Nar" Texniki Universitetin ən yaxşı tələbələrini mükafatlandırdı

nar
Gəlin birlikdə böyüyək

**"Nar" özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Azərbaycan Texniki Universitetində xüsusi avadanlıqlarla təchiz edilən "Nar" laboratoriyasını istismara vermiş mobil operator AzTU ilə olan əlaqələrini müxtəlif istiqamətlərdə inkişaf etdirir.**

**Universitet ötən semestrdə Radiotexnika və rabitə fakültəsinin ən yaxşı nəticə göstərmiş tələbələrinin adlarını artıq elan edib. Tədris semestrinin ən yaxşı 3 tələbəsi - Nuranə Vaqif qızı Gülhəsənli, Tarverdi İmran oğlu Tağıyev və Könül Cavanşir qızı Əhmədova müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerləri tutmaqla "Nar" tərəfindən xüsusi hədiyyələrə layiq görülüblər. Təhsil və maarifləmənin inkişafına xüsusi önəm verən "Nar" bu təşəbbüsü ilə tələbələrə dərslərində daha uğurlu olmaları üçün əlavə stimul verməyə davam edir.**

**Xatırladaq ki, Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində universitetdə "Nar" GSM laboratoriyası yaradılmış, tələbələr GSM sahəsi üzrə müxtəlif nəzəri biliklər və təcrübə əldə etmək fürsəti qazanmışlar. "Nar"-ın müasir telekommunikasiya avadanlığının quraşdırıldığı xüsusi laboratoriyada peşəkar texniki işçi heyəti tərəfindən tələbələr üçün təlimlər və seminarlar keçirilir. Proqram çərçivəsində praktiki bilikləri inkişaf etdirən bir qrup gənc ixtisaslı kadr kimi yetişmək üçün mobil operatorda ilk addımlarını atmışdır. Universitetdəki laboratoriyanın təchizatı və tələbələr üçün nəzərdə tutulmuş təcrübə proqramı "Nar"-ın gənclər və təhsilə yönəlmiş KSM strategiyası çərçivəsində həyata keçirilir.**

**Mobil operatorun KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək mümkündür.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etmişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

YENİ MÜSAVAT
N 45 (6934) 26 fevral 2018

**Bu gün yeni iş həftəsi başlayır. Enerji dolu, maraqlı və rəngarəng bir həftə keçirmək üçün, ümumiyyətlə, günə yaxşı başlamaq lazımdır. "Yeni Müsavat" Türkiyə mətbuatına istinadən günə gözəl başlamanın və günü gözəl etmənin yolları barədə məlumat verir.**



# Həftəni gözəl keçirmənin bəsit yolları: ye, iç və...

## Bu məsləhətləri oxumadan günə başlamayın

Hər axşam yatağa giririk və hər sabah yeni fürsətlərlə dolu bir günə başlayırıq. Bəs, bu fürsətlərdən nə qədər istifadə edə bilir, günümüzü nə qədər gözəl keçirə bilirik?

Nə qədər tez və ya gec oyanırsızsa oyanın, gününüzü funksional keçirmənin, dəyərləndirə bilmənin yolları aşağıdakılardır:

***1. Yatanda üstünüzə birdən artıq odeyal və ya yorğan örtün***

Dərin yuxuya keçdiyimizdə bədənin temperaturu öz-özünə aşağı düşür. Stanford Universiteti Yuxu Elmləri Mərkəzindən doktor Rafael Pelayo isə yuxunun ən dərin nöqtəsinin oyanmadan iki saat öncə baş verdiyini deyir. Bu səbəbdən də saatın zəngi çalınmadan öncəki saatlar əslində yuxunun ən şirin saatlarıdır. Əgər üstünüzə birdən artıq örtü alsanız, bədəniniz isinəcək və yataqdan qalxmağa hazır hala gələcək.

***2. Yuxu saatlarınızı dəyişdirin***

Lazımi qədər yuxunuzu aldığınız zamanlarda belə ətrafda zombi kimi gəzirsiniz? Bundan çıxış yolu yuxu sisteminizi gündəlik ritminizə uyğun hala gətirməkdən keçir. Hamımız eyni zaman dilimində yaşamış olmağımıza baxmayaraq, bəzilərimizin iç saatında dəqiqələr belə önəmli bir fərq yarada bilir. Məsələn, siz sabahlar 7.30 yerinə 7.15-də oyandığınız zaman özünüzü daha yaxşı hiss etmiş ola bilərsiniz. Bunun üçün xüsusən yuxu sisteminizi görə biləcəyiniz bir mobil tətbiqetmədən yararlana bilərsiniz. Beləliklə, yuxunuzun ən xəfif olduğu saatlarda oyanaraq günü daha funksional hala gətirə bilərsiniz.

***3. Dişinizi fırçalayanda gimnastik hərəkətlər edərək vaxtınızı dəyərləndirin***

Ayaqlardakı və yancaqlardakı böyük əzələ qruplarını hərəkətə keçirmək, beyinə daha sürətli qan getməsinə yardımçı olur. Beləliklə beyinə daha çox oksigen performans artırıcı kimyəvi maddələr gedir. Dişlərinizi fırçalayarkən gimnastik hərəkətlər edərək günə daha hərəkətli başlaya bilərsiniz.

***4. Səhər yeməyində bol karbonhidrat qəbul edin***

Araşdırmalar göstərib ki, səhərlər sistemli bir səhər yeməyi yeyən insanlar gün boyunca daha diqqətli, daha kəskin bir yaddaşa sahib olur və elmi performans baxımdan daha yaxşı olduqlarını göstərirlər. Qidalar beynin qidasıdır. Bu səbəbdən səhər yeməyində mütləq tam buğdalı qidalar qəbul etməyə çalışın.

***5. Yatmazdan əvvəl səhərki gün üçün kofe aparatınızı hazırlayın***

Kofein yuxu gətirən beyin kimyasalı olaraq da tanınan adenozini keçici olaraq əngəlləyir. Bu da sabahları oyanmağı və əzginliyi üzərindən atmağı asanlaşdırır. Səhərlər içilən gözəl bir kofe zehni olaraq daha güclü olmağınızı və fiziki performansınızı artırmanızı təmin edər. Səhərlər bu gözəllikdən uzaq qalmamaq üçün kofe maşınınızı bir axşam öncədən hazırlayın.

***6. Sabah ritualını yaradın***

Özünüz üçün bir şey edin və bir sabah ritualı yaradın. Bu ritual qısa müddətli meditasiya da ola bilər, səhər idmanı da, şükür etmə də. Bu ritualı təkrarladıqca vərdişə çevriləcək. Unutmayın, beyin vərdişləri sevir. Nəticədə enerjiniz yüksəlir və potensialınız artır. Bir müddət sonra beyniniz bu vərdişi axtaran hala gəlir.

**Oyanan kimi başınız ağrıyırsa, ondan bu formada qurtulun**

Son zamanlar insanların ən çox şikayət etdiyi problemlər içərisində səhər oynan kimi bizi ağuşuna alan baş ağrısı və stress mühüm yer tutur. Bir çox dərman vasitələrindən istifadə etməklə bu problemlərdən qurtulmaq mümkündür. Lakin bu üsulun mənfi cəhətləri də ola bilər. Belə olan halda, insanlar təbii yollara müraciət edirlər. Baş ağrısının nə vaxt gələcəyi sizə məlum deyil. Bu səbəbdən də, yanınızda ağrıkəsicinin olmadığı hallar vardır. Bundan əlavə, tez-tez ağrıkəsici istifadə etmək həm bədəni yorar, həm də mütəxəssislər tərəfindən təklif edilməməkdədir. Bu sadə üsulu istifadə edərək yalnız 30 saniyədə baş ağrınızdan və ya stressinizdən xilas ola bilərsiniz. Belə ki, bədənimizdə bəzi aktiv nöqtələr vardır. Bu nöqtələrə masaj edildiyində ağrılar azala, hətta tamamilə aradan qalxa bilər.

Əlinizdəki şəhadət barmağı ilə baş barmağınız arasındakı nöqtəyə təzyiq tətbiq edərək baş ağrısından xilas ola bilərsiniz. Təzyiqi 30 saniyə ərzində davam etdirin. Ardından əl dəyişdirərək digər əlinizə də tətbiq edin. Doğru tətbiq etdiyiniz halda, baş ağrısının keçdiyini görəcəksiniz. Bu həqiqətən də, işə yarayır.

**Həyat qurtaran məsləhətlər - bunu etsəniz, gün uğurlu keçəcək**

Məsləhətlər bununla bitmir ki... Həqiqətən də günə gözəl başlamanın çox fərqli üsulları var. Heç kimə sirr deyil ki, gündən daha çox faydalanmaq üçün tezdən oyanmaq şərt sayılır. Çünki özünüzü hazırlamaq üçün çox vaxta ehtiyacınız var. Tez oyanmaqla gün üçün ayrılacaq olan enerjinizi daha yaxşı mühafizə etmiş olarsız.

Güzgüdə özünüzə 30 saniyə gülümsəyin. Bu, sizin mənlik hörmətinizi artırmaq üçün ələ yoldur və bunu bir neçə dəfə etməklə artıq vərdiş halına gətirə bilərsiz. Özünüzə daha çox güvənən və haqqını tələb etməkdən çəkinməyən biri olacaqsız.

Əsnəmə hərəkətləri edin. Əzələlərinizi oyandırmaq və günə hazır olmaq üçün 5 dəqiqəlik uzanma və gərilmə hərəkətləri edin.

Bədəninizi kisələyin. Səhərlər duş qəbul edərkən quru bir fırça ilə kisələnməniz həm qan dövranınızı yaxşılaşdıracaq, həm də ölü dəridən qurtulacaqsız. Kisələnmədən sonra nəmləndirici kremdən istifadə edin.

Canlandırıcı bir musiqi, ya da səsli kitab dinləyin. Uzun bir gün üçün davam edən motivasiya istəyirsizsə, günə belə başlamalısız. Stressli bir gündə belə, bacarıqlı olmanın ən asan yolu budur.

Yaşıl "smoothie" zamanı. İspanaq, lahana, yaşıl yarpaqlı bitki mənşəli qidalarla lif və mineral qaynağı olan, bədəninizi rahatladacaq yaşıl "smoothie" hazırlaya bilərsiz.

Bir neçə dəqiqə meditasiya ilə məşğul olun. Sevdiyiniz musiqini qoşun və sadəcə səssiz oturub bir neçə dəqiqə dinləməniz sizə çox şey bəxş edəcək.

Dilinizi təmizləyin. Dilinizi təmizləməklə həm ağız qoxusundan xilas olar, həm də yeməklərin dadını daha yaxşı hiss etmiş olarsız.

O gün həll etməniz gərəkən ən az 3 şeyi siyahıya alın. Güvən yaradacaq və daha böyük şeylər üçün narahat olmanızı əngəlləyəcək.

**200 dəfə "press" etsəniz, gərgin gündən qorxmayacaqsız**

Heç birimizə sirr deyil ki, idman günün başlanğıcı üçün mühüm ritualdır. Səhərlər qısa müddətli belə olsa idman hərəkətləri etmək sizi bütün günə bəs edəcək enerji ilə təmin edəcək. İstənilən şəxs 200 dəfə "press" etdikdən sonra gərgin işə dözəcək potensiala sahib olur. Əgər yuxudan səhər 5 radələrində qalxaraq qaçışla məşğul olmaq üçün o qədər də cəsarətli deyilsinizsə, heç deyilsə 15 dəqiqə tez qalxaraq bəsit idman hərəkətləri edin. Bu oyanmağa və iş gününə hazırlaşmağa kömək edəcək.



Bütün imkanlarınızdan maksimum şəkildə istifadə edərək məqsəd və gündəlik işlərinizi planlaşdırın. Bu planlaşdırma üçün səhər ən ideal vaxtdır. Gün üçün düzgün şəkildə təşkil edilmiş qrafik tapşırıqları düzgün şəkildə yerinə yetirməyə imkan verəcək. Bu iş planında özünün üçün 15 dəqiqəlik fasilələri də təyin etməyi unutmayın.

Səhərlər lazımi enerji üçün məhz sağlam qidaya ehtiyacınız var. Səhər yeməyi sizin fiziki sağlamlığınız üçün faydalı olmaqla yanaşı, sizin ailə ilə ünsiyyətinizi də qaydasına salır. Səhər yeməyi zamanı yoldaşınız və uşaqlarınız ilə 5 dəqiqəlik söhbət belə bütün iş günündə xoş əhval-ruhiyyəyə sahib olmağınıza səbəb ola bilər.

**Və son üç məsləhət**

Çox adam səhərlər oyananda dilini də təmizləyir. Bəli, dişini yumaqdan yox, dilini təmizləməkdən bəhs edirik. Dil ağızdan pis iyin gəlməsinə, ağız boşluğunda və mədədə xəstəliklərin səbəbinə çevrilən mikro orqanizmlərin çoxalması üçün ideal şəraitdir. Dişləri təmizləyərkən (gün ərzində 2 dəfə) diş fırçası, qaşığın sonluğunu və ya xüsusi vasitədən istifadə edərək dil ərpini təmizləyin.

Səhər yüngül məşq etməklə siz ürək-damar sistemini möhkəmləndirirsiniz, immuniteti yüksəldirsiniz, hərəkətlərin koordinasiyasını və vestübilyar aparatın işini yaxşılaşdırırsınız. Bundan başqa gündəlik məşq - skolioz, onurğa sütununun yırtığı və osteonxondrozun müalicəsi üçün əla vasitədir.

Stəkanda bir qaşıq bal və bu qədər sıxılmış limonun suyunu isti suda qarışdırın. Həkimlərin fikrincə belə içkinin səhər qəbulu həzmi gücləndirmək üçün əla üsuldur.

Limonlu və ballı su qaraciyərin işini yaxşılaşdırır, maddələr mübadiləsini normallaşdırır və bağırsağın sağlam mikroflorasını təmin edir. Qan dövranını aktivləşdirir və zəhərli maddələri orqanizmdən çıxarır, bu da dərinin vəziyyətinə yaxşı təsir göstərir. Bundan başqa limonda olan C vitamini qocalıq prosesini ləngidən güclü antioksidantdır.

Sonda... Gördüyünüz kimi, həftə yeni başlayanda bizi daha gözəl gün keçirməyə sövq edən bir neçə dəyərli məsləhət var. Biz bunların hamısını bir gündə, bir sabahda etməlisiniz demirik. Amma yavaş-yavaş, məntiqlə və sistemli şəkildə bunları həyata keçirmək gününüzün, həyat tərzinizin gözəlləşməsinə səbəb olacaq.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 45 (6934) 26 fevral 2018

# Qadınlar iştahlarını belə küsdürürlər

Baharın gəlişinə az qalıb və indidən qadınların qorxulu röyası olan artıq çəki problemi maksimuma çatıb. Elə bu səbəbdən həkimlər iştahı kəsmənin 5 qızıl qaydasını müəyyənləşdiriblər. Bunlardan birincisi yeməyi bol-bol çeynəməkdir. Həkimlər müəyyənləşdirib ki, yeməyi uzun müddət çeynəyib udandan sonra beyin bədənə gedən qidaları qeydiyyata alır və dad alma özəlliyini də təmin edir. İkinci əsas şərt şübhəsiz ki, idmandır. Üçüncü şərt isə dəyişik dadlarla dad alma ehtiyacını doyuzdurmaqdır. Bu halda insan daha az yeməklə kifayətlənə bilir.



Tez-tez və az-az yemək də iştahın nəzarətdən çıxmasını əngəlləmənin ən asan yoludur. Və sonuncu şərt bol su içməkdir. Bu, insanın özünü tox hiss etməsinə səbəb olur.



## Telefonu balışın altına qoydu... yanğın oldu

Amerikanın Texas ştatında yaşayan Ariel Tolfree telefonunu yastığın altına qoyaraq yatmağa başlayıb. Gecə yarısı otaqdan yanıq iyi gəlsə də, buna fikir vermədən yenidən yatıb. Bir müddət sonra yenidən oyanan balaca qız otağın çox ağır bir yanıq qoxusu ilə dolduğunu fərq edib. Balışdan başını çəkəndə isə Tolfree gördüklərinə inanmayıb. Şəkillərdən də göründüyü kimi, balışının altına qoyduğu telefon əriyib və yanmağa başlayıb.

Bu hadisəyə görə qızın ailəsi telefonu istehsal edən şirkətdən məhkəməyə şikayət edib. Amma şirkət nümayəndələri bildiriblər ki, məhsulları olduqca təhlükəsizdir və telefonun istifadə qaydalarında da "telefonun hava axını məhdudlaşdırılarsa, yanğına səbəb ola bilər" xəbərdarlığı yazılıb. Ailə bu xəbərdarlıqdan xəbərsiz olduğunu deyərək, açıqlamaya etiraz edib. İstehsalçı firma isə gələn bu etirazlara qarşılıq olaraq, yanan telefonu araşdırmaq istədiklərini deyiblər. Bundan başqa, Arielin telefonu, yatağı, yastığı və yataq dəstinə dəyən ziyanı da firma ödəyəcək.

## Pəncəsini itirən itə mükafat verdilər

Lukka ləqəbli çoban iti Əfqanıstan və İranda gedən döyüşlər zamanı pəncəsini itirdiyi üçün Mariya Dikin mükafatı ilə təltif olunub. Bu isə Böyük Britaniyada heyvanlar üçün ən ali mükafat hesab edilir. Medalın təqdimetmə mərasimi Londonda keçirilib. 12 yaşlı it tədbirə öz sahibi, serjant Kris Uillinqlə qatlıb.

Çoban iti 6 il boyunca ABŞ-dakı hərbi dəniz gəmisində qulluq edib. 2012-ci ildə Əfqanıstandakı bombanı aşkar edən zaman pəncəsini itirib. Bundan sonra it təqaüdə göndərilib.

Sahibi deyib ki, hazırda it də, özü də Kaliforniyada yaşayırlar. Lukka 1943-cü ildə təsis olunmuş mükafatı alanlardan 67-cisi olub. Gümüşdən hazırlanan mükafatın üzərində "Qəhrəmanlığa görə", "Biz də qulluq edirik" sözləri yazılıb. Mükafatı bir qayda olaraq London meri təqdim edir. Müxtəlif illərdə onu itlər, pişiklər, atlar və göyərçinlər əldə edib.



## İtimi tap, 650 min dollarlıq evim sənin olsun...

İtini itirən Çin sakini onu geri qaytaracaq adama mükafat olaraq evini təklif edib. "The Daily Mirror"un yazdığına görə, Lyu soyadlı, 70 yaşlı qadın Pekində yaşayır və artıq mükafatı barədə mətbuatda elan verib. Qadının evi 650 min dollar qiymətindədir. Elanın yayılmasından qısa müddət sonra 70 yaşlı it yiyəsinə çoxlu sayda telefon zəngləri daxil olub. Zəng edənlərin əksəriyyəti ya iti tapdığını, ya da harda olduğunu deyib. Onlardan əksəriyyəti yalan danışıb, bir çoxları isə başqa iti qadına öz iti kimi təqdim etməyə çalışıb. Qadının bacısı oğlu isə bəyan edib ki, dələduzların əlindən cana doyublar və buna görə də bu formada axtarışa son qoymaq niyyətindədilər.




QOÇ - Səhhətinizlə bağlı diqqətli olmağınız vacibdir. İqlimin dəyişkənliyi, ətrafınızda olan insanları qəbul etməməyiniz sinir sisteminizdə mənfi fəsadlar yarada bilər. İstirahətə fikir verin.

BUĞA - Qərarlarınızda qəti olsanız, heç bir narahatçılıqla üzləşməyəcəksiniz. Bu gün darıxdığınız adamların bir çoxu ilə görüşəcəksiniz. Axşama yaxın təzə hadisələrin şahidi olacaqsınız.

ƏKİZLƏR - Faciə gününə təsadüf etsə də, müəyyən insanlarla görüşüb mövcud problemlərinizin həllinə çalışa bilərsiniz. Çünki bugünkü söhbətlərin əhəmiyyəti böyükdür. İmkan tapıb qonaq gedin.

XƏRÇƏNG - Ay bürcünüzdə yerləşdiyi üçün səhhətinizdə problemlər ola bilər. Əsəbinizi cilovlayın, gün ərzində kiməsə yamanlıq etməyin. Nahar saatlarında yaxşı xəbər eşidəcəksiniz. Səfərə çıxmaq da olmaz.

ŞİR - İndiki məqamda xilas yolunuz yalnız dost və müttəfiqlərinizdən asılıdır. Çünki əsaslı dönüş etmək üçün fiziki və psixoloji cəhətdən o qədər də hazır deyilsiniz. Sağlamlığınıza fikir verin.

QIZ - Ulduzlar nahara qədər istirahət etməyinizi məsləhət görür. Əgər ciddi işlərə girişsəniz, uğurlu nəticə hasil olmayacaq. Günün ikinci yarısında isə maraqlı hadisələr gözlənilir.

TƏRƏZİ - Çağırılmamış ünvanlara qonaq getməyin. Əks təqdirdə məyusluqla qarşılaşacaqsınız. İxtiyarınızda olan bu gündə qonum-qonşuların dedi-qodusundan yayınmağa çalışın. Tədbirli olun.

ƏQRƏB - Bütün danışıq və sövdələşmələri təxirə salıb oturaq işlərlə məşğul olun. Əks təqdirdə təxribat və ya böhtanla üzləşəcəksiniz. Yaxşısı budur, enerjinizi ailə və sevgiyə yönəldəsiniz.

OXATAN - Astroloji göstəricilər yalnız səfərə çıxmaqla yüksək əhval-ruhiyyəyə yiyələnəcəyinizi proqnozlaşdırır. Bu fürsəti fövtə verməyin. Bu gün büdcənizin böyümə ehtimalı da var.

OĞLAQ - Bu təqvimdə ulduzlar daha çox sizin zodiaka pul vəd edir. Bu səbəbdən də boş durmağınıza lüzum yoxdur. Büdcənizi artırmaq üçün ağlınıza gələn bütün ünvanlara və adamlara baş çəkin.

SUTÖKƏN - Təxminən saat 12-yə qədər bürcünüz üçün bəzi xoşagəlməzliklər mümkündür. Özünüzü gərgin və anlaşılmaz situasiyalara cəlb etməyin. Nahardan sonrasa maraqlı görüş və pul gözlənilir.

BALIQLAR - Günün ümumi mənzərəsi hüznlü olduğundan bütün riskli işləri təxirə salın. Əsas vaxtınızı istirahətə həsr etməklə qarşıdakı günlərin planlarını qurun. Aldığınız təklifləri düşüncə süzgəcindən keçirin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Siqareti atmaq istəyənlər gecə gec yatmamalıdır



Yuxu ilə nikotin asılılığı arasında bir əlaqə var. Belə ki, gec yatanların siqaretdən asılılığı daha güclü olur, onlar siqareti ata bilmirlər. Mütəxəssislər hesab edirlər ki, buna nikotinin orqanizmə təsirinin yuxunu qaçırması səbəb olur. Alimlər sosial faktoru da vacib hesab edirlər. Məsələn, gec yatanlar gecələr tez-tez vaxtlarını bar və klublarda keçirirlər. Belə yerlərdə isə adətən çox siqaret çəkilir. Bu mühitdə insanda siqaret çəkmək vərdişi inkişaf edir və ondan yaxa qurtarmaq demək olar ki, mümkün olmur. Araşdırmaçıların fikrincə, yuxu rejiminin dəyişdirilməsi siqareti atmağa kömək edə bilər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100